Hər kəs ədalətli olacaq

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev

İctimai-siyasi, hüquq qəzeti

Qəzet 1990-cı ilin iyulundan çıxır

№ 45 (6187) 27 noyabr 2026-cı il

Qiyməti 40 qəpik

Zəngəzur dəhlizi inkişafa töhfəsini verəcək



Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar edilməsi bu regionu beynəlxalq nəqliyyat dəhlizləri və iqtisadi əməkdaşlıq baxımından mühüm strateji əhəmiyyətə malik məkana çevirib.

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidenti İlham Əliyev Beynəlxalq Qafqaz Konqresinin iştirakçılarına müraciətində deyib.

Prezident bildirib ki, Azərbaycanın təşəbbüsü ilə hazırda reallaşdırılan Zəngəzur dəhlizi Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqəni təmin etməklə yanaşı, Türkiyə ilə birbaşa quru nəqliyyat əlaqələrimizin genişlənməsinə, eyni zamanda, Orta Dəhlizin imkanlarının artırılmasına, beynəlxalq ticarət və logistika əlaqələrinin inkişafına və daha geniş mənada tarixi İpək Yolunun dirçəldilməsinə xidmət edəcək: "İnanıram ki, Beynəlxalq Qafqaz Konqresi regionumuzun gələcək inkişaf perspektivlərinin, İpək Yolunun bərpası imkanlarının müzakirəsi üçün əhəmiyyətli platforma olacaq, bölgədə sülhün, sabitliyin, qarşılıqlı etimadın möhkəmləndirilməsinə və dayanıqlı inkişafın təmin edilməsinə öz töhfəsini verəcəkdir".

Azərbaycanla Vatikan arasında sənəd imzalanıb



Vatikan Apostol Arxivi ilə əməkdaşlığın yeni istiqamətlərini müəyyən edən sənəd imzalanıb.

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov sosial şəbəkə hesabında bildirib. Onun sözlərinə görə, razılaşma çərçivəsində azərbaycanlı mütəxəssislər üçün təlimlərin keçirilməsi, arxiv işi və tarixi sənədlərin tədqiqi, mühafizəsi və rəqəmsallaşdırılması sahələrində qarşılıqlı təcrübə mübadiləsi, birgə elmi-tədqiqat layihələrinin həyata keçirilməsi nəzərdə tutulur.

"Eyni zamanda, azərbaycanlı gənc mütəxəssislərin Vatikanın mədəni irs və arxiv elmləri, kitab və əlyazmaların kataloqlaşdırılması üzrə proqramlarında iştirakı təşviq ediləcək", - Anar Ələkbərov vurğulayıb.

"Nə müharibə, nə sülh" vəziyyətindən çıxmalıyıq"



İran Prezidenti Məsud Pezeşkian ölkənin düşdüyü "nə müharibə, nə sülh" vəziyyətinin zərərli olduğunu və bu qeyri-müəyyənlikdən mümkün qədər tez, güc və ləyaqətlə çıxmağın vacibliyini bildirib.

Adalet.az xəbər verir ki, Pezeşkianın sözlərinə görə, mövcud vəziyyətin məntiqli şəkildə həll edilməsi ölkənin bir çox probleminin aradan qaldırılmasına imkan verə bilər.

O, İranın faydalı qazıntılar və böyük iqtisadi potensiala malik təbii ehtiyatlarla zəngin bir bölgədə yerləşdiyini də vurğulayıb.

Dövlət başçısı bildirib ki, ölkənin düşmənləri istehsal zəncirini pozmağa, bununla da işsizliyi, iqtisadi problemləri və cəmiyyətdə narazılığı artırmağa çalışırlar.

Şəhərdə təmizliyi pozanlar bu qədər cərimələnəcək



Şəhər və digər yaşayış məntəqələrində abadlıq, təmizlik və səliqə qaydalarına əməl etməyən şəxslər cərimələnə bilər.

Adalet.az Trend-ə istinadən xəbər verir ki, vəzifəli şəxslər üçün nəzərdə tutulan cərimələrin məbləği isə daha yüksəkdir. Belə ki, yaşayış məntəqələrinin ərazisini abadlaşdırma qaydalarını pozmağa, eləcə də təmizliyi və səliqəni təminetmə tələblərinə əməl etməməyə görə fiziki şəxslər 30 manatdan 50 manatadək cərimə edilirlər.

Eyni pozuntulara görə vəzifəli şəxslər 500 manatdan 800 manatadək məbləğdə cərimələnə bilərlər.

Türkiyədə helikopter qəzası



Türkiyənin Eskişəhir şəhərində təlim uçuşu həyata keçirən helikopter qəzaya uğrayıb.

Adalet.az xəbər verir ki, bu haqda Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, Hərbi Hava Qüvvələrinə məxsus, təlim tapşırığı üçün Eskişehirdən havaya qalxan AS-532 tipli helikopter qəza edib. Qəza nəticəsində 5 hərbçi həlak olub.

Dünyada qızılca epidemiyası



Dünyada qızılca xəstəliyinin yayılması son illərin ən yüksək səviyyəsinə çatıb. Mütəxəssislər bunun əsas səbəbləri kimi peyvəndlənmənin azalmasını, dezinformasiyanı və səhiyyə xərclərinin ixtisarını göstərirlər. Adalet.az xəbər verir ki, "Financial Times" nəşri mütəxəssislərə istinadən bu barədə məlumat yayıb.

Bildirilib ki, COVID-19 pandemiyası dövründə peyvənd proqramlarında yaranan fasilələr və əhalinin peyvənddən imtina etməsi yoluxmaların artmasına təsir göstərib.

UNICEF-in məlumatına görə, ABŞ-də bir il ərzində 5,4 mindən çox yoluxma qeydə alınıb. Bu, 1991-ci ildən bəri ən yüksək göstəricidir. Meksikada yoluxma sayı 13,9 mini ötüb, Boliviyada isə 20 ildən artıq fasilədən sonra qızılca halları aşkarlanıb.

Bundan başqa, ABŞ, Meksika və Boliviya qızılcadan azad ərazilər statusunu itirib. Daha əvvəl, 2025-ci ilin noyabrında Kanada da eyni statusdan məhrum edilib.

UNICEF-in icraçı direktoru Ketrin Rassell bildirib ki, 2000-ci ildən bəri qızılcaya qarşı peyvənd təxminən 59 milyon insanın həyatını xilas edib.

Əbülfət MƏDƏTOĞLU

KÖZƏRƏN TƏNHALIQ

Bax:səh-8

Ölkəyə daimi yaşamaq üçün gələnlərin sayı

Bu ilin 9 ayında Azərbaycana gələn-gedənlərin sayı açıqlanıb.

Adalet.az xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsi (DSK) məlumat yayıb.

Bildirilib ki, 2026-cı ilin yanvar-sentyabr ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 3130 nəfər gəlib.

Hesabat dövründə isə Azərbaycandan 1780 nəfər gedən qeydə alınıb.

Ölkə üzrə miqrasiya saldosu müsbət 1350 nəfər təşkil edib.

GÜNÜN LƏTİFƏSİ

Nəvə nənəsindən soruşur:

- Nənə, qanın dadı necə olur?

- Mən, nə bilim, ay bala?

- Bəs babam deyir ki, sən ömür boyu onun qanını içmisən.

- Babanın beyni yoxdu, boş-boş danışır.

- Bilirəm yoxdu,babam deyir ki, sən onun beynini də yemisən.

İlham Əliyev Trampa təşəkkür etdi



Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Trampa TRIPP layihəsinin işə salınması münasibətilə ona ünvanladığı xoş sözlərə görə təşəkkür edib.

Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev bu barədə "X" hesabında paylaşım edib.

"Əziz Prezident Donald Tramp, "Trump Route for International Peace and Prosperity" (TRIPP) layihəsinin işə salınması münasibətilə mənə ünvanladığınız xoş sözlərə görə səmimi təşəkkürümü bildirmək istəyirəm", - dövlət başçısı qeyd edib.

Qeyd edək ki, Ermənistan Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Tramp TRIPP layihəsinə start veriblər. Donald Tramp isə layihənin həyata keçirilməsinə görə Paşinyana və Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edib.

Prezident Litvanın xarici işlər nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Litva Respublikasının xarici işlər naziri Kestutis Budrisi qəbul edib.

Bu barədə Azərbaycan Prezidentinin Mətbuat xidməti məlumat yayıb. Kestutis Budris Litva Prezidenti Gitanas Nausedanın salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Litva Prezidentinə çatdırmağı xahiş edib. Dövlətimizin başçısı bir müddət əvvəl Dublində "Avropa Siyasi Birliyi"nin Zirvə Toplantısı çərçivəsində Litva Prezidenti Gitanas Nauseda ilə görüşünü, eləcə də Litvanın Baş naziri Mindauqas Sinkeviçyusla telefon danışığını məmnunluqla xatırlayıb. Azərbaycan ilə Litva arasında strateji tərəfdaşlıq münasibətlərinin uzun illərdir uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev enerji təhlükəsizliyi və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün əlverişli imkanların olduğunu qeyd edib və nazirin səfərini bu baxımdan vacib addım kimi qiymətləndirib.

Kestutis Budris səfər çərçivəsində "Azərbaycan Respublikası və Litva Respublikası arasında Strateji tərəfdaşlıq haqqında Birgə bəyannamə"nin imzalanacağını bildirib, iqtisadiyyat, ticarət və nəqliyyat sahələrində əlaqələrin dərinləşdirilməsinin vacibliyini vurğulayıb. Nazir Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəlilədilməsində əldə olunan uğurlar münasibətilə Prezident İlham Əliyevi təbrik edib.

Təbrikə görə təşəkkürünü bildirən dövlətimizin başçısı Azərbaycanın regionda sülhün möhkəmləndirilməsi istiqamətində səylərini davam etdirəcəyini vurğulayıb. Prezident İlham Əliyev münasibətlərin normallaşması fonunda Azərbaycanla Ermənistan arasında iqtisadi və ticari əlaqələrin qurulduğunu, üçüncü ölkələrdən Ermənistana və Ermənistandan üçüncü ölkələrə yüklərin Azərbaycan ərazisindən tranzitlə daşınması üçün imkanların yaradıldığını qeyd edib. Dövlətimizin başçısı son bir il ərzində Azərbaycan ərazisindən Ermənistana 100 min tondan artıq yükün daşındığını bildirib. Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işlərindən danışılarkən qeyd olunub ki, həm Birinci Qarabağ müharibəsi dövründə, həm də 2020-2023-cü illərdə basdırılmış minalar bu işlərə mane olur və insanların həyatı üçün ciddi təhlükə yaradır.

Kestutis Budris Litvanın 2027-ci il yanvarın 1-dən Avropa İttifaqı Şurasına sədrlik edəcəyini bildirərək ölkəsinin Azərbaycan-Avropa İttifaqı münasibətlərinin inkişafına dəstəyini davam etdirəcəyini vurğulayıb. O, Litvanın Azərbaycanın NATO ilə əlaqələrinin genişləndirilməsini də dəstəklədiyini qeyd edib.

Prezident İlham Əliyev qarşıdakı sədrlik münasibətilə təbriklərini çatdırıb, bu il Avropa İttifaqı rəhbərliyinin ölkəmizə səfərlərini və Dublin sammiti çərçivəsində keçirilən görüşləri xatırlayıb. Azərbaycanın Avropa İttifaqına üzv 10 ölkə ilə ikitərəfli strateji tərəfdaşlıq sənədlərinin olduğunu qeyd edən dövlətimizin başçısı Litva ilə münasibətlərin Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı üçün də əlverişli mühit yaratdığını bildirib. Prezident İlham Əliyev Azərbaycanın Cənubi Qafqazda və Xəzər regionunda bağlantı layihələrinin təşəbbüskarı olduğunu vurğulayıb. Söhbət zamanı Azərbaycanla Avropa İttifaqı arasında ticarət dövriyyəsi, eyni zamanda, Azərbaycan ilə Litva arasında müxtəlif sahələrdə, o cümlədən energetika və bərpaolunan enerji sahələrində əməkdaşlığın genişləndirilməsi perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Ərdoğan: "Azərbaycan bayrağı Türkiyənin də qürurudur"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanla Türkiyənin Qafqazda sülhün və rifahın təmin olunması istiqamətində birgə fəaliyyətini davam etdirəcəyini bildirib.

Adalet.az xəbər verir ki, bu barədə Türkiyə Prezidentinin 24-25 noyabr tarixlərində İğdır şəhərində keçirilən "Beynəlxalq Qafqaz Konqresi"nə ünvanladığı müraciətdə qeyd olunub.

Ərdoğan müraciətində Qafqazın tarixinin Türkiyənin də tarixi olduğunu vurğulayıb. O bildirib ki, iki ölkə əsrlər boyu bu coğrafiyanın sevincini və ağrılarını bölüşüb və ortaq tarixin verdiyi güclə gələcək nəsillərə sülh və təhlükəsizlik şəraitində yaşayacaqları region miras qoymaq məsuliyyəti daşıyır.

Türkiyə lideri Azərbaycan Prezidenti İlham Əliyevlə birlikdə "Bir millət, iki dövlət" şüarını Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksəltdiklərini



xatırladıb. "Şuşada, Füzulidə, Laçında dalğalanan Azərbaycan bayrağı Türkiyənin də qürurudur. Qarabağda qələbənin sevincini necə birlikdə yaşamışıqsa, Qafqazda sülh və rifah naminə də eyni qətiyyətlə çalışacağıq", - deyə Ərdoğan bildirib.

O, Zəngəzur keçidinin açılmasının Azərbaycanı Naxçıvanla birləşdirən nəqliyyat infrastrukturunu gücləndirəcəyini, Türkiyə ilə Türk dünyası arasında əlaqələr üçün yeni imkanlar yaradacağını vurğulayıb.

Prezidentin sözlərinə görə, İpək Yolu marşrutlarında ticarətin canlanması, əməkdaşlığın genişlənməsi və xalqlar arasında əlaqələrin möhkəmlənməsi bütün regiona fayda gətirəcək.

Ərdoğan Qafqazla bağlı Türkiyənin baxışını belə ifadə edib: "Bizim vizyonumuza görə, Qafqaz sülhün daimi xarakter aldığı, qonşuların ticarət etdiyi və hər bir ölkənin ümumi rifahdan pay aldığı bir regiondur".

Türkiyə Prezidenti konqres iştirakçılarının elmi müzakirələrinin və fikir mübadiləsinin bu ortaq gələcəyin qurulmasına töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Ceyhun Məmmədov: "Sosial şəbəkələr söyüş platformalarına çevrilir"

"Bu gün sosial media platformalarında baş verənlər fikir və düşüncə azadlığı deyil, beyinlərin yuyulması və manipulyasiya cəhdləridir".

Adalet.az xəbər verir ki, bunu deputat Ceyhun Məmmədov Milli Məclisin iclasında çıxışı zamanı deyib.

O bildirib ki, müasir dövrdə elmi nailiyyətlərə və texnoloji tərəqqiyə baxmayaraq, dünyada mənəvi tənəzzül müşahidə olunur, müharibə və münaqişələrin sayı artır.

Deputatın sözlərinə görə, müharibələr artıq yalnız sərhədlərdə və səngərlərdə deyil, insanların beyin və düşüncələrində də aparılır. Bu baxımdan sosial media platformaları təhlükəli təsir vasitələrindən birinə çevrilib.

C.Məmmədov qeyd edib ki, sosial şəbəkələr öz həqiqi mahiyyətini itirərək təhqir və söyüş platformalarına çevrilir, insanların düşüncələrinə mənfi təsir göstərir. O, bu sahənin çevik tənzimlənməsinin və daha ciddi addımların atılmasının vacibliyini vurğulayıb.

Deputat əlavə edib ki, mövcud təhlükələr ölkədə ideoloji işin gücləndirilməsini zəruri edir. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyasının qurultayında Prezident İlham Əliyev də ideoloji işin əhəmiyyətinə xüsusi diqqət çəkib.

C.Məmmədov bildirib ki, dövlət başçısının tapşırıqlarına uyğun olaraq son vaxtlar bu istiqamətdə mühüm işlər görülür. Yeni tarixi filmlərin çəkilməsi, tamaşaların hazırlanması və əsərlərin yazılması da bu tədbirlər sırasındadır.

O vurğulayıb ki, ideoloji işi gücləndirmədən qələbəni əbədiləşdirmək və ictimai şüuru düzgün istiqamətləndirmək



mümkün deyil. Vətən müharibəsində qazanılan qələbənin əhəmiyyətinin ictimai şüurda möhkəmləndirilməsi üçün ardıcıl və sistemli tədbirlər həyata keçirilməlidir.

"Korrupsiya iqtisadiyyat üçün ciddi fəsadlar doğuran "xəstəlik"dir"

"Korrupsiya təkcə dövlət idarəetməsi və cəmiyyət üçün deyil, həm də iqtisadiyyat üçün ciddi fəsadlar doğuran "xəstəlik"dir. Onun ən böyük fəsadı resursların səmərəsiz bölgüsünə və istifadəsinə şərait yaratmasıdır. Nə qədər təəssüf doğursa da maraqlar toqquşması özünü daha çox iqtisadi platformada, iqtisadi müstəvidə büruzə verir".

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin plenar iclasında parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, deputat Azər Əmiraslanov deyib.

"İqtisadi baxımdan maraqlar toqquşmasının mahiyyətini çox sadə şəkildə izah edə bilərik. Belə ki, dövlətin marağı ondan ibarətdir ki, qərarlar ictimai mənafe və iqtisadi səmərəlilik əsasında qəbul edilsin. Lakin vəzifəli şəxsin özəl marağı həmin qərarın obyektivliyinə təsir göstərirsə və ya belə bir risk yaradırsa, burada maraqlar toqquşması meydana çıxır. Başqa sözlə, dövlət üçün ictimai maraqları nəzərə alan qərarla vəzifəli şəxsin özü üçün sərfəli olan qərar arasında ziddiyyət yaranır. Maraqlar toqquşmasının qarşısı alınmazsa, bu zaman riskə və son nəticədə itkilərə məruz qalan məhz dövlət olur. Bu baxımdan korrupsiya ilə mübarizənin maraqlar toqquşması müstəvisində aparılması dövlət üçün prinsipial əhəmiyyət kəsb edir. Digər bir tərəfdən də, belə bir yanaşma son nəticədə iqtisadi idarəetmənin keyfiyyətinin yüksəlməsinə xid-



mət edir. Antikorrupsiya siyasəti ilə fiskal siyasətin əsas kəsişmə nöqtəsi büdcə vəsaitlərindən istifadənin səmərəliliyidir. Effektiv büdcə siyasəti yalnız vəsaitlərin düzgün planlaşdırılmasından deyil, həmin vəsaitlərin bölüşdürülməsi və istifadəsi zamanı qərarların obyektiv meyarlara əsaslanmasından asılıdır. Buna görə də layihədə müqavilələrin bağlanması, qərarların qəbul edilməsi, dövlət əmlakından istifadə olunması və xüsusilə də dövlət satınalmalarında birbaşa və dolayı iştirakla bağlı mühüm məhdudiyyətlər nəzərdə tutulur. Bu müddəalar dövlət resurslarının bölüşdürülməsi zamanı şəxsi maraqların qərarvermə prosesinə təsirinin məhdudlaşdırılmasına yönəlib.

Layihənin məqsədləri rəqabət siyasəti ilə də üst-üstə düşür. Bazar iqtisadiyyatının fundamental prinsiplərindən biri bütün sahibkarlıq subyektləri üçün bərabər imkanların təmin edilməsidir. Əgər iqtisadi üstünlüklər müəssisələrin məhsuldarlığına, səmərəliliyinə və rəqabət qabiliyyətinə görə deyil, inzibati əlaqələrə və şəxsi maraqlara əsasən formalaşırsa, bu, sağlam rəqabətin inkişafına mane olur. Qanun layihəsində nəzərdə tutulan məhdudiyyətlər belə risklərin azaldılmasına, sahibkarlıq subyektləri üçün bərabər fəaliyyət mühitinin yaradılmasına xidmət edir. Maraqlar toqquşmasının önlənməsi həm də əlverişli investisiya mühitinin formalaşmasına töhfə verir. İnvestisiya cəlbediciliyini yalnız iqtisadi stimullar, vergi güzəştləri müəyyən etmir. İnvestor üçün qərarların şəffaflığı, hüquqi müəyyənlik, bərabər münasibət və inzibati prosedurların qərəzsizliyi xüsusilə vacibdir. Bu amillər investorların dövlət institutlarına etimadını gücləndirir".

DTX-dən ƏMƏLİYYAT

Azərbaycan Respublikasının hüdudlarından kənarda dini düşmənçilik, dini radikalizm və dini fanatizm zəminində yaradılmış sabit silahlı qrupun fəaliyyətində iştirak etmiş Azərbaycan Respublikası vətəndaşları saxlanılaraq ölkəyə gətirilib.

Bu barədə Adalet.az-a Dövlət Təhlükəsizliyi Xidmətindən məlumat verilib.

Belə ki, əməliyyat-istintaq tədbirləri ilə Abdurahmanov Yunus Mehman oğlunun 15 noyabr 2025-ci il tarixdə xarici ölkə ərazisinə gedərək orada "İslam Dövləti Xorasan Vilayəti" (İŞİD - Vilayəti Xorasan) terrorçu təşkilatına qoşulması, dağlıq ərazidə xüsusi hazırlanmış mağara tipli gizli düşərgədə yerləşdirilməsi, odlu silah və döyüş sursatları ilə təchiz olunaraq terror-təxribat aktlarının törədilməsi üçün hərbi təlimlərdə iştirakı təsbit edilmiş, xüsusi əməliyyat tədbirləri ilə ələ keçirilib. Bundan başqa, həmin terror qruplaşmasının digər üzvü Həsənbəyov Abdulla Yaşar oğlu xarici dövlətin hökumət qüvvələrinə qarşı hərbi əməliyyatların keçirilməsində iştirak niyyəti ilə xarici ölkəyə getmiş, Azərbaycan tərəfinin verdiyi məlumat əsasında müvafiq dövlətin təhlükəsizlik orqanları ilə birgə tədbirlərlə gizli marşrut üzrə hərəkəti zamanı saxlanılıb.



Qeyd olunan cinayət əməllərinə görə Yunus Abdurahmanov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 283-1.3-cü, Abdulla Həsənbəyov isə 29, 283-1.3-cü maddələri ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilərək məhkəmənin qərarı ilə barələrində həbs qətimkan tədbiri seçilib. Hazırda cinayət işləri üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

İran Parlamentində Pakistanın siyasətini tənqid edənlərin sayı artıb

"ABŞ Prezidenti Donald Tramp yeni ilə qədər İrana qarşı müharibənin başlamayacağına işarə vurub. Onun "İranla bağlı hər hansı qərar qəbul etməkdə tələsmirəm. Görək 2027-ci ilin əvvəlindən sonra nə olacaq" sözləri də bundan xəbər verir. Tramp müharibə əvəzinə İrana qarşı iqtisadi təzyiqi artırmağa üstünlük verir.Vaşinqton eyni zamanda Tehranla danışıqlar aparmağa da həvəs göstərmir".

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Politoloq bildirib ki, bu mənada Vaşinqtonun Tehranla danışıqlar aparmaq üçün vasitəçiyə ehtiyacı yoxdur:

"Pakistan bir müddət ABŞ ilə İran arasında vasitəçi rolunda çıxış etsə də, hazırda İslamabad fəallıq nümayiş etdirmir. Çünki, hazırki şərtlər altında ABŞ ilə İranın mövqelərini yaxınlaşdırmaq mümkün deyil. İran ballistik raket istehsalından imtina etməyib, Hörmüz boğazı ətrafında gərginlik davam edir. Digər tərəfdən İrandakı rejimin Pakistanın vasitəçiliyinə etibar etmədiyini söyləmək mümkündür. İranlı siyasətçilər, ekspertlər və hətta hökumət rəsmiləri Əfqanıstan-Pakistan gərginliyindən çıxış edərək İslamabadın vasitəçiliyini şübhə altına alıblar. İş o yerə çatıb ki, Tehran İslamabada Pakistanla Əfqanıstan arasında münasibətlərin normallaşmasına köməyini təklif edib. İslamabad Tehranın bu təklifini cavabsız qoyub. İran Parlamentində Pakistanın siyasətini tənqid edənlərin sayı artıb. İranlı deputat Möhsün Zənganə İslamabad Vaşinqtondan gələn təlimatlara uyğun hərəkət etdiyini deyib".



Politoloqun sözlərinə görə, Tehran Pakistanın əvəzinə Qətərin vasitəçiliyinə üstünlük verib:

"Vaşinqton Qətər variantından imtina etməyib. Ancaq hazırda Qətərin də vasitəçiliyinə ehtiyac yoxdur. ABŞ-nin siyasi dairələrində də Pakistana münasibət birmənalı deyil. ABŞ Prezidenti Donald Tramp Pakistanın Baş naziri Şahbaz Şəriflə dostluq münasibətlərinə malik olsa da, Konqresdə İslamabada fərqli baxış var. Konqresi nəzarətə götürən Demokrat Partiyası Trampın xarici siyasətini və baxışlarını bölüşmür. 2025-ci ildə Nümayəndələr Palatasındakı demokratlar dövlət katibi Marko Rubioya məktub yazaraq Pakistan rəsmilərinə viza qadağası və aktivlərin dondurulmasını tələb ediblər. ABŞ 2001-ci ildən bu yana terrorizmə qarşı mübarizə əməkdaşlığı müqabilində Pakistana 30 milyard dollardan çox yardım və hərbi ödənişlər edib. Ancaq 2021-ci ildə Talibanın Əfqanıstanın paytaxtı Kabildə hakimiyyətə qayıtmasından sonra vəziyyət dəyişib. ABŞ-ın Pakistana ehtiyacı azalıb. Bu da İslamabadı bölgədəki tərəfdaşlarıyla fərqli ittifaqlara sövq edir. Bunlardan biri "Məkkə Sazişidir" və "Bədr Müqaviləsi" imzalayıb. Məqsəd bölgə ölkələri ilə hərbi tərəfdaşlığı gücləndirməkdir. Bu sazişlərin işlək olub-olmayacağını gələcək göstərəcək, hələ ki, Yəməndəki husilərin hücumlarına məruz qalan Səudiyyə Ərəbistanı müttəfiqlərindən arzuladığı dəstəyi ala bilməyib".

Vasif ƏLİHÜSEYNH

Politoloq: "Nikol Paşinyan Konstitusiyanı dəyişəcək"

"Ermənistanın Baş naziri Nikol Paşinyan yeni Konstitusiya mətninin hazırlanması istiqamətində işlərin aparıldığını və sənədin parlamentə təqdim ediləcəyi mümkün olduğunu bildirib. Lakin yeni Konstitusiyanın referenduma çıxarılması üçün parlamentdə zəruri səs çoxluğu tələb olunur. Hakimiyyətin bu məsələdə kifayət qədər səsə malik olmaması Paşinyanı müxalifətin dəstəyini axtarmağa vadar edir".

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. Politoloqun sözlərinə görə, Paşinyan artıq bir neçə siyasi variant irəli sürüb: "O, Azərbaycanla sülh müqaviləsinin imzalanması və yeni Konstitusiyanın qəbul edilməsi prosesini siyasi gələcəyi ilə əlaqələndirərək, referendumda xalqın əleyhinə qərar verəcəyi təqdirdə istefa verə biləcəyini də bildirib. Hesab edirəm ki, bu, Paşinyanın müxalifət üzərində siyasi təzyiq yaratmaqdan ibarətdir. Əgər müxalifət yeni Konstitusiyanın referenduma çıxarılmasına razılıq verməsə, Paşinyanın növbədənkənar parlament seçkilərinə getməsi mümkündür. Bu halda o, müxalifəti siyasi baxımdan daha da zəiflətməyə və öz mövqelərini möhkəmləndirməyə çalışacaq. Əslində, hazırkı siyasi proseslər göstərir ki, Ermənistan müxalifəti kifayət qədər çətin vəziyyətə düşüb". O, bildirib ki, Paşinyan təşəbbüsü öz əlində saxlamağa çalışır və müxalifəti seçim qarşısında qoyur:



"Müxalifətin bu siyasi strategiyaya qarşı effektiv alternativ ortaya qoyması asan görünmür. Düşünürəm ki, Paşinyan müxalifəti siyasi baxımdan sıxışdırmaq və qarşıdakı proseslərdə təşəbbüsü tamamilə ələ almaq üçün ciddi siyasi plan hazırlayıb. Onun əsas məqsədi yeni Konstitusiyanın qəbuluna nail olmaq, Azərbaycanla yekun sülh müqaviləsinin imzalanması istiqamətində irəliləmək və daxili siyasi rəqiblərinin təsir imkanlarını minimuma endirməkdir. Proseslərin hazırkı istiqamətini nəzərə alaraq hesab edirəm ki, Ermənistanda yeni Konstitusiya ilə bağlı referendumun keçirilməsi və sənədin qəbul olunması ehtimalı yüksəkdir. Eyni zamanda, Azərbaycanla sülh müqaviləsinin imzalanması istiqamətində də irəliləyiş olacaq. Paşinyan bununla həm ölkə daxilində siyasi mövqelərini möhkəmləndirməyə, həm də müxalifəti siyasi baxımdan dar çərçivəyə salmağa çalışır".

Sübhan

Rüstəm HACIYEV

"Avropa sülh şəraitində yaşamır"



NATO Rusiya ilə mümkün müharibəyə hazırlaşır?

Almaniyanın xarici işlər naziri Yoxan Vadeful, NATO Parlament assambleyasının Berlndə keçirilən plenar iclasının açılışda bəyan edib ki, Avropa formal olaraq birbaşa müharibədə iştirak etməsədə, daha sülh şəraitində yaşamır.

"Təəsüflə etiraf etməliyik ki, Avropada sülh və əminamanlıq Rusiya ilə birlikdə deyil, yalnız onunla qarşıdurmada əldə oluna bilər. Bu bizim apardığımız analizlərin nəticəsidir"- deyə Almaniyanın XİN rəhbəri bildirib.

Vadeful daha sonra bəyan edib ki, Ukraynanın taleyi Kiyevin iştirakı olmadan, Avropanın təhlükəsizlik məsələsi isə Avropanın iştrakı olmadan həll edilə bilməz, avropalı nümayəndələr də danışıqlarda iştirak etməlidirlər.

Nazir xüsusi vurğulayıb ki, əsas məsələ NATO-nun Rusiya ilə hazırda hərbi əməliyyatlara hazır olmasıdır. Bunun üçün lazımi qədər silah-sursat ehtiyatı toplanıbmı? Üzv ölkələr tez bir zamanda hərbi qüvvələrini döyüş bölgələrinə aparmaq gücündədirlərmi?

Şimali Atlantika alyansının nümayəndəsi Alison Xart NATO-nun Polşada uzaq məsafədən manieni müəyyən edən radolakasiya təyyarələrinin yerləşdiriləcəyini bildirib. O qeyd edib ki, komandanlıq hazırda bu regiona əlavə hərbi qüvvələrinin yetləşdirilməsi məsələsini müzakirə edir.

Beləliklə, Avropa və NATO ortada ciddi bir təhlükə olmasada belə, ciddi şəkildə Rusiya ilə hərbi qarşıdurmaya hazırlaşır.

Rusiya tərəfi də, NATO- və Avropa ölkələrinin təhdidlərinə cavab verməyə başlayıb. Moskva anlayır ki, Şimali Atlantika bloku ilə hərbi qarşıdurmada vəziyyəti diqtə etmək gücündə deyil. Ona görə də, onları nüvə potensialı ilə hədələməklə fikirlərindən daşınmağa çalışır.

Belə ki, Rusiya təhlükəsizlik şurasının sədr müavini Dmitri Medvedev müsahibəsində bəyan edib ki, Kreml Ukrayna ilə müharibədə nüvə silahından ehtiyac olmadığı üçün istifadə etməyib. Lakin belə bir ehtiyac yaranacağı təqdirdə, Vladimir Putin ölkə başçısı kimi nüvə silahından istifadə etməyə borcludur.

Bu Moskvanın avropalılara və alyansa təhdidirmi, şantajıdırmı ? Düşünürük ki, hər ikisi. Artıq beş ilə yaxındır ki, Ukraynanı işğal etmək gücündə olmayan Rusiya, daha böyük gücün qarşısında dayana bilməyəcəyini aydın başa düşür. Rusiya, nüvə silahlarından istifadə olunmasının dünya üçün böyük fəlakətlər yarada biləcəyinində fərqindədir. Amma, şantaj və təhdidlərdən başqa çıxış yollarıda yoxdur.

Yəqin ki, NATO və Avropa dövlətləri də, Putinin özünündə etiraf etdiyi kimi, "Leniqrad küçələrində böyümüş" bir adamın təhdid və şantajlarının son nəfəsində reallığa çevrə biləcəyinin fərqindədirlər.

Ona görə də, NATO-Rusiya hərbi qarşıdurmasının ən azından yaxın vaxtlarda reallaşacağı inandırıcı görünmür. Lakin, bu "qarşıdurmanın" daha əvvəldən "qurban" seçilən Ukrayna ərazilərində uzun müddət davam edəcəyi şübhə doğurmur...

Le Pen prezident seçilərsə...



Ukrayna müharibəsinin uzanması ya birbaşa NATO və Rusiya toqquşmasına gətirib çıxara bilər, ya illərlə uzana bilər, ya da bütün dövlətlər bu müharibənin acı nəticələrini anlayana qədər davam edə bilər.

Bu barədə bəyan edən, Fransa prezidentliyinə namizəd, Fransa parlamentində "Milli birlik" fraksiyasina rəhbərlik edən Martin Le Pen qeyd edib ki, "Münaqişənin üç mümkün həlli variantı var: ya NATO Rusiya ilə müharibəyə başlayır və Üçüncü dünya müharibəsi başlayır, ya müharibə sonsuzluğa qədər uzanır, ya da bütün dövlətlər ağır nəticələri anlayaraq müharibəni dayandırır".

Fransalı siyasətçi bəyan edib ki, əgər prezident seçilərsə, münaqişə tərəfləriylə dialoqa başlamaq fikirindədir.

Rüstəm HACIYEV



Səxavət MƏMMƏD

Dünyanın bölüşdürülməsi...

Rusiya-Ukrayna, ABŞ/İsrail-İran müharibələri və münaqişə coğrafiyalarının genişlənməsi fonunda Çində ABŞ, Çin və Rusiya liderlərinin görüşü mühüm əhəmiyyət kəsb edirdi. Niyə məhz bu üç ölkə liderlərinin görüşü vacib sayılır? Çünki hər üç ölkə dünyada baş verən müharibələrdə birbaşa və ya dolayı yollarla iştirak edir. ABŞ İrana qarşı birbaşa əməliyyatlar keçirir, Ukrayna ərazisində gedən müharibədə isə silah, "Starlink", geoməkan kəşfiyyatı və maliyyə ilə iştirak edir; Venesuelada istədiyini aldı, Danimarka Qrenlandiyada ABŞ-yə hərbi imkanlarını genişləndirməyə icazə verdi - yəni oradakı maraqlarını da təmin etdi.

Rusiya Ukrayna ərazisində birbaşa müharibə aparır, Fars körfəzində İrana silah və geoməkan kəşfiyyatı ilə dəstək verir, Suriyadakı proseslərdə maraqlarını təmin edərək bazalarını qoruyur, Baltik dənizini təhdid altında saxlayır və məlum olduğu kimi, nüvə potensialını daha da artırıb. Çinə gəldikdə isə, rəsmi Pekin Sakit okean hövzəsində imkanlarını artırır, Pakistan vasitəsilə Hindistana dərs verir, Ukrayna müharibəsində dolayı yolla iştirak edir - Şimali Koreya əsgərləri hər halda Pekinin xeyir-duası olmadan müharibəyə qoşulmazdı - İrana isə geoməkan kəşfiyyatı və silahlarla dəstək olur. Bunların hər birini daha da genişləndirə bilərəm, sadəcə vacib olan detalları yazdım. Sual ortaya çıxır: dünya bölüşdürüləcəksə, bu üç dövlətdən başqa kim böləcək? Hesab edirəm ki, dünya müəyyən mənada İkinci Dünya müharibəsinin nəticələrindən dərs alıb. Alman generalı fransızları qaliblər masasında görəndə verdiyi "Biz bunlara da uduzmuşuq?" sualı, hesab edirəm ki, hazırkı dünyada keçərli olmayacaq.

Gələk "qoca qitə"yə. Açığı, "qoca qitə" qoca qarılar kimi deyinməklə məşğuldur. Dünyanın harasında hansı proses baş verirsə, məsələ ilə bağlı ancaq və ancaq danışır, ortada isə real hərəkət yoxdur. Rusiya-Ukrayna müharibəsi ilə bağlı masa qurulur, Avropa İttifaqı özünü orada görmək istəyir? Ümumiyyətlə, bu nə anlayışdır ki, sən sahədə yoxsan, müharibədə qan tökmürsən, iqtisadi gücünü hərbi-siyasi iradəyə çevirə bilmirsən, amma masadan pay istəyirsən? Bu yanaşmaya çox yerdə rast gəlirəm: deyirlər ki, 21-ci əsrdir, dünyanı bölmək nə deməkdir? Yəni bunu gülünc yanaşma kimi qəbul edirlər. Harada yazılıb ki, 21-ci əsrdə dünyanı bölmək olmaz? Avropa İttifaqı maliyyə və texnologiya nəhəngi olsa da, Ukraynaya ancaq pul ayırmaqla, qaçqınları saxlamaqla, ABŞ silahlarının pulunu ödəməklə və sanksiyalar tətbiq etməklə kifayətlənir. Nəticədə pulu ödəyən tərəf olur, ancaq söz sahibi ola bilmir; üstəlik, sanksiyalar da qayıdıb özünü vurub. Müasir dövrdə sanksiyalar iqtisadiyyatı zəiflədə, inkişafı ləngidə bilər, ancaq cəbhədəki tankı saxlamağa, müharibənin taleyini meydanda həll etməyə yetmir.

Dünyada qara bazar və alternativ təchizat zəncirləri var? Var! Bitdi! İsveçrənin snayper tüfəngləri üçün mərmilərini Rusiya Ukraynaya qarşı istifadə edib. Rusiya bunu haradan alıb? Rusiya istehsalı olan mərmiləri isə Ukrayna Rusiyaya qarşı istifadə edir. Ukrayna bunu haradan alıb?

Xüsusilə Böyük Britaniya ilə bağlı belə bir fikir ortaya atılır ki, harada nə baş verirsə, krallığın orada barmağı var. Çönüb tarixə baxırsan: Böyük Britaniya dünənə qədər əldə etdiklərini qanla əldə edib. Böyük Britaniya hər iki dünya müharibəsinin birbaşa iştirakçısı olub. Birinci Dünya müharibəsində təkcə ada 800 mindən çox əsgər itirib, İkinci Dünya müharibəsində isə bu rəqəm 400 minə yaxındır. Ada qaliblər masasında təkcə siyasi gedişlərə görə yox, birbaşa savaşaraq oturmuşdu. İndi bunu görə bilirik? Təkrar edirəm: qaliblər masasında oturmaq üçün sahədə savaşmalısan.

Çində üç ölkə liderinin görüşü dünyanı bölmək deməkdir? Qətiyyən! Bu, o zaman bölgü anlayışına gələcək ki, tərəflər bundan sonra bir neçə dəfə də bir araya gəlsinlər. Bu görüşün ümumi nəticəsi kimi onu anlamaq olar ki, nüvə silahından heç kim istifadə etməyəcək və hər kəs maraqları uğrunda savaşını davam etdirəcək. Son dönəmlər ən çox ABŞ-nin nüvə silahından İrana qarşı istifadə edəcəyi deyilirdi. Bu görüşlə bu məsələ də ortadan qalxmış oldu. Ancaq bu görüş o demək deyil ki, ABŞ ilə İran arasında toqquşma baş verməyəcək, yaxud Rusiya Ukraynadakı müharibəni dayandıracaq. Avropa İttifaqı bəyan edir ki, Rusiya Gürcüstan və Moldovadan ordusunu çıxarsın. Rusiya da cavab versə ki, çıxarmıram, Avropa İttifaqı necə çıxaracaq o ordunu? Sanksiya ilə? BMT 4 qətnamə çıxarmışdı ki, Ermənistan ordusunu Kəlbəcərdən, Ağdamdan, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilandan çıxarmalıdır. Çıxardı? Azərbaycan güc yolu ilə çıxarmadı o ordunu? Dünyada nəinki indi, dünən də hər şey güc yolu ilə həll olunub, sabah da belə olacaq.

Görüş ərəfəsində Ukrayna Krım körpüsü ilə bağlı əməliyyat həyata keçirdi. Dolayısı ilə Zelenski bu addımla mesaj verirdi ki, Ukraynanı yaddan çıxarmayın, Ukraynanı müdafiə edin, Rusiyanın qarşısında dayanmışıq, zərər veririk. Ciddiyə aldılar? Ciddiyə alsaydılar, görüş bitər-bitməz Zelenski özünü Avropaya çatdırmazdı. Görüşün nəticəsində hansı fikir ortaya atıldı? Qışda enerji infrastrukturuna qarşılıqlı zərbələrin dayandırılması.

Tramp isə Avropa liderlərini Ukraynaya hərbi dəstəyi dayandırmağa çağırıb. Tramp da, Putin də fərqindədir ki, Avropa ölkələri, konkret olaraq liderləri qorxurlar, ən azı bunu hiss etdirirlər. Ümumiyyətlə, Putinlə Tramp müəyyən mənada oxşar tiplərdir - yırtıcıdırlar. Trampın biznes praqmatizmi və Putinin siyasi xarakteri təsadüf deyil - onlar mənsub olduqları dövlətlərin gücə söykənən soyuqqanlı maraqlarını ifadə edirlər. Bu sistemlər və bu tipli liderlər zəifliyi, tərəddüdü bağışlamır; qorxunu dərhal duyurlar və üzərinə gedirlər. Avropa ölkələrinin bir nömrəli problemi məhz bu iradə və lider çatışmazlığıdır.

Qəbul etsək də, etməsək də, bugünün dünyasının da, gələcəyin dünyasının da nizamını müharibələr və güc həll edəcək. Hazırkı dünya deyir ki, sahədə olmalısan; sahədə olmasan, masa arxasında yox, masanın üstündə olacaqsan. Ötən dəfə də yazmışdım: zamanında müharibə qərarı alınmasaydı, Azərbaycan da (Qarabağ) masanın üzərində olacaqdı.

Dünyanın bölüşdürülməsi deyəndə bir çoxlarının ağlına sərhədlər gəlir. Qətiyyən! Hətta ola bilər ki, siyasi xəritələrdə heç böyük dəyişikliklər baş verməsin. Böyük ehtimalla müəyyən korrektələr olacaq, ancaq böyük dəyişikliklər inandırıcı deyil. Sadəcə olaraq indiki müharibələr resurslara çıxış və logistika yollarına nəzarət uğrunda gedir. Bu da o deməkdir ki, bölünmə sərhədlərlə yox, təsir dairələri ilə baş verəcək. Kobud formada belə deyək: "Gedin müstəqil-müstəqil oynayın, ancaq bizi nəzərə alın".

«Ermənistan cəmiyyəti xarici siyasət kursu və Azərbaycanla sülh məsələsində...»

"Nikol Paşinyan siyasi karyerasına baxdıqda bir məsələni xüsusu qeyd etmək lazım gəlir. Paşinyan ən riskli anlarda həmişə eyni üsula əl atır: tərəzinin bir gözünə Ermənistan umun mühüm olan bir məsələni, digər gözünə isə özünün siyasi taleyini qoyur. 2018-ci ildə küçədən hakimiyyətə gələndə də, 2021-ci ildə hərbi məğlubiyyətdən sonra istefa verib növbədənkənar seçkiyə gedəndə də bu taktikadan istifadə edib. Noyabrın 19-da Ermənistanın baş naziri Azərbaycanla sülhün taleyinə münasibətdə də bu kartı yenidən masaya qoydu".

Adalet.az xəbər verir ki, bunu politoloq Qulamhüseyn Əlibəyli deyib.

Politoloq bildirib ki, Ermənistan hökumətinin iclasında 2026-2031-ci illər üçün fəaliyyət proqramı təsdiqləndi:

"Proqrama yeni Konstitusiyanın qəbulu və Azərbaycanla sülh prosesinin möhkəmləndirilməsi daxildir. Paşinyan həmin iclasda



müxalifətə açıq şəkildə referenduma getməyi təklif edərək bildirdi ki, xalq Konstitusiyanı rədd edərsə, istefa verəcək. Qəbul edərsə, növbəti və ya növbədənkənar olmasından asılı olmayaraq sonrakı seçkilərdə baş nazir vəzifəsinə namizədliyini irəli sürməyəcək. Paşinyanın bu təklifinin arxasında sadə parlamentdəki qüvvələr nisbətinə dair sadə bir hesablama dayanır".

Onun sözlərinə görə, iyun seçkilərindən sonra "Vətəndaş müqaviləsi" 105 yerlik parlamentdə 64 mandata malikdir:

""Güclü Ermənistan" blokunun 29, "Ermənistan" blokunun isə 12 yeri var. Konstitusiya layihəsini referenduma çıxarmaq qərarı 70 səs çoxluğu ilə qəbul edilməlidir. Yəni hakim partiyaya daha altı səs lazımdır. Paşinyanın müxalifətdən istədiyi də məhz bu altı səsdir. Müxalifətin cavabı isə gecikmədi. "Güclü Ermənistan" fraksiyasının katibi Tiqran Abrahamyan bildirdi ki, Paşinyan istefaya razılaşsa belə, onlar bu planı dəstəkləməyəcəklər. Onun sözlərinə görə, müxalifətin hakimiyyət dəyişikliyi üçün öz planı var və növbədənkənar seçkilərə hazırdır. "Ermənistan" blokundan deputat Kristine Vardanyan isə səslərinin referendum qərarını bloklamaq üçün istifadə olunacağını açıqladı. Yəni hər iki müxalifət qanadı Paşinyanı təklifinə faktiki olaraq "yox" dedi. Paşinyanı təklifinin məntiqi ilk baxışda paradoksal görünür. O, hər iki halda baş nazir kreslosundan ayrılmağa razıdır. Ermənistan müxalifəti illərdir yeni Konstitusiyanı "Paşinyanın Konstitusiyası" və "Türkiyə-Azərbaycan tandeminin təzyiqi altında yazılan sənəd" kimi təqdim edir. Baş nazir isə şəxsi faktoru tamamilə oyundan çıxarmaq istəyir: konstitusiya referendumu təyin olunsun, referendumdan sonrakı ilk seçkidə referendumun nəticəsindən asılı olmayaraq Paşinyan baş nazir kimi siyasi karyerasına son qoyacaq. Paşinyanı belə mövqeyini təkcə taktiki yox, həm də strateji cəhətdən rusiyayönlü maxalifəti çətin vəziyyətə salan güclü gediş kimi qiymətləndirmək olar".

Onun fikrincə, əgər müxalifətin əsas hədəfi Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaqdırsa, bu təklif həmin hədəfə nail olmaq üçün ən qısa yoldur:

"Onu bəri başdan rədd etmək o deməkdir ki, müxalifəti Paşinyanın hakimiyyətdən getməsi deyil, mövcud Konstitusiyanın dəyişməməsi və Azərbaycanla sülh prosesinin tamamlanmaması daha çox maraqlandırır. Abrahamyanın "istefa verə də, dəstəkləmərik" cavabı məhz bunu bir daha təsdiq edir. Başqa sözlə , müxalifətin əsil məqsədi hakimiyyətin dəyişməsi yox, Konstitusiyanın dəyişməzliyi, Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarının formal hüquqi əsaslarının qalmasıdır.Paşinyan özü də məhz bu məqamı açıq şəkildə ifadə edərək parlament müxalifətini Azərbaycanla davamlı sülh qarşısında qalan əsas maneə adlandırıb. Onun fikrincə, sülh məsələsində qalan problemlər əsasən texniki xarakter daşıyır, əsas çətinlik isə daxili siyasi müqavimətdir. Baş nazir iki yol göstərib: ya cəmiyyətin müxalifətə təzyiqi artmalıdır, ya da siyasi proseslər onları parlamentdə yersiz qoymalıdır. Bu sonuncu fikir növbədənkənar parlament seçkilərinin keçirilməsi ehtimalına açıq işarə kimi qiymətləndirilə bilər. Burada bir məsələni də nəzərə almaq lazımdır ki, hakimiyyət uğrunda mübarizə aparan parlament müxalifətinin referenduma getməkdən aşıq-aşkar imtina etməsi ölkə daxilində bə beynəlxalq aləmdə uğurlu siyasi taktika hesab olunmur və imtinaçı müxalifətin siyasi imicinə zərbə buran, onun nüfuzunu aşağı salan amil kimi qiymətləndirilir.Paşinyan hakimiyyəti rəsmi səviyyədə konstitusiya islahatının Ermənistanın daxili məsələsi olduğunu bildirir. Bu, formal hüquqi baxımdan belə olsa da, siyasi baxımdan Konstitusiya islahatı regional sülhün əsas şərtidir. Yəni Ermənistanın Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarına əsas olan müddəalarsız yeni konstitusiya qəbul edilməsə, sülh müqaviləsi praktiki olaraq imzalanmayacaq. TRIPP marşrutu üzrə işlər sürətlənsinə baxmayaraq, Türkiyə-Ermənistan sərhədinin açılması da Azərbaycan-Ermənistan arasında hərtərəfli razılaşmadan asılıdır. Yəni Paşinyanın müxalifətdən istədiyi 6 səs bütün regional arxitekturanın açarı ola bilər.Paşinyanın təklif qəbul olunub referendum təyin olunsa belə belə, Paşinyanın qələbəsi zəmanətli deyil. Ermənistan qanunvericiliyinə görə, referenduma çıxarılan sənəd iştirakçıların yarısından çoxu lehinə səs verdikdə və bu səslər bütün seçicilərin ən azı dörddə birini təşkil etdikdə qəbul olunur. Müxalifət peferendumun təyinin bloklaya bilməsə, növbəti addımda Konstitusiyanın əleyhinə çıxmaq və ya referendumda iştirak etməmək taktikası seçilə bilər".

Onun sözlərinə görə, hazırda Ermənistan cəmiyyəti xarici siyasət kursu və Azərbaycanla sülh məsələsində dərin qütbləşib:

"Konstitusiya referendumu bu qütbləşmənin ən yüksək nöqtəsinə çevrilə bilər,Paşinyanın təklifininrəsm Bakı üçün həm pozitiv, həm də narahatedici məqamları var. Pozitiv məqam ondan ibarətdir ki, Ermənistan rəhbəri prosesi geri dönüşsüz etmək üçün şəxsi karyerasını qurban verməyə hazır olduğunu göstərir. Narahatedici məqam isə ondan ibarətdir, hazırkı proses artıq tək bir siyasətçinin - Paşinyanın taleyinə bağlanıb. Paşinyansız Ermənistanın sülh prosesini davam etdirib tamamlamağa nə dərəcədə hazır və siyasi iradəsinni olması isə cavabı qabaqcadan məlum olmayan sual kimi qalır.Ermənistanın yeni Konstitusiyasının layihəsinn bu gün dərc olunacağı gözlənilir.. Məhz o zaman preambulanın necə dəyişdirildiyini, Bakının tələbinə necə cavab verildiyini görəcəyik. Bu sənəd Bakı üçün Paşinyanın sözlərindən daha vacib göstərici olacaq. Güney Qafqazda sülh prosesinin tamamlanması indi daha real, lakin riskli görünür. Paşinyan bu riskləri öz siyasi karyerasına qurban verməklə qarşılamağa hazırdır. Ermənistan cəmiyyəti və onun siyasi elitasını bu qurbanla sülhə hazır olub olmaması isə sual altındadır".

Sübhan



Könül NURULLAYEVA,
Milli Məclisin deputatı

Yeni Azərbaycan Partiyası mühüm siyasi institut kimi formalaşıb

1992-ci il noyabrın 21-də yaradılan Yeni Azərbaycan Partiyası müasir Azərbaycan tarixinin ən mühüm siyasi hadisələrindən biri idi. Müstəqilliyinin ilk illərində ağır siyasi, iqtisadi və hərbi böhranla üzləşən, dövlətçiliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya qalan Azərbaycanın belə bir taleyüklü mərhələsində YAP-ın yaranması tarixi zərurətdən irəli gəlirdi. Xalqın böyük əksəriyyəti ölkəni düşdüyü böhrandan çıxara biləcək yeganə siyasi lider kimi Ümummilli Lider Heydər Əliyevi görürdü. Məhz onun ətrafında birləşən Azərbaycan ziyalıları və vətənpərvər insanlar yeni siyasi qüvvənin yaradılması təşəbbüsü ilə çıxış etdilər.

Ulu Öndərin siyasi nüfuzunun formalaşmasında onun 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövr xüsusi əhəmiyyət daşıyırdı. Həmin illərdə respublikanın iqtisadi potensialı gücləndirilmiş, sənaye, kənd təsərrüfatı, təhsil, elm və mədəniyyət sahələrində ciddi nailiyyətlər əldə olunmuşdu. Bir vaxtlar ittifaq respublikaları arasında geridə qalan Azərbaycan qısa müddətdə qabaqcıl respublikalardan birinə çevrilmişdi. Heydər Əliyevin dövlət idarəçiliyindəki təcrübəsi, prinsipiallığı, qətiyyəti və milli maraqlara sədaqəti xalqın ona olan inamını daha da möhkəmləndirmişdi.

Ulu Öndərin Naxçıvan dövrü isə dövlətçilik mövqeyinin ən parlaq nümunələrindən biridir. Ermənistanın hərbi təcavüzü və blokada şəraitində yaşayan Naxçıvanın müdafiəsi, muxtar respublikanın siyasi və iqtisadi baxımdan ayaqda saxlanılması məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə mümkün oldu. Məhz Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət rəmzi kimi qəbul edildi, sovet ideoloji-siyasi sisteminin simvollarından imtina istiqamətində mühüm addımlar atıldı. Bütün bunlar Ulu Öndərin milli dövlətçilik ideallarına sadiqliyinin göstəricisi idi.

1992-ci il oktyabrın 16-da 91 nəfər tanınmış ziyalının Heydər Əliyevə müraciəti və onun oktyabrın 24-də bu müraciətə müsbət cavab verməsi Yeni Azərbaycan Partiyasının yaradılmasına gedən yolun əsas mərhələləri oldu. Noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında partiyanın Proqram və Nizamnaməsi qəbul edildi, Heydər Əliyev YAP-ın sədri seçildi. Partiyanın təsis konfransının Bakıda deyil, Naxçıvanda keçirilməsi də o dövrün siyasi reallıqlarının göstəricisi idi.

Beləliklə, xalqın siyasi iradəsini ifadə edən yeni birlik Azərbaycanın gələcək inkişafında mühüm rol oynayacaq siyasi qüvvəyə çevrildi.

Bu hadisə həm də ölkənin idarəçilik böhranından çıxarılması və güclü dövlət quruculuğunun başlanğıcı kimi qiymətləndirilməlidir. Belə ki, 1990-cı illərin əvvəllərindəki hakimiyyət böhranı, dövlət idarəçiliyinin zəifləməsi, ərazi itkiləri AXC-Müsavat cütlüyünün siyasi məsuliyyətsizliyin nəticəsi idi. Nəhayət, 1993-cü ilin iyununda Ümummilli Lider Heydər Əliyevin xalqın tələbi ilə siyasi hakimiyyətə qayıdışı, oktyabrda isə Prezident seçilməsi Azərbaycanın müasir tarixində yeni mərhələnin başlanğıcı oldu. Dövlətçiliyin qorunması, vətəndaş müharibəsi təhlükəsinin aradan qaldırılması, siyasi sabitliyin təmin edilməsi ölkənin gələcək inkişafının əsasını formalaşdırdı. Atəşkəsə nail olunması, "Əsrin müqaviləsi"nin imzalanması, Azərbaycanın beynəlxalq əlaqələrinin genişlənməsi və hüquqi dövlət quruculuğu istiqamətində atılan addımlar müstəqilliyin möhkəmləndirilməsinə xidmət etdi.

2003-cü ildə xalqın cənab İlham Əliyevə etimadı Heydər Əliyev siyasi kursunun davamlılığına verilən dəstək idi. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. İqtisadi gücün artırılması, beynəlxalq mövqelərin möhkəmləndirilməsi, müasir infrastrukturun yaradılması və müdafiə potensialının gücləndirilməsi nəticəsində ölkəmiz regionun aparıcı dövlətlərindən birinə çevrildi. 2020-ci ildə Vətən müharibəsində qazanılan tarixi Zəfər, 2023-cü ilin sentyabrında dövlət suverenliyinin tam bərpası isə Azərbaycan tarixində yeni bir səhifə açdı. Bu nailiyyətlər Ulu Öndərin əsasını qoyduğu dövlətçilik strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir.

2026-cı il oktyabrın 2-də keçirilən Yeni Azərbaycan Partiyasının VIII Qurultayı da bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa edildikdən sonra keçirilən ilk qurultay partiyanın qarşısında yeni dövrün çağırışlarına uyğun vəzifələr müəyyənləşdirdi. Prezident, YAP-ın Sədri İlham Əliyev çıxışında partiyanın ölkənin və regionun ictimai-siyasi həyatındakı rolunu yüksək qiymətləndirərək bildirdi: "Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi qüvvəsidir".

Dövlət başçısı həmçinin vurğuladı ki, 1992-ci ilin noyabrında Naxçıvanda keçirilmiş təsis konfransı faktiki olaraq Azərbaycanın gələcək qələbələrinə yol açmışdır.

VIII Qurultayda açıqlanan göstəricilər partiyanın təşkilati potensialını da nümayiş etdirir. 2026-cı il oktyabrın 1-nə olan məlumata görə, YAP-ın 4953 ərazi partiya təşkilatı üzrə 769 811 üzvü qeydə alınıb. Onların 398 568 nəfəri qadınlar, 43 379 nəfəri isə 18-29 yaşlı gənclərdir. Bu rəqəmlər partiyanın geniş ictimai bazaya malik olduğunu, qadınların və gənclərin siyasi proseslərdə iştirakına diqqət yetirildiyini göstərir.

Bu gün Yeni Azərbaycan Partiyasının qarşısında dayanan əsas vəzifələr dövlətçilik maraqlarının qorunması, milli həmrəyliyin möhkəmləndirilməsi, gənc nəslin dövlətçilik ruhunda formalaşmasına töhfə verməkdir. Müasir siyasi sistemdə partiyaların konstruktiv əməkdaşlığı, ictimai dialoqun genişləndirilməsi və ümummilli maraqlar ətrafında birliyin qorunması da mühüm əhəmiyyət daşıyır.

Beləliklə, 34 illik tarixi yol keçən Yeni Azərbaycan Partiyası Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, dövlətçilik ənənələrinin qorunması və ölkənin davamlı inkişafı prosesində mühüm siyasi institut kimi formalaşıb.

"Naxçıvana ayrılan dotasiyanın azaldılması doğru addım deyil"

"Naxçıvana yollar açılmadıqca dotasiyanın azaldılması doğru addım olmaz".

Adalet.az xəbər verir ki, bunu deputat Fazil Mustafa Milli Məclisin iclasında çıxışı zamanı deyib. O bildirib ki, yaxın gələcəkdə TRIPP layihəsinin icrası Naxçıvanla əlaqələrin qurulması və muxtar respublikanın hərtərəfli inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

Deputatın sözlərinə görə, Naxçıvana ayrılan dotasiyanın 2026-cı il dövlət büdcəsində 198 milyon manat nəzərdə tutulması ötən illə müqayisədə 6,4 faiz azalma deməkdir. F.Mustafa hesab edir ki, mövcud vəziyyətdə bu məsələyə yenidən baxılmalıdır. Çünki yol problemi Naxçıvanda iqtisadi canlanmaya və müxtəlif layihələrin həyata keçirilməsinə mane olur. O, muxtar respublikada işsizlik və sosial problemlərin də ciddi narazılıq doğurduğunu diqqətə çatdırıb. Deputat xüsusilə səhiyyə sahəsində kadr çatışmazlığına və xəstələrin müalicə üçün Bakıya gəlməkdə üzləşdikləri çətinliklərə diqqət çəkib. F.Mustafa vurğulayıb ki, Naxçıvana gediş-gəliş imkanları məhdud olduğu müddətdə dotasiyanın azaldılması əvəzinə, artırılması imkanları nəzərdən keçirilməlidir. Onun təklifinə görə, xüsusilə xəstələrin müalicə məqsədilə Bakıya ödənişsiz gedib-gəlməsini təmin edəcək mexanizm yaradılmalıdır.

«Bədr müqaviləsi»ni imzalayan dövlətlərin əməkdaşlıqdan fərdi maraqları var"

"Türkiyə, Qətər, Pakistan və İndoneziya birgə hərbi istehsal və texnologiya transferi yolu ilə müdafiə sənayelərini gücləndirməyə ümid edirlər. Ancaq qeyri-bərabər texnoloji imkanlar və açıqlanmayan kommersiya razılaşmaları müqavilənin yerinə yetirilməsi prosesində suallar yarada bilər.Türkiyə, Qətər, Pakistan və İndoneziya 21 oktyabr 2026-cı ildə Dohada Bədr Anlaşma Memorandumunu imzalayaraq müdafiə istehsalı, tədqiqat, texnologiya transferi və texniki təlim üzrə əməkdaşlıq etməyi razılaşıblar".

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Politoloqun sözlərinə görə, Qətərin müdafiə mövqeyi birbaşa Hörmüz boğazındakı pozuntuların yaratdığı risklərlə və hərbçilərin zəifliyi ilə əlaqəlidir:

"Türkiyə və İndoneziya şirkətləri birgə tank istehsalını həyata keçirirlər. Bundan başqa Türkiyə 48 ədəd KAAN qırıcı təyyarəsinin ixracı üzrə İndoneziya ilə müqavilə imzalayıb. Bu "Bədr müqaviləsindən" əvvəl imzalanan sazişdir. Bu iki ölkə arasında hərbi əməkdaşlığı gücləndirmək üçün yaxşı zəmin yaradıb. Ümumiyyətlə "Bədr müaviləsi" ən çox Türkiyəyə kommersiya baxımından gəlir qazandıra bilər. Türkiyə hərbi sənayesi "Bədr müqaviləsi"ndən ən böyük paya iddialıdır. Müqavilə Türkiyəyə daha çox müştəri və investisiya, o cümlədən uzunmüddətli təchizatçı əlaqələr vəd edir. Müqavilə çərçivəsində əsas mühəndislik Türkiyədə qalarsa, Ankara tərəfdaşlarına axtardıqları texnoloji müstəqilliyi vermədən ixracı genişləndirə bilər. Ancaq Qətər və İndoneziya yalnız layihələri maliyyələşdirməklə kifayətlənməyəcəklər. Qətərin sadəcə tərəfdaşlarının ambisiyalarını maliyyələşdirəcəyini düşünmək səhv olardı. Bu dövlət qabaqcıl silah və hərbi texnikanın istehsal prosesində iştirak etmək istəyir. Pakistanın isə dəniz istehsalı sahəsindəki təcrübəsi yeni müştərilər cəlb etmək və qlobal istehsal şəbəkələrindəki rolunu genişləndirmək üçün bir platforma rolunu oynaya bilər. İslamabadın rəsmi narrativi hərbi istehsal, tədqiqat və təlimlərdə üstünlüyünü göstərməkdir".



E.Şahinoğlunun fikrincə, Pakistan "Bədr müqaviləsi" ilə paralel olaraq Çinlə hərbi tərəfdaşlığını da davam etdirəcək:

"İndoneziya Türkiyənin hərbi texnikasına maraq göstərsə də, yalnız müqaviləyə imza atan dövlətlər üçün bazar rolunu oynamaq istəmir. İndoneziyanın prioriteti hərbi texnika istehsal etmək, mövcud şəraitə uyğunlaşdırmaq və nəticədə rəqabət aparmaq üçün təcrübə və səlahiyyət qazanmaqdır."Bədr müqaviləsi"nin zəif tərəflərindən biri üzv dövlətlərin hərbi texnikanın istehsalında xarici təhcizatçılardan asılı olmalarıdır. Hərbi texnikanın birgə istehsalı zamanı kommersiya şərtlərinin tərəflərin maraqlarına uyğunluğunu təmin etmək də asan olmayacaq. Müqavilə çərçivəsində layihələri müəyyən etmək, təsdiqləmək və planlaşdırmaq üçün strateji şura yaradılıb. Şura ilk növbədə dördtərəfli proqramları və dizayn hüquqlarının bölüşdürülməsinə təmin etməlidir. Müqavilənin icrası üzv dövlətlər arasında təcrübə və səlahiyyətlərin necə bölüşdürülməsindən asılı olacaq. Əks halda fərqli milli maraqlar kollektiv maraqları üstələyə bilər".

Vasif ƏLİHÜSEYN

"Qərb Ukraynaya dəstəyi artırır"



"Ukraynaya dəstək məqsədilə yaradılmış "Könüllülər koalisiyası" yenidən bir araya gəldi. Görüşdə Böyük Britaniya və ABŞ nümayəndələri də iştirak etdilər. Göründüyü kimi, Avropa İttifaqı və NATO ölkələri Ukraynaya dəstək məsələsində ortaq mövqe nümayiş etdirməyə çalışırlar. Artıq Rusiyanın kölgə donanmasına qarşı da konkret addımlar atılır. Hətta Liviya sahillərində və Finlandiya sahilləri yaxınlığında Rusiya ilə əlaqəli kölgə donanmasının gəmiləri hədəfə alınır".

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Politoloqun sözlərinə görə, bütün bunlar onu göstərir ki, Qərb Ukrayna məsələsində daha konkret və sərt mövqe ortaya qoymağa başlayıb:

"Donald Trampın Putinlə bağlı fərqli yanaşmasına baxmayaraq, Vaşinqtonda da bu məsələdə fikir ayrılıqları mövcuddur. Ağ Ev daxilində Ukrayna siyasəti ilə bağlı vahid mövqenin olmadığı müşahidə edilir. Hətta Trampın kürəkəni Cared Kuşnerin də Ukrayna məsələsində onun yanaşmasını tam dəstəkləmədiyi barədə fikirlər səsləndirir.

Böyük Britaniyanın öncüllük etdiyi Avropa koalisiyası Ukraynaya siyasi və hərbi dəstəyin davam etdirilməsində maraqlı olduğunu nümayiş etdirir. Eyni zamanda, Putinin müharibənin dayandırılması ilə bağlı təkliflərin bəzi bəndlərinə razılıq verməsi Moskvanın müəyyən məsələlərdə geri çəkilməyə hazır olduğunu göstərir. Bununla belə, Donbas məsələsində Rusiya hələ də öz mövqeyini qoruyur".

Onun fikrincə, Qərbin mövqeyinin daha da sərtləşməsi, eləcə də gələn ilin yanvarından etibarən ABŞ Konqresində demokratların fəaliyyətə başlaması Tramp administrasiyasının Ukrayna siyasətinə təsir göstərə bilər:

"Bu amillər Rusiyaya qarşı siyasi və iqtisadi təzyiqlərin artmasına gətirib çıxara bilər. Moskva gələn il atəşkəsə razılaşmaq məcburiyyətində qala bilər. Bununla belə, Rusiyanın müharibəni daha genişmiqyaslı eskalasiyaya aparması hazırkı şəraitdə o qədər də real görünmür".

Sübhan



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

Haqqımı halal eləmirəm...

“Qurani-Kərim” də buyurulur ki, haqqa girmək böyük günahlardandır. Və o da deyilir ki, “siz Mənim yanıma haqq yeyən kimi gəlməyin və cəzası çox ağırdır”. Müqəddəs kitabda bir İlahi söz də var:” Qulun təri soyumamış onun halallığın alın...” Amma bizdə çox adam buna bir o qədər də əhəmiyyət vermir. Və deyir ki, əşşi, bunlar boş şeydir. Nə halal, nə haram? Get, öz işinlə məşğul ol! Yəni öz xeyrinə nə bacarırsan, onu da elə! İndi həftələrlə, aylarla insanı qapısında, həyətində varlı, pullu adamlar qan tərə bata-bata, iraq ata-anasından, eşşək kimi işlədirlər, pulunu vermirlər. Deyirlər ki, “get sabah gəl! Bu “sabah”lar da həftələrlə, aylarla uzanır!

Fəhlə də o qapıya səhər də gedir, günorta da, axşam da pulunu ala bilmir! Bəzən də varlı adam onun pulunu vermək əvəzinə, kimsəsiz olduğu üçün həmin adamı söyür və salır təpiyinin altına döyür. Yazıq o fəhlənin də gücü yalvarmağa və bu qəddar adamın yeddi arxa dönənini söyməyə, bir də qarğış etməyə çatır. Qarğışın da geci-tez var, nə vaxtsa tutur. Ona görə də haqqa girməkdən qorxun və bu, bir gün sizdən soruşulacaq. O dünyada yox ha, elə bu dünyada!

Kimsə dünyasını dəyişəndə cənazə ortada olur. Cənazə namazı qılan molla namaza duranlara deyir: “Ay camaat, bu rəhmətə gedənə halallıq verin. Çox adam da halallıq verir. Amma elə adamlar var ki, dələduzluq elədiyinə, insanlara pul “atdığına” görə ona halallıq vermir və dodağının altında deyir ki, haram-haram burnundan gəlsin! Tay bundan böyük qarğış olar? Mənim də həyatımda belə hadisə olub. İşə düzəltmək adı ilə bir məşhur adam sovet dönəmində pul alıb, qaytarmayıb, sonra da ölüb, ikinci adam isə borc alıb, o da qaytarmayıb və rəhmətə gedib. Yəni mənim halal pulumu yeyiblər. Bunlara nə halallıq vermək olar? Üçüncü hadisə isə bir neçə gün bundan əvvəl olub. İstiliklə bağlı binanın zirzəmisində texniki problem vardı. Onun material və usta pulu 120 manat edirdi. Onu qonşulara inanıb əvvəlcədən pul verdim, ustalar da çox sağolsunlar bir günün içində hər şeyi təmir elədilər və mənzillərimizə istilik gəldi. Amma üç qonşu o pulları vermədi. Dedilər ki, bu, istilik idarəsinin borcudur. Ancaq bu, onların borcu deyil. Belə ki, mövcud qanunla binaların zirzəmisində və mənzillərdə olan texniki nasazlığı sakinlər öz vəsaitləri hesabına həll etməlidirlər və bu barədə “Azəristiliktəchizat”ın əhaliyə müraciəti də var. İnsan nə qədər cahil və anlamaz olmalıdır ki, həqiqəti görməsin. Özü də hər üç qonşum imkanlı adamlardı. Mən o pulu onlara halal eləmirəm, haram-haram xoşları olsun və burunlarından gəlsin! Çünki haqqa girmək böyük günahdır. Görünür mənim bu qonşularım nə Allahdan, nə də haqqa girməkdən qorxurlar. Lakin hər şeyin geci-tezi var. Və gözləyək görək bu işlərin sonu necə bitir. Və bir də Allahın səbri çox böyükdür, buynuzsuz qoçun qisasını heç vaxt buynuzluda qoymur!!!

Dişin ağrıyır?



Bu günlər bir dostumla görüşdüm. Gördüm ki, dişinin ağrısından dayana bilmir, o yan, bu yana gedir , elə hey ufuldayır! Soruşdum ki, nolub ? Dedi ki, görmürsən nə vəziyyətdəyəm , dişimin ağrısına dözə bilmirəm. Tanıdığım bir stomatoloqa yönləndirdim. Çox sevindi . Üçdörd saatdan sonra mənim mobil telefonuma zəng vurdu.

Yenə sevinə-sevinə bildirdi ki, Allah Ceyhun həkimin də , sənin də balaların saxlasın, canımı yaxşı qurtardım və ağrıyan dişimi çıxartdırdım.Amma bir məsələ var. Həkim o biri dişlərimə baxdı və təəccüblə dedi ki, cavan adamsadan, amma bir salamat dişin qalmayıb. Mən o dişlərdən 9- un müalicə edəcəyəm, ancaq o biri dişlər çıxarılmalıdır. Bunun başqa yolu yoxdur. Çıxarılan dişlərin də yerinə protez dişlər qoyulmalıdır. Əgər dişlərin müalicə olunmasa , onlar da biriki aya çürüyəcək. İstər - istəməz həkimlə razılaşdım. Bu yaşa- 45 yaşa çatmışam bir dəfə gedib dişimi müayinə elətdirməmişəm. Bax , öz səhhətinə qarşı səhlənkarlığın axırı da belə olur. Ona görə də, gənclərə müraciət edərək deyirəm ki, sağlamlığınızın qədrini bilin. Heç olmasa, ildə bir dəfə müayinədən keçin!

Emil



Səndən bir daha olmayacaq!!!

***

Adam var ki, qürurunu, mənliyini satıb pul qazanır! İnsan da olur ki, pulu qurban verib, qürurun və mənliyin qoruyur!!!

***

Bir bulağın iki gözü, biri sənsən, bir də mən! Bir almanın iki gözü , biri sənsən, bir də mən!...

***

İnsanın gözəlliyi olmaya bilər , savadı olmaya bilər bunu görə heç nə olmaz, amma tərbiyəsi olmayanda insan heyvana bənzəyir! Özü də lap pis heyvana.

Emil Faiqoğlunun SÖZ XƏZİNƏSİ

***

Bir pərdənin iki simi, biri sənsən, biri də mən...

***

Allah sənə rəhmət eləsin, İslam Rzayev! Nə gözəl oxumusan ” Biri sənsən,biri də mən” mahnısını. Sözləri Bəxtiyar Vahabzadənin, musiqisi Əhsən Dadaşovundur! Ulu Tanrı hər iki dahi sənətkara da rəhmət eləsin! Və bu mahnı durduqca onlar da yaşayacaq!!!

***

Bu dünayada ancaq səni sevən adama inanmaq olar! Çünki sevgi heç vaxt onun sənə xəyanət etməyinə imkan verməz!!!

***

Bundan sonra da səni yüz il sevəcəyəm... (Nüsrət Kəsəmənli)

***

Bir qadın gördüm, boynunda , barmaqlarında və biləyində 2 kilodan çox qızıl vardı, amma Yevlax qaraçılarına oxşayırdı!!!

***

Hər pulu olan insan adam deyil!!!

***

Seyran Səxavət dünyəvi yazardı. O, heç də Folknerdən, Markesdən geri qalan yazıçı deyil. Sadəcə olaraq biz Seyran Səxavəti dünyaya tanıtdıra bilməmişik!!!

***

22 noyabr - Azərbaycan Ədliyyə İşçilərinin Peşə bayramıdır! Təbrik edirik!!!

***

Kim haqqa girib, haqqı yeyirsə, haram xoşu olsun! Allah həmişə belə adamların cəzasın verir!!!

***

Sevgi olmayan ürək səhraya bənzəyir...

***

Kitab oxumadan da adam olmaq olar!

***

Səni sevən adam varsa, dünyanın ən xoşbəxt insanısan!!!

***

Getdin,o nə gedişidi, ürəyimi apardın!(Qədir Məmmədovun mahnısı)

***

Dünyanın ən gözəl yeri sən olduğun yerdir! O yerdə olsam, ən xoşbəxt adamam!

***

Sevən adam heç vaxt yalan danışa və kimsə pislik edə bilməz!!!

Heyvanların hüquqları qorunur, insanların yox!



Son vaxtlar Bakıda çoxlu sayda insan itlərin hücumuna məruz qalmaqlarından narazılıq edirlər. Onlar deyirlər ki, biz səhər və axşam saatlarında küçəyə çıxa bilmirik.

Çıxan kimi it sürüsü ilə üzləşirik.Həmin anda itlər bizə hücum edirlər . Bizim bir neçə qonşumuzu it tutub. Bir dəfə Qobu qəsəbəsində itlər bir qadına hücum eləmişdi və neçə yerdən onu tutmuşdu.Qadına kömək edən gənci də it əlindən və ayaqlarından dişləmişdi. Onları təcili xəstəxanaya çatdırdıq , həkimlər xəstələrin yarasına dərman vurub , sarğı ilə bağladı və quduzluq əleyhinə vaksin vurdular. Hələ də bir neçə sakin xəstəxanada müalicə alır. Bax , bu gün Bakıda mövcud vəziyyət belədir.

Küçə itlərinə qarşı yetərincə mübarizə aparılmır. Nəticədə isə insanlar küçə itlərinin, sahibsiz itlərlərin əlindən qorxulu anlar yaşayırlar. Küçə itləri tək Bakının ucqar yerlərində deyil, həm də mərkəzi küçə və prospektlərdə sürü ilə gəzirlər. Xüsusilə də səhər saat 5 radələrində onlar daha da quduzlaşır və insanlara hücum edirlər. Çox təəssüf ki, aidiyyəti qurumlar isə onlara qarşı yetərincə mübarizə apara bilmir. Qəribədir ki, bizdə heyvanların hüquqları qorunduğu halda, insanların hüquqları qorunmur!

'Bir itə kimsə daş atsa, səlbə tullasa, verib öldürsə, onda Heyvanların Hüquqlarını Müdafiə edən cəmiyyətlər. bir hayküy salır ki, sanki dünya dağılır, amma hər gün küçə itləri kimi isə tutur, yaralayır heç kim buna etiraz eləmir. Aidiyyəti qurumlar isə heç bir tədbir görmür və işi bir- birinin üzərinə atırlar.Nəticə isə göz qabağındadır - yəni ürəkağrıdıçıdır!

Dələduzların qurbanı olmayın...



Bu gün bir çox insanlar mənzil, avtomobil alanda ayrı- ayrı dələduzların torunа düşürlər.Təbii ki, sonradan bu tordan çıxmaq elə də asan məsələ olmur. Buna görə də mənzil, avtomobil və digər əmlak alarkən diqqətli olmalı, bütün hüquqi sənədlər dəqiq araşdırılmalıdır.

Çıxarışı olmayan, eləcə də müqavilə və bələdiyyə sənədləri ilə satılan mənzillər alarkən daha diqqətli və ehtiyatlı olmaq lazımdır. Bu proseslər ” makler”lərin iştirakı və vasitəçiliyi ilə ” Asan xidmət” də və notarial ofislərində baş tutur. Üstəlik də ” makler” lər həm mənzil satandan, həm də alandan1000- 1500 manat civarında pul alırlar! Alqı-satqı zamanı ” Forma-2” sənədinə xüsusi diqqət yetirilməlidir. Çünki alqı-satqıdan sonra mənzildə qeydiyyatda olan şəxslərin bəziləri qeydiyyatdan çıxmır və sonradan mənzil sahibi üçün problem yaradır.Buna görə də yeni mənzili alan adam məhkəməyə müraciət edir və nə qədər əziyyət çəkməli olur. Alqı-satqı prosesini isə nə qədər vaxt aparsa da ” Asan xidmət” də həyata keçirmək lazımdır. Nə ev sahibinə, nə də ” makler” ə inanın . Qanuna və sənədlərə inanın. ” Forma-2” i almamış alqı-satqı eləməyin. Qeydiyyatda olanların hamısı mənzildən qeydiyyatdan çıxsın və ondan sonra digər notariat hərəkətləri aparılsın. Bax , belə olarsa, mənzil alandan sonra başınız ağrımaz və problemlər yaşamazsınız!

Ən böyük zərbəni qonşudan aldı...



Bir yaxın dostum deyir ki, mənim qonşu sarıdan bəxtim heç gətirməyib. Həmişə çalışmışam ki, aramızda mehribanlıq olsun! Qonşularımısa, bunun əksini ediblər! Əsasən də mən də yuxarıda yaşayan iki qonşu.Bir dəfə şeytanın qıçını sındırıb ailəmi götürüb Şuşaya gəzləməyə getmişdim. Şuşanı, Xankəndini, Laçını yaxşı-yaxşı gəzdik və ürəyimiz istəyən kimi istirahət etdik.

Günorta nahar vaxtı Həkəri çayının sahilindəki restaranda yeriniz məlum yaxşı yeyib - içdik və bizə hər şey ləzzət elədi! Hələ də çaydan tutulub bişirilən farer balığının dadı damağımızdan getməyib. Restarandan çıxıb gəzməyə getmək istəyirdik ki, mobil telefonuma zəng gəldi ki, bəs sizin evi su basıb... Yeyib- içdiyimiz burnumuzdan töküldü... Zəng edən qonşu dedi ki, sizdən yuxarıda yaşayan qonşu istilik radiatorunu dəyişərkən məsuliyyətsizlik edib,xətti açıq qoyub, həmin vaxtı da ” Azəristiliktəchizat” ın istilik sahəsindən xətti yoxlamaq üçün ora yüksək təzyiqlə su vurub və nəticədə qonşunun , eləcə də ustanın məsuliyyətsizliyindən belə bir hadisə baş verib. Şəhərə qayıtdıq gördük ki, mənzillərin hamısı su içindədir. Nə isə ... bu işləri yola verdik. İndi neçə gündür ki, binaya istilik verilib,amma bizim blokdakı mənzillərdə istilik yoxdur. Bunun da səbəbləri aydınlaşdı.

Zirzəmidəki xəttə qəza baş verib, Mövcud qanunla zirzəmidə və mənzildəki texniki nasazlığı sakinlər öz vəsaiti hesabına həll etməlidir. Mən bunu yaxşı bilirəm. Ancaq qonşular bilmir.Oranın material və usta pulu 120 manat edir. Mən də o pulu öz cibimdən verdim ki, sonra qonşulardan alaram. İstilik idarəsinin əməkdaşları da çox sağolsunlar , bir günün içində təmir işlərini başa çatdırdılar. Mənzilimizə normal istilik gəlir və radiatorlar hamısı yanır! Lakin qonşular onlara düşən pulu vermədilər və dedilər ki, bu onların borcudur.

Nə qədər savadsız və cahil olasan ki, bu sözləri deyəsən! Bax , mən həmişə elədiyim yaxşılıqların əvəzini almaq yerinə , ağır zərbəsini alıram! Bu da iki-üç qonşudan mənə vurulan sonuncu zərbə! Sonra da deyirlər ki, bəs yaxşılıq eləyin! Belə adamlara yaxşılıq eləmək olar???

Emil FAİQOĞLU

Azərbaycan Elm Mərkəzi dünyaya açılan zəka qapısıdır

"Azərbaycan Elm Mərkəzi"nin təsisçisi, tədqiqatçı Mübariz Hüseyinov xalqqazeti.az saytına müsahibə verib. Adalet.az həmin müsahibəni təqdim edir.

Azərbaycan elminin beynəlxalq akademik məkanda layiqli təmsil olunması, alimlərimizin tədqiqatlarının nüfuzlu elmi bazalarda indeksləşdirilməsi və yerli elmi nəşrlərin dünya standartlarına uyğunlaşdırılması mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə Azərbaycan Elm Mərkəzinin (AEM) fəaliyyəti diqqətəlayiqdir. Mərkəz elmi məqalə və kitabların nəşrə hazırlanması, DOİ kodunun verilməsi, beynəlxalq indeksləşmə və akademik əməkdaşlığın genişləndirilməsi sahəsində xidmətlər göstərərək milli elmi potensialın dünya elmi ictimaiyyətinə tanıdılmasına töhfə verir. Mərkəzin təsisçisi, tədqiqatçı Mübariz Hüseynovla söhbətimiz də bu barədədir.

- Mübariz müəllim, söhbətimizə ümumi bir sualla başlamaq istərdik. Azərbaycan elminin dünya miqyasında tanıdılması dedikdə, nəyi nəzərdə tutursunuz? Bu istiqamətdə hansı addımlar atılmalıdır?

- Azərbaycan elminin beynəlxalq miqyasda tanıdılması yalnız alimlərimizin xarici jurnallarda məqalələrinin dərc olunması demək deyil. Əsas məqsəd ölkəmizdə aparılan elmi tədqiqatların beynəlxalq elmi ictimaiyyət üçün əlçatan olması, öyrənilməsi, istinad mənbəyinə çevrilməsi və dünya elminə töhfə verməsidir. Bunun üçün tədqiqatların keyfiyyətinin yüksəldilməsi, elmi nəşrlərin beynəlxalq standartlara uyğunlaşdırılması, xarici dildə akademik ünsiyyətin və beynəlxalq əməkdaşlığın genişləndirilməsi vacibdir.

- AEM-in fəaliyyətinin əsas istiqamətləri hansılardır?

- Azərbaycan Elm Mərkəzinin fəaliyyəti elmi nəşriyyatçılıq və beynəlxalq akademik əməkdaşlığın inkişafına yönəlib. Hazırda mərkəzdə elmin müxtəlif sahələrini əhatə edən 8 beynəlxalq elmi jurnal nəşr olunur. Bununla yanaşı, Beynəlxalq Elmi Kitabxana, Elmi Məqalələrin Beynəlxalq Platforması, DOI təyinatı və "StrikePlagiarism" proqramı vasitəsilə plagiat yoxlanışı xidmətləri təqdim edilir.

Mərkəz elmi konfransların təşkili, xüsusi buraxılışların hazırlanması və tezis toplularının nəşri ilə də məşğuldur. Əsas məqsədimiz, sadəcə, elmi məqalələri dərc etmək deyil, onların beynəlxalq elmi dövriyyəyə daxil olmasına, tədqiqatçıların əməkdaşlıq imkanlarının genişlənməsinə və Azərbaycan elminin dünya miqyasında tanıdılmasına xidmət göstərməkdir.



sini asanlaşdırır. AEM-də nəşr olunan jurnalların məqalələrinə, elmi konfrans materiallarına, tezislərə və Beynəlxalq Elmi Kitabxanaya qəbul edilən kitablara DOI təyin olunur.

AEM-in bazasında fəaliyyət göstərən Beynəlxalq Elmi Kitabxanaya qəbul edilən elmi kitablar da DOI: 10.36719 kodu ilə identifikasiya olunur.

- AEM-in beynəlxalq elmi nəşriyyatçılıq sahəsində əldə etdiyi nəticələrdən danışarkən "Crossref" ilə əməkdaşlığı qeyd etdiniz. Bu əməkdaşlığın tarixi və əhəmiyyəti nədir?

- AEM 2019-cu ildən "Crossref" təşkilatının üzvüdür. 2020-2024-cü illərdə ölkə üzrə, 2024-cü ildən isə dünya üzrə rəsmi təmsilçilik hüququna malikdir. Bu ilin iyununda "Crossref"dən aldığımız məlumata əsasən, mərkəz 8802 elmi məqalə və kitaba DOI təyin edib. Bu göstərici Mərkəzin beynəlxalq elmi mühitdə fəal və davamlı fəaliyyətinin mühüm nəticələrindəndir. "Crossref" sistemində bu rekord göstəricinin mövcudluğu mərkəzdə dərc olunan məqalə və elmi kitabların beynəlxalq rəqəmsal mühitdə əlçatanlığını artırır, onların dünya üzrə tədqiqatçılar və elmi axtarış sistemləri tərəfindən aşkar edilməsinə, eləcə də elmi istinadlarda istifadə olunmasına şərait yaradır, elmi nəşrlərin "itib-batmasının" qarşısı alınır.

- Deməli, DOI kodu almaqla beynəlxalq elmi bazalarda indekslənmək eyni anlayış deyil?

- Bəli, bunlar fərqli anlayışlardır. DOI nəşrin identifikasiyasını və ona istinadı təmin edir. Beynəlxalq bazalarda indeksləşmə isə jurnalların xüsusi elmi keyfiyyət və nəşr meyarlarına uyğunluğundan asılıdır. Buna görə müəlliflər məqalə göndərməzdən əvvəl jurnalın indekslənmə vəziyyətini müvafiq bazaların rəsmi saytlarından yoxlamalı, reklam məlumatlarına deyil, təsdiqlənmiş göstəricilərə əsaslanmalıdırlar.

- Elmi jurnalların beynəlxalq indekslərdə təmsil olunması nə üçün bu qədər əhəmiyyətlidir?

- Beynəlxalq indekslərdə təmsilçilik Azərbaycan alimlərinin tədqiqatlarının dünya elmi ictimaiyyətinə çatdırılması, istinad imkanlarının genişlənməsi və elmi əməkdaşlığın inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Bu platformalar vasitəsilə yerli tədqiqatlar xarici alimlər üçün əlçatan olur, elmi nəticələrin tanınma imkanları artır.

Lakin jurnalın nüfuzunu yalnız indekslərdə təmsil olunması ilə ölçmək olmaz. Burada elmi məqalələrin keyfiyyəti, redaksiya siyasəti, obyektiv rəy prosesi, nəşr etikası və beynəlxalq standartlara uyğunluq əsas meyarlardır. Başlıca məqsədimiz formal göstəricilər əldə etmək deyil, Azərbaycan elmi nəşrlərinin beynəlxalq etimad qazanmasına nail olmaqdır.

- "Elmi iş" jurnalının beynəlxalq indeks bazalarına daxil olması barədə nə deyə bilərsiniz? SCOPUS, ERIH PLUS, EBSCO və digər platformalarla bağlı fəaliyyətiniz hansı istiqamətdə inkişaf edir?

- AEM-in əsas prioritetlərindən biri elmi nəşrlərin beynəlxalq elmi platformalarda təmsil olunmasıdır. Bu baxımdan mühüm nailiyyətimiz "Elmi iş" Beynəlxalq Elmi Jurnalının bu ilin fevral ayından SCOPUS bazasına daxil edilməsidir. Xüsusilə qeyd etmək istəyirəm ki, jurnal ölkəmizdə SCOPUS-da indekslənən ilk anadilli humanitar və ictimai elmlər üzrə multidisiplinar nəşrdir. Bu uğur Azərbaycan elmi nəşriyyatçılığının beynəlxalq səviyyədə tanıdılması və yerli elmi jurnalların nüfuzunun yüksəldilməsi baxımından əhəmiyyətli hadisədir.

- Hazırda ölkədə fəaliyyət göstərən yüzlərlə elmi jurnalın çoxu heç bir beynəlxalq elmi bazada yoxdur. Nə üçün?

- Əslində, bu sualın cavabını söyləyə bilərəm, amma düşünürəm ki, ağır ittiham olar. Qısaca qeyd etmək istəyirəm ki, əgər bir elmi jurnal heç bir indeks bazasına daxil deyilsə, belə jurnalları yalnız "ölü" jurnal adlandırmaq olar. Təəssüf ki, belə jurnallarda yüzlərlə akademik keyfiyyətə malik məqalələr itib-batmaqdadır.

Bir məsələni də xüsusilə vurğulamaq istəyirəm ki, bu jurnalların adları onların beynəlxalq olduğunu bildirsə də, lakin onların fəaliyyəti qeyd edilən məqsəd və əhatə dairəsi ilə dəstəklənmir. Hesab edirəm ki, Azərbaycan elmi nəşriyyatçılığının qarşısında duran əsas vəzifələrdən biri formal beynəlxalq statusdan daha çox, real beynəlxalq elmi fəaliyyətə nail olmaqdır.

- Bu sırada nəşrlərinizdən biri haqqında ayrıca danışmağınızı istərdik. Söhbət "Elmi iş" Beynəlxalq Elmi Jurnalının bazasında 2023 və 2024-cü illərdə təşkil etdiyiniz Zəngəzurun tarixi və coğrafiyasına həsr olunmuş beynəlxalq elmi konfranslardan gedir.

- Zəngəzurun tarixi və coğrafiyasına həsr olunmuş beynəlxalq elmi konfranslar milli tarixi yaddaşımızın beynəlxalq akademik müstəvidə tanıdılması baxımından mühüm layihələrimizdəndir. 2023-2024-cü illərdə təşkil olunan konfransların materiallarında bölgənin tarixi, coğrafiyası, toponimləri, təbii sərvətləri və maddi-mədəni irsinə həsr edilmiş 217 elmi məqalə toplanıb.

Bu araşdırmalar Zəngəzurun Azərbaycan tarixindəki yerinin elmi mənbələr və faktlar əsasında öyrənilməsinə xidmət edir. Xüsusilə vurğulamaq istərdim ki, "Zəngəzurun tarixi və coğrafiyası" adlı beynəlxalq elmi konfransların materialları SCOPUS beynəlxalq elmi məlumat bazasında indekslənib. Bu, tədqiqatların xarici alimlər üçün əlçatanlığını və beynəlxalq elmi dövriyyədə iştirak imkanlarını genişləndirir.

Nəşrlərin üz qabığında Azərbaycan bayrağının yerləşdirilməsi də xüsusi məna daşıyır. Bu, milli kimliyimizə və dövlətçiliyimizə ehtiramın ifadəsidir. Əsas məqsədimiz Zəngəzurun tarixi ilə bağlı həqiqətləri emosional mübahisələrdən kənar, sənədlər, tarixi mənbələr və elmi təhlillər əsasında beynəlxalq ictimaiyyətə çatdırmaqdır. İnanırıq ki, tariximizin elmi əsaslarla öyrənilməsi və təbliği gələcək tədqiqatlar üçün də zəmin yaradır.

- Azərbaycan elminin gələcəyi və dünya elminə inteqrasiya yolunda qarşıda hansı hədəflər durur?

- Azərbaycan elminin beynəlxalq miqyasda tanınması üçün elmi potensialımızı müasir nəşriyyat standartları, rəqəmsal texnologiyalar və beynəlxalq əməkdaşlıq imkanları ilə uzlaşdırmalıyıq. Əsas hədəfimiz keyfiyyətli tədqiqatların dəstəklənməsi, elmi jurnalların nüfuzunun artırılması və alimlərimizin qlobal elmi platformalarda daha fəal təmsil olunmasıdır. Eyni zamanda, milli elmi ənənələrimizi qoruyaraq zəngin elmi irsimizi dünya ictimaiyyətinə təqdim etməliyik. İnanıram ki, birgə səylərimiz Azərbaycan elminin beynəlxalq nüfuzunun yüksəlməsinə mühüm töhfə verəcək.

- Sizə fəaliyyətinizdə yeni uğurlar arzulayırıq.

Namiq QƏDİMOĞLU,
filologiya üzrə fəlsəfə doktoru







"Azərbaycan Borçalını təcili İran təsirindən azad etməlidir"



"İbrahimlinin fikrincə, Azərbaycanın iştirakı ilə həyata keçirilən böyük regional layihələrdən heç olmasa birinin Borçalı ərazisindən keçməsi bölgənin iqtisadi həyatını, sosial rifahını və siyasi fəallığını köklü şəkildə dəyişə bilər".

Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib.

"O, Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və Bakı-Tbilisi-Qars dəmir yolunu nümunə gətirərək gələcək layihələrin planlaşdırılmasında Borçalının nəzərə alınmasını təklif edib.Alim Azərbaycan-Gürcüstan quru sərhədinin bərpası məsələsinə də toxunub. Onun sözlərinə görə, Borçalı əhalisinin bir hissəsi sərhədyanı ticarətlə dolanırdı və sərhədin 6 ildir bağlı qalması bu imkanları aradan qaldırıb. İbrahimli sərhəd ticarətinin bərpasını bölgə üçün həyati məsələ kimi dəyərləndirib. O, bu boşluqdan İranın Ermənistan üzərindən yararlandığını da diqqətə çatdırıb", - deyə o, bildirib.

Sübhan

Bu ölkədə məktəblərdə mobil telefon qadağan olunur



Danimarka Təhsil Nazirliyi 2027-2028-ci tədris ilindən etibarən ölkənin ibtidai və orta məktəblərində mobil telefonlardan istifadənin qadağan olunacağını açıqlayıb.

Adalet.az xəbər verir ki, nazirliyin açıqlamasına əsasən, yeni qayda yalnız internetə çıxışı olan mobil telefonları deyil, şagirdlərin digər şəxsi elektron cihazlarını da əhatə edəcək. Eyni zamanda, məktəblərin internet şəbəkələrində məzmun filtrləmə sistemi işə salınacaq.

Sənəddə qeyd olunur ki, dərs saatları ərzində təhsillə əlaqəsi olmayan platformalara - sosial şəbəkələrə, onlayn oyunlara və alış-veriş saytlarına giriş məhdudlaşdırılacaq. Hansı veb-saytların bloklanacağına isə yerli bələdiyyələr və məktəb rəhbərlikləri qərar verəcək.



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

KÖZƏRƏN TƏNHALIQ

“Tənhalığın rəngi” kitabımın işığında

Hər bir insan fərd olaraq zaman-zaman sınanır. Bu sınaq bütün müstəvilərdə baş verir. Ona görə də konkret sınaq meydanı hər kəsin öz alın yazısından, öz taleyindən gəlib keçir. Yəni, hansı sahədə və nəyə, niyə görə sınanırsansa meydan da ona uyğun olur. Bu mənada mən öz ömür kitabımı bəlkə də gündə min dəfə vərəqləyirəm. Hər vərəqdə də özüm özümü iddiham edirəm. Çünki etdiyim günahlar, çəkdiyim ahlar yerdən-göyə körpüdür.

Ona görə də o körpünün üstündə dayanıb aşağıdan yuxarı və yaxud da tərsinə baxanda əlim heç yana çatmır. Çünki o körpünün özü də boşluqdur, dayandığım yer kimi. Elə indiki anın özündə də bir boşluqda dayanmışam və nə isə gözləyirəm, kiməsə getməyə tələsirəm. Ona görə də bu körpü vağzalda, bu ömür yolunun bir nöqtəsində özüm-özümə pıçıldayıram:

Vağzalda...
lap dəqiqi
perronda dayanmışam...
Qayğılı,
tüstülənən siqaretimlə tək...
Bunu yazmıramki,
oxusunlar...acısınlar...
ya da sən oxu
fikirçək...
Sadəcə
istəyirəmki,
özümü
möhkəm tutum
və qəhəri unudum!
Çünki,
yolasalan yoxdursa,
qarşılayan da olmayacaq
demək!
Görünür
elə bu səbəbdəndə
ürəyim
tənhalığım üçün
hər an,
hər gün
şumlanıb lək-lək...
Eh...son bu imiş -
sevgisizlik...fələk!..

Bəli, Azərbaycanın çox dəyərli şairlərindən, unudulmaz söz adamlarından biri , həmişə oxucularının , o cümlədən də mənim qəlbimdə yaşayacaq dostum Çingiz Əlioğlunun ”Vağzallar” şeiri də burda mənim hayıma çatmır. Ona görə ki, tənhalıq, təklik daha güclüdür, daha dizi bərkdir, daha ağır yumruqludur. Ona qarşı çıxmaq təkbaşına mümkün deyil. Və sən də uzatdığım əli havada saxlayırsan. Deməli, əlim ətəkdən də tuta bilmir, əldən də...

Deyə bilərsənki, bu dünya təkcə kiminsə duyğularından, hislərindən, yaşamından ibarət deyil. Əgər belə olsaydı bütün dünyaya bəlli olan əbəd sevgilər nağı kimi, dastan kimi qalmazdı. Gerçəkliyin özü olardı və biz də hər gün onunla qarşılaşardıq. Neyləmək olarki, bizim istəyimi dünyanın istəyi deyil, ona görədə düz gəlmir və...

Əvvəldə dedim ki, bir fərd olaraq hər birimiz öz qədərimizi yaşayırıq, öz kədərimizi daşıyırıq, öz sevincimizi böyütməyə, süsləndirməyə cəhd edirik. Təbiiki, belə də olmalıdı. Axı ömür bir dəfə verilir və onun ölçüsü məlum deyil. ”Ol”-dan ”Öl”-ə qədərdi məsafə. Bir an da ola bilər, yüz il də. Və bu məsafənin içərisində boşuna xərclədiyimiz, sağa, sola səpdiyimiz günlər, aylar, illər var, olub və olacaqdı da. Ona görə ki, biz hər şeyi sonradan qiymətləndirməyə, dəyərləndirməyə öyrəşmişik. Ox yaydan çıxandan sonra təəssüf etmək vərdişimiz danılmazdı. Məhz bu dediklərimə söykənərək bir məqama yenidən qayıtmaq istəyirəm. O da mənim yaşadığım daxili təklik, daxili tənhalıq...bir də sənin həyatımdakı izlərin... Bunu isə bir Allah bilir, bir də sən... Allaha duam çatmır, sənə isə əlim. Və deməli bu tənhalıq mənim qədərim, alın yazım olduğu danılmazdı. Ona görə də mən sənə üz tutaraq ürəyimin istəyini bir pıçıldayıram:

Bir gilə göz yaşına
büküb məni at küncə...
O, küncə nəzər yetir -
Gülüm, yatmazdan öncə...

Yuxuna layla kimi
Səpiləcək bu halım...
Cavabını alacaq -
Sevirsənmi? - sualım...



Yastığına damandan
Üşənəcək otağın...
Göynəyəcək yanağın -
Buzlayacaq yatağın...

Beləcə aparacaq
Yuxu səni özüylə...
Yat, amma gör yuxunu -
Əbülfətin gözüylə!



İndi payızın addım səsləri daha sürətlənib... Sanki yanaşı addımlayırıq... hətta əlindən tutmuş kimi hiss edirəm... Yarpaq tökümünün həniri də özünü çatdırıb, hiss etdirir. Burda bir ədalət prinsipi var. Yəni zaman hakimdir. Bizim istəyimizdən asılı olmayaraq vaxt öz işini görür, fəsillər bir-birini əvəz edir. Deməli, yazın gəlişinə sevinən bəndə payızın nəfəsin duyduqca kövrəlməyə başlayır. Bu, obrazlı ifadə olsa da, daxilində bir gerçəklik hakimdi. Gerçəkliyi də insan özü yaradır, yəni biz özümüzüçün bunu normal bir şəkildə qəbul etmişik. Və ömrümüzün payızını elə saralan yarpaqlara bənzədərək yavaş-yavaş üzüqışa, özü də hardasa dirəşərək, tələsmədən getmişik. Bizim tələsib-tələsməməyimiz isə heç nəyə yaramayıb. Yenə təkrar edirəm:

- Zamanı durdurmaq mümkün deyil. Mən zaman ölçülərini heçnəyə bənzədə bilmirəm. Heç kimin ömürlüyünə uyğunlaşdırmaq gücüm də yoxdur. Bircə özümdən və sevgimdən başqa. Çünki sevgi bu zamanın özü boydadır. Onun mənimlə hər anımda və gerçək bir şəkildə təmasda olması danılmazdı. Dünənimdə də, bugünümdə də, əgər var olsam sabahımda da olacaq. Bu inamı mənə Tanrım verib. Bilirəm ki, Tanrının verdiyini d yalnız Tanrı ala bilər. Haqdan gələnin qarşısında bütün varlığımla dayanıb onu qarşılamaqla yanaşı onu yaşatmağı da bu günə qədər bacarmışam və...

Gileylənmə bu sevgidən , bu eşqdən
Dörd fəsili bircə anda yaşadır!

Gülümsədir ruhu səssiz , qəfildən -
İki canı bircə canda yaşadır!

Gah qolların çataqlayır kədərin,
Gah yazısın cilalayır qədərin!
Birləşdirir yerin, göyün hədlərin -
Xoş anları , hər bir yanda yaşadır!

Qibləgahım seçəndən Bir Qadını,
Hiss edirəm məhəbbətin dadını!
Gecə, gündüz sayıqlanan adını -
Dil dodaqda, ürək qanda yaşadır!

Yolun seçib, işin bilib gedən mən
İşim yoxdu öz yoluynan gedənnən!
Bil, Əbülfət bu dünyadan gedəndən -
O dünyada , sənli bir şan yaşadır!..

Mən özümdən, sözümdən həmişə incik olsam da, bircə nöqtədə özümü də, sözümü də günahsız görürəm. O da səni düşünmək, səndən yazmaqdı. Deyə bilərsən ki, bütün yazdıqlarında varamsa, deməli məni düşünmədiyin an yoxdur. Bəli, bu həqiqətdir və elə həqiqə olduğuna görə sən də heç olmasa gününün, ayının, ilinin bir anın da məni düşün. Mənim nə çəkdiyimi, necə yaşadığımı dəyərləndir, mənə görə yox, özünə və sevginə görə...

Hə, gəlimli-gedimli dünyanın hər üzünü görüb tanıya-tanıya yaşlaşırıq və elə bilirik ki, sabah bugündən hansısa bir mənada bizim üçü daha yaxşı olacaq. Bu bir düşüncədi, bir istəkdi, bir xəyaldı. Gerçəkdə isə bizim istəklərimiz elə tumurcuq da solur, çiçək açmır. Bu, ümidsizlik deyil. Bu, mənim sənə çatdırmaq istədiyim duyğularımın bir ləçəyidi. Əgər oxşamaq, toxunmaq istəsən, aç əlini. Amma elə et ki, gözlərindən o ləçəyə şeh düşməsin...

...Ürəyindəkilərin səsini kağıza köçürə bilmirəm, rəsmini çəkməyə gücüm çatmır. Amma özümü cəmləyib indiki anda sənə bunu pıçıldayıram:

Ayağını şeh öpürsə
nə gözəl!..
Yanağını meh öpürsə -
nə gözəl!..

Saçlarına külək daraq,
Qələminə ürək varaq...
Dilinə Yar sözü yaraq -
nə gözəl!..

Baxışına Günəş çəpər -
Olub, alıb səndən təpər,
Baxışından o nur səpər -
nə gözəl!..

Varlığına səcdə varsa,
Səcdəgah Allah, həm yarsa...
Məni bu sevgi aparsa -
nə gözəl!..

Hə, mən bu yazını bilgisayara diktə edərkən elə bildimki, bitdi daha tənhalıq! Artıq yalqız, tək deyiləm.... Amma yazıya nöqtə qoyub əlimi alışqana uzadan da gördüm ki, yenə səssizliyin içində tüstüləniram. Yenə sən ruhən məndəsən. Mən isə... tənha.

Evlər niyə bahalaşır?



Bu gün Bakıda mənzillər az qala hər ay bahalaşır. Görünür mənzil bazarında evlərə ən azından böyük ehtiyac var. Çünki hər hansı binanın özülü qoyulan kimi, müştərilər bina tikənlərin başlarının üstünü kəsdirirlər.

Bünövrəsi yenicə qoyulmuş binada mənzil almaq üçün hələ üstəlik müəyyən faiz pul da ödəyirlər. Onda burdan belə bir nəticə çıxarmaq olar ki, təklif və tələb bir- birini tamamlayır! Bununla yanaşı, tikinti materialları bazarında da bir çox inşaat materiallarının qiyməti bahalaşır. Düzdür, bahalıq dövründə bəzi ev almaq istəyənlər tərəddüd edirlər. Amma görünən odur ki, bahalığa baxmayaraq, yenə mənzil alanlar az deyil! Mənzil üzrə ekspert İlham Camalov deyir ki, aprel ayında yeni binalarda birin ikiyə düzəldilmiş mənzillər 155- 160 minə satılırdısa, indi həmin evlər 170- 175 minə bazara çıxarılır. Hardasa bir mənzildə 12-15 min artım var. Belə getsə, yay aylarında mənzillər bir qədər də bahalaşacaq! Əgər kimsə , mənzil almaq istəyirsə, gözləməyə dəyməz, əksinə mənzillər bugünkündən baha qiymətə satıla bilər. Bir fikiri də oxucuların diqqətinə çatdırım ki, Bakının bütün yerlərində qiymətlər artıb! Hətta Yeni Günəşlidə və Hövsan qəsəbəsində də! Bax belə. Əgər kimsə mənzil almaq istəyirsə, imkanı varsa, Allah xeyir versin, alsın və cansağlığı ilə həmin evlərdə yaşasın!

Emil FAİQOĞLU

Süni Ay torpağında kartof yetişdirildi

NASA tərəfindən dəstəklənən araşdırmada alimlər üzvi maddələrlə zənginləşdirilmiş süni Ay torpağında yeməli və qidalı kartof yetişdirməyə nail olublar.

Adalet.az xəbər verir ki, bu nəticə gələcəkdə Ay səthində yaradılacaq bazalarda çalışacaq astronavtların yerli qida ilə təmin olunması istiqamətində mühüm addım hesab edilir. Tədqiqatçılar simulyasiya edilmiş Ay torpağının tərkibini üzvi maddələrlə zənginləşdiriblər. Məlum olub ki, kifayət qədər üzvi maddə əlavə edildikdə kartof Yer torpağındakı kimi normal inkişaf edir. Eksperimentdə qırmızı qabıqlı, ağ ətli və tez yetişən ”Modoc” kartof sortundan istifadə olunub. ABŞ və Çin qarşıdakı illərdə Ay səthinə missiyalar göndərməyi və orada uzunmüddətli bazalar qurmağı planlaşdırır. Bütün zəruri ərzaq ehtiyatlarının Yerdən daşınması çətin və məhdud olduğundan Ay səthində qida yetişdirilməsi heyətlərin yaşaması üçün əsas şərtlərdən biri sayılır.

Daşdəmir ƏJDƏROĞLU



İNSANLIĞIN QİYMƏTİ, MƏNƏVİYYATIN ÖMRÜ

Tanınmış yazıçı-jurnalist, istedadlı publisist Rəfiqə Sadıqovanın "Sözüm sizədir" kitabı haqqında

İnsan var, ömrünü yaşayır, insan da var, yaşadığı ömrün mənasını başqalarına anlatmağa çalışır. Birincinin həyatı özünə çatır, ikincinin sözü isə başqalarının qəlbinə yol tapır. Əslində, yazıçının, jurnalistin, publisistin, söz adamının məsuliyyəti elə buradan başlayır. Söz danışmaq, yazmaq, fikrini ifadə etməklə yanaşı, həmçinin bir ömrün hesabatı, bir insanın mənəvi dünyasının aynasıdır.

Gəncədə yaşayıb-yaradan tanınmış yazıçı-jurnalist, istedadlı publisist, 3 roman müəllifi Rəfiqə Sadıqovanın "Sözüm sizədir" kitabını vərəqləyəndə adamı ilk növbədə bu düşüncələr müşayiət edir. Kitabın adı da elə-belə seçilməyib. Burada müəllifin sözü kiməsə ünvanlanmış adi müraciət deyil, cəmiyyətə, ailəyə, valideynə, övlada, bir sözlə, insanlığın taleyinə ünvanlanmış mənəvi çağırışdır.

Mənəviyyat haqqında danışmaq asandır. Çətin olan onu yaşamaqdır. İnsanın cibində nə qədər pulu, evində nə qədər var-dövləti olursa-olsun, ürəyində mərhəmət yoxdursa, deməli, nəyisə çoxdan itirib. Gözəl bilir və anlayırıq ki, insanın varlılığı mal-mülkdən çox mənəvi zənginliyi ilə ölçülür. Rəfiqə Sadıqova kitabında da məhz həmin həqiqət müxtəlif həyat hadisələri, müşahidələri və düşündürücü qeydləri vasitəsilə oxucunun diqqətinə çatdırıb.

Kitabın əsas məziyyəti ondadır ki, müəllif böyük mənəvi problemləri kiçik həyat hadisələrinin içərisində axtarır. O, uzaqlara getmir, insanın özünə, ailəsinə, gündəlik davranışına baxır. Axı mənəviyyat elə buradan başlayır. Anaya münasibətdən, atanın zəhmətinə verilən qiymətdən, övladın tərbiyəsindən, qonşuya göstərilən ehtiramdan, halal çörəyin qədrini bilməkdən...

Rəfiqə xanımın anasına həsr etdiyi "Ana" adlı elegiyası bu baxımdan xüsusi təsir gücünə malikdir. Ana mövzusu Azərbaycan insanının mənəvi yaddaşında həmişə müqəddəs yer tutub. Ana haqqında danışanda insanın səsi istər-istəməz dəyişir. Çünki ana təkcə dünyaya gətirən deyil, həm də insanın ilk müəllimi, ilk mənəviyyat məktəbidir. Onun duası, qayğısı, zəhməti övladın ömrü boyu daşıdığı mənəvi sərvətdir.

Ananın qədrini bilmək üçün onun dünyadan köçməsini gözləmək lazım deyil. O, sağ ikən başının üstündə olmaq, səsini eşitmək, bir xoş sözünü əsirgəməmək lazımdır. Müəllifin "Yəqin əlim dəyib..." essesində toxunduğu məsələ də elə budur. Övladının bir telefon zənginə belə möhtac qalan ana, zəng edəndə isə "qısa danış, vaxtım azdır" cavabını eşidən ana... Adam bu mənzərəni oxuyanda istər-istəməz düşünür: Görəsən, insan nə vaxt bu qədər dəyişir? Onu böyüdən, gecələr yuxusuz qalan, bir tikə çörəyini onunla bölən ananın səsi niyə bir gün ona artıq vaxt itkisi kimi görünür?

Bax, mənəvi aşınma elə buradan başlayır. İnsan anasının qədrini bilmirsə, başqasının qədrini necə biləcək? Öz kökünü unudan ağacın budaqları nə qədər yaşıllaşa bilər?

Müəllifin diqqət yetirdiyi digər mühüm məsələ ailə və övlad tərbiyəsidir. "Sonrakı peşmanlıq" essesində Rəfiqə Sadıqova valideynlərin övladlarının təlim-tərbiyəsinə münasibətini ciddi şəkildə gündəmə gətirir. Bu gün valideynlərin çoxu övladının gələcəyi üçün çalışdığını deyir. Amma gələcək yalnız yaxşı geyim, bahalı telefon, rahat ev və yüksək təhsil haqqı ilə qurulmur. Uşağa ayrılan vaxt, onunla aparılan söhbət, davranışına göstərilən diqqət, mənəvi tərbiyəsinə verilən önəm də gələcəyin bir parçasıdır.

Uşaq valideynin dediyindən çox etdiyini öyrənir. Ona dürüst olmağı söyləyib özümüz yalan danışırıqsa, böyüyə hörmətə öyrədib özümüz böyüklərə ehtiram göstərmiriksə, hansı tərbiyədən danışırıq? Övladın əlinə kitab verməklə iş bitmir, onun qəlbinə də insanlıq toxumu səpmək lazımdır.



Müəllifin narahatlığı da məhz budur: bugünkü laqeydlik sabahın böyük peşmanlığına çevrilə bilər. Uşağın tərbiyəsi sabaha saxlanılan iş deyil. Çünki zamanın geri dönmək kimi bir xasiyyəti yoxdur. Bu gün göstərilməyən diqqəti sabah hansı var-dövlətlə əvəz etmək mümkündür?

"İctimai qınaq işə yarayırmı?!" essesində müəllif cəmiyyətin mənəvi həyatında mühüm rol oynayan ictimai qınaq institutunu gündəmə gətirir. Rəfiqə Sadıqova ənənəvi dəyərlərlə müasir düşüncə arasında yaranan ziddiyyətlərə diqqət çəkir. Onun qənaətinə görə, ictimai qınağın zəifləməsi, insanların başqasının davranışına qarşı məsuliyyətsiz və laqeyd münasibəti cəmiyyətin mənəvi tarazlığını poza bilər. Əlbəttə, ictimai qınaq təhqirə, alçaltmağa, insanın şəxsi hüquqlarına müdaxiləyə çevrilməməlidir. Ancaq milli-mənəvi dəyərləri, ictimai ədəb-ərkanı qorumaq naminə sağlam ictimai mövqenin olması vacibdir. Müəllifin toxunduğu əsas məsələ də budur: cəmiyyət öz dəyərlərinə sahib çıxmasa, onları kim qoruyacaq? Bu yazı oxucunu həm öz davranışına, həm də yaşadığı mühitə münasibətinə görə düşünməyə çağırır.

R.Sadıqovanın "Ayırma bizi" hekayəsi təbiətin dili ilə insan duyğularını ifadə etməsi baxımından diqqətəlayiqdir. Müəllif Kəpəz dağını və buludu təkcə təbiət mənzərəsinin iki ünsürü kimi deyil, biri-birinə qovuşmaq, biri-birindən ayrılmamaq istəyən iki sevən varlıq kimi canlandırır. Bu obrazlı yanaşma hekayəyə poetik ruh, romantik ovqat və özünəməxsus bədii çalar verir.

Əsərin başlıca məziyyəti məhəbbəti adi hiss çərçivəsindən çıxararaq sədaqət, bağlılıq və ayrılığa üsyan mənasına yüksəltməsidir. Kəpəzlə buludun münasibətində insan sevgisinin də izlərini görürük. Sanki müəllif demək istəyir ki, həqiqi məhəbbət məsafə tanımır, ayrılığa boyun əymir, zamanın sınağından keçərək yaşayır. Hekayənin təbiət təsvirləri ilə mənəvi duyğuları birləşdirməsi oxucuda həm estetik zövq, həm də duyğusal düşüncə yaradır. Bu əsər bir daha göstərir ki, sevgi yalnız iki insanın qəlbində yaşanan hiss deyil; o, bəzən bir dağın zirvəsində, bir buludun kölgəsində, təbiətin əbədi ahəngində də özünə yuva sala bilir.



"Sözüm sizədir" kitabında milli-mənəvi dəyərlərimizə münasibət də xüsusi yer tutur. Xalqımızın əsrlər boyu yaşatdığı adət-ənənələr, ailə bağları, böyüyə hörmət, kiçiyə qayğı, mərhəmət, dürüstlük və ədalət müəllifin diqqət mərkəzindədir. Rəfiqə Sadıqova bu dəyərləri təkcə keçmişin yadigarı kimi təqdim etmir. Onların bugünkü həyatımızda da yaşamasının vacibliyini vurğulayır.

Axı ənənə o demək deyil ki, biz keçmişdə qalaq. Ənənə kökdür, gələcək isə budaq. Kökü qorumaqla budağı böyütmək lazımdır. Müasir həyatın yeniliklərindən bəhrələnmək, dünyaya açılmaq, inkişaf etmək vacibdir. Ancaq bütün bunları edərkən öz mənəvi kimliyimizi itirməməliyik. Dilimiz, ailə dəyərlərimiz, böyüklərimizin bizə miras qoyduğu əxlaq normaları bizim kimliyimizin ayrılmaz hissəsidir.

Müəllifin "Dəmir yumruq" essesi Ermənistanda keçirilən Avropa çempionatının açılış mərasimində Azərbaycan bayrağının yandırılması vandalizminə həsr olunub. Müəllif bu hadisəni, sadəcə, idman tədbiri çərçivəsində baş vermiş xoşagəlməz insident kimi deyil, milli rəmzlərimizə, dövlətçiliyimizə və xalqımızın mənəvi dəyərlərinə qarşı yönəlmiş təxribat kimi təqdim edir.

Essedə bayrağın yandırılması barbarlığın, dözümsüzlüyün və siyasi nifrətin təzahürü kimi qiymətləndirilir. Müəllif oxucunun diqqətini bir mühüm həqiqətə yönəldir: bayraq yalnız bir dövlətin atributu deyil, xalqın tarixi, şərəfi, müstəqilliyi və milli qürurunun rəmzidir. Ona qarşı hörmətsizlik bütöv bir xalqa qarşı hörmətsizlikdir.

"Dəmir yumruq" adının özü də rəmzi məna daşıyır. Bu ifadə Azərbaycan xalqının milli birliyini, iradəsini, dövlətçilik əzmini və özünə qarşı yönələn təxribatlara qətiyyətli münasibətini ifadə edir. Rəfiqə Sadıqova baş verən hadisəni cəmiyyətə təqdim etməklə oxucuda milli təəssübkeşlik, vətənpərvərlik və dövlət rəmzlərinə ehtiram hisslərini gücləndirməyə çalışır. Əsərin əsas mesajı aydındır: Bayrağa hörmət xalqa hörmətdir, milli qürurun müdafiəsi isə hər bir vətəndaşın mənəvi borcudur.

Kitabın diqqətçəkən xüsusiyyətlərindən biri də müəllifin hadisələrə biganə qalmamasıdır. Rəfiqə xanım gördüyünü, eşitdiyini, müşahidə etdiyini qələmə alır. Onun yazılarında süni nəsihətçilikdən daha çox həyatın özünün danışan dili duyulur. Jurnalist təcrübəsi və müşahidəsi də burada özünü göstərir. Çünki jurnalist cəmiyyətin nəbzini tutmağı bacarmalıdır. O, yalnız baş verən hadisə ilə bərabər onun arxasında dayanan insan taleyini də görməlidir.

Bu baxımdan "Sözüm sizədir" təkcə esselər və hekayələr toplusu deyil, həm də mənəvi düşüncəyə çağırışdır. Müəllif oxucunu kimisə mühakimə etməyə yox, ilk növbədə özünə nəzər salmağa səsləyir. Özümüzə sual verək: Anamızın qədrini bilirikmi? Övladımıza nəyi miras qoyuruq? Sözümüzlə əməlimiz bir-birinə uyğundurmu? Başqasının haqqına hörmət edirikmi? İnsan adını daşımağa nə dərəcədə layiqik?

Mənə elə gəlir ki, kitabın ən mühüm mənəvi qayəsi də bu suallarda gizlənir. Çünki cəmiyyətin mənəvi sağlamlığı ayrı-ayrı insanların vicdanından başlayır. Ailə sağlamdırsa, cəmiyyətin də sağlamlaşmasına zəmin yaranır. Valideyn övladına düzgün tərbiyə verirsə, gələcəyin insanını yetişdirir. İnsan öz vicdanını qoruyursa, yaşadığı mühitə də yaxşılıq gətirir.

Yazıçı-jurnalist R.Sadıqovanın qələmində sözün bir başqa məsuliyyəti də var: o, oxucunu düşündürür. Böyük həqiqətləri bəzən uzun-uzadı izah etməyə ehtiyac yoxdur. Bir ana zəngi, bir övlad laqeydliyi, bir ailə söhbəti, bir unudulmuş mənəvi borc kifayət edir ki, insan öz həyatına başqa gözlə baxsın. Müəllifin lakonik, anlaşıqlı və səmimi ifadə tərzi də bu təsiri gücləndirir.

Sonda bir həqiqəti xüsusi vurğulamaq istəyirəm: mənəvi dəyərləri qorumaq onları xatırlamaqla yanaşı gündəlik həyatımızda da yaşatmaqdır.

Anaya hörmət, ataya ehtiram, övlada qayğı, dostluğa sədaqət, halal zəhmətə inam, insan haqqına sayğı - bunları kitab səhifələrində qalan anlayışlar kimi təqdim etməməliyik. Bunlar bizim həyat tərzimizə çevrilməlidir.

Rəfiqə xanımın "Sözüm sizədir" kitabı məhz bu həqiqəti xatırladır. Sanki müəllif hər birimizə üz tutaraq deyir: özünüzü itirməyin, insanlığınızı qoruyun, mənəvi köklərinizdən ayrılmayın. Çünki insanın ən böyük sərvəti ürəyində gəzdirdiyi yaxşılıq, ən qiymətli mirası isə arxasında qoyduğu təmiz addır.

Sözün də, insanın da qiyməti var. Amma sözün qiyməti onu deyənin, insanın qiyməti isə onu necə yaşadığının hesabına yaranır. Mənəviyyatını qoruyan insan heç vaxt kasıb deyil. Çünki onun var-dövləti vicdanıdır, sərvəti insanlığıdır.

Və bu dünyada insanın özündən sonra qoyub getdiyi ən böyük əsər də elə budur: yaxşı ad, xeyirxah əməl və unudulmayan insanlıq. Rəfiqə Sadıqova da sağlığında bu əsərini yaradıb.



Sevil AZADQIZI
Filoloq, AJB, AYB-nin üzvü

DÖRD ŞEİR BİR BAXIŞDA

TƏLƏSDİ BU PAYIZ

Buludların budaqları sallanıb,
Yarpaqların yanaqları xallanıb...
Zirvələr də ada-budda çallanıb -
Tələsdi bu payız, yaman tələsdi...

Yığıb qurtarmamış qarışqa dənin,
Ayağı açıldı dumanın, çənin...
Üzündə ümidlər gülməmiş sənin -
Tələsdi bu payız, yaman tələsdi...

Yola çevrilməmiş salınan cığır,
Tökülən ləçəklər könüllər sıxır...
Hər küncdən, bucaqdan bir payız çıxır -
Tələsdi bu payız, yaman tələsdi...

Saralan vərəqə çevrilir dünən,
Yalnız xatirədi geriyə dönən.
Bir də ürəyimdi hələlik dinən -
Tələsdi bu payız, yaman tələsdi...

Şeirin bədii təhlili:

Əbülfət Mədətoğlunun bu poetik nümunəsi ilk baxışdan klassik bir təbiət təsviri kimi görünsə də, əslində insan ömrünün, qəfil ötən zamanın və yarımçıq qalmış ümidlərin dərin fəlsəfi mənzərəsidir. Müəllif fəsillərin dəyişməsini sadəcə iqlim hadisəsi kimi deyil, birbaşa insan ruhunun daxili sarsıntıları və tələtümləri ilə paralel şəkildə təqdim edir.

Şeirin bədii toxumasında diqqəti çəkən ilk məqam orijinal metaforalar və rəngarəng təbiət təsvirləridir. "Buludların budaqları sallanıb", "yarpaqların yanaqları xallanıb" kimi ifadələr həm güclü bədii təyindir, həm de səs ahəngi (alliterasiya) baxımından misralara xüsusi bir musiqililik qatır. Şair təbiəti canlı bir varlıq kimi canlandırır, lakin bu canlılıq sevinclə deyil, qəfil gələn payızın gətirdiyi bir tələş və həyəcanla yüklənib.

Əsərin əsas fəlsəfi yükünü "yarımçıqlıq" və "hazırlıqsızlıq" motivi təşkil edir. Qarışqanın dənini yığıb qurtarmaması, salınan cığırın hələ yola çevrilə bilməməsi əslində insanın bu dünyadakı reallaşdıra bilmədiyi arzularına, vaxtsız gələn itkilərə və qocalığa işarədir. İnsan sanki ömrün bu mərhələsinə hələ hazır deyil, "üzündə ümidlər gülməmiş" ömrün payızı qapını kəsir.

Burada zamanın amansızlığı fəsil fonunda ustalıqla ümumiləşdirilir. Son bənddə isə şeir tamamilə fərdi-psixoloji müstəviyə keçir. "Saralan vərəqə çevrilir dünən" misrası keçmişin, xatirələrin əlçatmazlığını və zamanın hər şeyi öz ağuşuna alıb apardığını ifadə edir. Bu qarmaqarışıq və tələsik dünyada hələ də "dinən", müqavimət göstərən tək bir nəsnə qalır - o da şairin ürəyidir.

Ritmik şəkildə təkrarlanan "Tələsdi bu payız, yaman tələsdi..." rədif-misrası isə həm şeirin daxili tempini tənzimləyir, həm də oxucunun qəlbində o qaçılmaz təəssüf hissini, vaxtın darlığı duyğusunu daha da dərinləşdirir. Yığcam şəkildə desək, bu şeir təbiətlə insan taleyinin bədiiləşmiş vəhdətidir və daxili musiqisi, səmimi pafosu ilə oxucunu öz fəlsəfi düşüncələrinə ortaq etməyi bacarır.

FİKİRLİ...

Vərəqləyə vərəqləyə yolları,
Gedirəm mən üzü Dana, fikirli...

Sıxıb məni təkliyimin qolları,
Bənd eləyir, hər bir ana, fikirli...

Söz tapmıram sığışmaya sətirə,
Kömək etmir xəyal, nə də xatirə.
Bir göz cəza, bir göz isə itirə,
Ya da var tək məni ana, fikirli.

Qanadları yorulubdu ruhumun,
Dizlərinə su gəlibdi yuxumun...
Varmı görən daşa dəyən oxumun,
Günahkarı məni sana, fikirli?!.

Məmnun belə olmasam da, bu haldan,
Ömrüm boyu yayınmadım sualdan.
İmtahanda həsrətdən, ya vüsaldan,
Danışıram yana-yana, fikirli...

Şeirin bədii təhlili:

Əbülfət Mədətoğlunun bu şeiri insan ruhunun ən həssas və kədərli qatlarına toxunan, dərin emosional yükə malik bir fəlsəfi-librik nümunədir. Şeirin əsas mövzusu insanın təkliklə mübarizəsi, daxili tələtümləri və həyatın sınaqları qarşısındakı çarəsizliyidir.

Müəllif ömür yolunu "fikirli" bir səyahət kimi qələmə alır. Əsas ideya isə insanın nə qədər çətinliklərlə üzləşsə də, öz taleyini və yaşantılarını daxili bir dözümlə qəbul etməsidir. Şeirdə poetik dillə ifadə olunmuş güclü metaforalar bədii təsir gücünü artırır. "Təkliyimin qolları", "ruhumun yorulmuş qanadları" və "yuxunun dizinə su gəlməsi" kimi ifadələr şairin psixoloji vəziyyətini, mənəvi tükənişini və ümidsizliyini canlandıran uğurlu bədii təsvir vasitələridir.

Lirik qəhrəman xəyal və xatirələrin belə kömək edə bilmədiyi bir boşluqdadır. O, həm həsrətin, həm də vüsalın imtahanından keçir və bu prosesdə "yana-yana" danışmaqla öz daxili ağrısını oxucuya ötürür.

Şeirin dili axıcı, xalq dilinə yaxın və səmimidir. Müəllif "yana-yana", "vərəqləyə-vərəqləyə" kimi təkrarlarla daxili dinamikanı və zamanın ləng, ağrılı axışını vurğulayır.

Qafiyə quruluşu və rədif kimi istifadə olunan "fikirli" sözü şeir boyu hakim olan kədərli və düşüncəli ovqatı tamamlayır.

QOCALIB

Sərhəd bilmir dalğalanan gümanım,
Ümidlərim dözüb, taxtda qocalıb...
Lövbər salıb yolum üstə dumanın -
Kipriyimdə tay şaxta da qocalıb...

Gör nə qədər dən ələnib, dən düşüb,
Bircə-bircə dənələnib, tən düşüb!..
Bilməmisən, bəxtinə də mən düşüb -
Mənlə birgə, elə bəxt də qocalıb!

Vaxtsız ötüb neçə saat, neçə an,
Heç xəbərim olmayıbdı saatdan...
Ulu sevgi gözləyirdim o vaxtdan -
Bir də gördüm, elə vaxt da qocalıb...

Bulanıbdı ürəkdə nəm, gözdə nəm,
Son ümiddi boynubükük gözləməm!
Ay Əbülfət, sən də elə söz denən -
Deməsinlər: "Bu da saxta... qocalıb!"

Şeirin bədii təhlili:

Əbülfət Mədətoğlunun "Qocalıb" şeiri, ömrün payızını yaşayan bir insanın daxili sarsıntılarını, itirilmiş zamanı və boşa çıxmış ümidləri bədii şəkildə ifadə edən təsirli bir lirik əsərdir.

Şeirin əsas mövzusu zamanın amansızlığı, qocalıq və bəxtdən giley, ideyası isə insanın hər şeyin fövqündə dayanan tale və vaxt qarşısındakı çarəsizliyidir. Şeir klassik qoşma formasında (hər bənd 4 misra, heca ölçüsü 11) yazılmışdır. Bu da şeirə doğma, xalq yaradıcılığına yaxın bir axıcılıq və musiqililik qazandırır.

Əsərdə "qocalıb" sözü rədif kimi çıxış edərək hər bəndin sonunda təkrar olunur və şeirin ümumi kədərli notunu, qocalıq harmoniyasını gücləndirir. "Taxtda, şaxta, bəxt də, vaxt da, saxta" sözləri isə güclü zəngin qafiyələr (təbrik) yaradır. Müəllif hisslərini sadə dillə deyil, dərin məfhumları canlandıraraq - metaforalar vasitəsilə çatdırır: "Ümidlərin taxtda qocalması" və "vaxtın qocalması" - Zamanın və ümidin fərdiləşdirilməsi (təşbeh, metafora) poetik təfəkkürün uğurlu nümunəsidir.

"Kiprikdə tay şaxtanın qocalması" - Göz yaşlarının və daxili soyuqluğun göz qapaqlarında dondiyunu vizual olaraq göz önünə gətirir. "Dən ələnməsi" - Həm saçа düşən dən (ağlıq), həm də ömür payının dən-dən (bircə-bircə) tükənməsi kimi poetik təkrar və cinas elementləri ilə verilib. Şeirdə fəlsəfi bir təəssüf hissi hakimdir. İnsan təkcə özünün deyil, onunla bərabər bəxtin, zamanın və ulu sevginin də qocaldığını fərq edir. Bu, fərdi kədəri ümumbəşəri bir həqiqətə çevirir.

Son bənddə müəllifin özünə ("Ay Əbülfət") müraciəti, klassik aşıq şair ənənəsinə (möhürləməyə) əsaslanır. Şair yaşlansa da, yaradıcılığının, sözünün təravətli qalmasını istəyir; sənətdə "saxtalığa" və ruhən qocalmağa üsyan edir.

TƏNHALIĞIMIN ŞEİR

Köklənmişəm xatirələr üstündə,
Yenə köhnə havamızı çalıram...
Çox şükür ki, itməyibdi yaddaşım -
Nə yaxşı ki, bu havada qalıram.

Gör nə qədər zaman keçib aradan -
Seçməmişik hələ ağı qaradan.
Bu ömrü də bizə verib Yaradan -
Onu da ki, bərkə-boşa salıram.

Büdrəsə də gah ayağım, gah əlim,
Təki sən de, qaya çapım, dağ dəlim.
Gözlədiyim bir Ümiddi, bir Ölüm -
Arada da xəyallara dalıram.

Hər kəsdə var Yaradana bir Xitab,
Dil deməsə, qalacaqdı sirr xitab.
Tənhalığım - özü qalın bir kitab -
Mən ləzzəti tənhalıqdan alıram.

Şeirin bədii təhlili:

Əbülfət Mədətoğlunun "Tənhalığımın şeiri" nümunəsi insanın yaşlandıqca, ömrün ixtiyar çağında öz daxili dünyası ilə baş-başa qalmasını, keçmişi və bu günü müdrikliklə safçürük etməsini poetik dillə dərindən ifadə edən səmimi bir əsərdir. Şair bu şeirdə tənhalığı bir cəza və ya qorxulu təcrid kimi deyil, insanın özünü kəşf etdiyi zəngin və dinc bir mənəvi sığınacaq kimi təqdim edir. Şeirin ilk bəndi poetik qəhrəmanın psixoloji vəziyyətini dərhal aydınlaşdırır:

"Köklənmişəm xatirələr üstündə,
Yenə köhnə havamızı çalıram..."

Burada şair keçmişi sadəcə xatırlamır, sanki bir musiqi aləti kimi onun ruhuna "köklənir". Keçmişin ritmi, "köhnə hava" onun indiki zamandakı tənhalığına rəng qatır. Müəllifin yaddaşının itməməsinə görə şükür etməsi əslində onun mənəvi köklərinə, öz "mən"inə sadiqliyinin göstəricisidir. İnsan yaddaşı varsa, tənha olsa belə, heç vaxt tək deyil.

İkinci bənddə müəllif zamanın sürətli axınından və insan ömrünün enişli-yoxuşlu yollarından bəhs edir:

"Gör nə qədər zaman keçib aradan -
Seçməmişik hələ ağı qaradan".

Şair burada bəşəri bir həqiqətə toxunur: ömür elə tez keçir ki, insan bəzən həyatın tam mahiyyətini, onun xeyrini və şərini (ağı və qaranı) axıra qədər dərk etməyə macal tapmır. Bununla belə, taleyin gətirdiyi çətinliklərə (bərkə-boşa) üsyan etmir, çünki bu ömrü Allahın bir töhfəsi, sınağı kimi qəbul edir.

Üçüncü bənddə insanın fiziki zəifliyi ilə ruhunun yenilməz gücü qarşı-qarşıya qoyulur:

"Büdrəsə də gah ayağım, gah əlim,
Təki sən de, qaya çapım, dağ dəlim".

İnsanın bədəni qocalır, əli-ayağı büdrəyir, lakin onun içindəki sevgi və fədakarlıq hissi o qədər canlıdır ki, doğma bir səs üçün Xosrov və Fərhad kimi dağları yarmağa hazırdır. Bu bəndin son iki misrası ömrün sonunun real mənzərəsidir:

"Gözlədiyim bir Ümiddi, bir Ölüm -
Arada da xəyallara dalıram".

Burada ümid və ölüm yanaşı durur. Qəhrəman gələcəyə ümidlə baxır, lakin qaçılmaz son olan ölümü də soyuqqanlılıqla, müdrikcəsinə gözləyir. Bu iki böyük məfhumun arasında qalan boşluğu isə xəyallarla doldurur.

Şeirin finalı əsərin fəlsəfi zirvəsidir. Şair qeyd edir ki, hər bir insanın içində Yaradana demək istədiyi bir sözü, bir xitabı var. Əgər dil bu sirri açmasaydı, o, insanın daxilində gizli bir dərd və ya uca bir sirr olaraq qalacaqdı.

Müəllif tənhalığı qalın bir kitaba bənzədir:

Tənhalığım - özü qalın bir kitab -
Mən ləzzəti tənhalıqdan alıram.

Kitab vərəqləndikcə yeni dünyalar açdığı kimi, tənhalıq da insanı öz daxili vərəqlərini oxumağa, özü ilə söhbət etməyə sövq edir. Şair bu tənhalıqdan əzab çəkmir, əksinə, ondan mənəvi bir həzz ("ləzzət") alır.

"Ağı qaradan seçmək", "bərkə-boşa salmaq" kimi xalq deyimləri və frazeoloji birləşmələr şeirin dilini təbii və xalqa yaxın edir. "Tənhalığın qalın bir kitaba" bənzədilməsi əsərin ən uğurlu metaforalarından biridir. Şeirdə kədər var, amma bu qüssə ümidsiz və depressiv deyil. Bu, həyatı olduğu kimi qəbul edən, keçmişə minnətdarlıqla baxan mütəfəkkir bir insanın sakit, həzin səsidir.

Əbülfət Mədətoğlunun bu poeziya nümunəsi insanın öz ruhu ilə barışıq instinktini bədii şəkildə ifadə edir. Şair sübut edir ki, xatirələri zəngin olan və Yaradana inanan insan heç vaxt tənha və kasıb ola bilməz.

"TikTok" platforması yenilənmiş "Ailə ayarları" funksiyasını təqdim edib

Adalet.az xəbər verir ki, bununla valideynlər öz hesablarını yeniyetmə övladlarının hesabları ilə əlaqələndirəcək, məxfilik parametrlərini idarə edə biləcəklər.

Yeniliklər arasında "Ailə parametrləri" funksiyasının imkanlarının genişləndirilməsi, müəllimlər üçün xüsusi bələdçinin hazırlanması, eləcə də süni intellekt (AI) tərəfindən yaradılan kontentin tanınması və kontent yaradıcılarının razılığı olmadan onların xarici görünüşündən istifadə edilməsinin qarşısını almağa yönəlmiş yeni texnologiyaların tətbiqi yer alır.

Yenilənmiş interfeys dörd əsas istiqaməti əhatə edir:

- Ekran vaxtı - Artıq valideynlər "Ailə ayarları" funksiyasından istifadə edərkən ilk növbədə yeniyetmənin "TikTok"da keçirdiyi orta vaxt, gecə saatlarındakı aktivliyi və müəyyən edilmiş məhdudiyyətlər barədə məlumatları görə biləcək.

Bu məlumatlar əvvəllər əlçatan olsa da, son yeniləmələr sayəsində daha aydın və nəzərdən keçirilməsi asan formada təqdim olunur.

- Qarşılıqlı əlaqələr - Valideynlər yeniyetmənin qarşılıqlı əlaqədə olduğu hesabları, eləcə də blokladığı profilləri görə biləcək.

- Maraq dairəsi - Valideynlər yeniyetmənin hansı mövzulara və icmalara maraq göstərdiyini daha yaxşı anlayacaq.

- Paylaşımlar - Yeni bölmə valideynlərə yeniyetmənin həftə ərzində paylaşdığı açıq videoları və həmin videoların baxış sayını görməyə imkan verəcək.

Bildirilir ki, bu məlumatlar hər gün yenilənəcək. Valideynlərin rahatlığı üçün yenilənmiş "Ailə ayarları" funksiyası vebbrauzer vasitəsilə də əlçatan olacaq.

"Ailə ayarları" funksiyasının gələcək inkişafı çərçivəsində "TikTok" yeniyetmənin intihar və ya özünə zərər vermə mövzuları ilə bağlı materialları təkrarən axtarması halında valideynləri məlumatlandıracaq bildirişlər üzərində də işləyir.

Bildirişlə yanaşı, valideynlərə yaranmış vəziyyəti yeniyetmə ilə həssas şəkildə müzakirə etmək və ona dəstək təklif etmək yolları barədə tövsiyələr də təqdim olunacaq.

"TikTok", həmçinin kontent yaradıcılarına və ictimai şəxslərə xarici görünüşlərindən onların razılığı olmadan istifadə oluna bilən süni intellektlə yaradılmış məzmunu aşkar etməyə kömək edən "Likeness Detection" alətinin bütün dünyada mərhələli şəkildə tətbiq olunacağını elan edib.

Cəlil Məmmədquluzadənin ev muzeyində gördüklərimiz və eşitdiklərimiz

Bu günlər, şair dostlarım Rəfail İncəyurd və İlham Qazaxlı ilə birlikdə, görkəmli ədib- yazıçı, dramaturq, jurnalist, ictimai xadim, tənqidi realist ədəbi cərəyanın, ilk mənzum alleqorik dram əsərinin banisi, yeni tipli ictimai satiranın yaradıcısı, "Molla Nəsrəddin" jurnalının, ədəbi məktəbinin banisi və ideya rəhbəri, Azərbaycan ədəbiyyatında kiçik hekayənin böyük ustadı Cəlilm Məmmədquluzadənin ev muzeyində olduq. Əslində oxuya-oxuya böyüdüyümüz, bu gün də aktuallıqdan düşməyən "Ölülər", "Danabaş kəndinin əhvalatları", "Anamın kitabı", "Poçt qutusu", "Kamança", "Qubanəli bəy", "Pirverdinin xoruzu" kimi və digər məşhur əsərləri ilə əbədiyyət qazanan Ədibin ev muzeyində olmaq və muzeyini ziyarət etmək ona olan sevgidən yaranmışdı. Paytaxtımızın qədimi mərkəz hissəsində, Süleyman Tağızadə küçəsindəki 56 nömrəli evin 3-cü mərtəbəsində yerləşən Ev muzeyinin pilləkənlərini qalxdıqca bizi bir həyacan bürüyürdü. Bir zamanlar bu böyük insanın qalxıb-endiyi pilləkənlərlə indi biz onun ruhunun görüşünə gedirdik. Pilləkən qəfəsində bizi ilk olaraq ədbin "Sizi deyib gəlmişəm" kəlamları yazılmış sözləri və divara işlənmiş şəkli qarşıladı. Bir anlıq dayanıb ədiblə xəyalən söhbət etdik. "Sizi deyib gəlmişəm ey mənim müsəlman qardaşlarım!" ifadəsi Mirzə Cəlilin 1906-cı ii, aprelin 7-də "Molla Nəsrəddin" jurnalının ilk nömrəsində dərc olunmuş məşhur "Sizi deyib gəlişəm" publisistik yazısının başlanğıcı idi. Bu yazı həm də "Molla Nəsrəddin" jurnalının ideya və məramını ifadə edən proqram xarakterli müraciət idi və məqsədi xalqı cəhalətdən, nadanlıqdan uzaqlaşmağa, milli oyanışa, ana dilinə hörmətə çağırmaq idi

Binanın 3-cü mərtəbəsində, muzey yerləşən mənzilin qapısı üzərində "Ev müzeyi təmirə dayandığı üçün işləmir" elanını oxuyanda çox mütəəssir olduq. Bu an qapı açıldı və bizi müzeyin əməkdaşlarından olan, gülərüz bir xanım qarşıladı. Gəlməyimizin məqsədini soruşduqdan sonra, muzeyin işləmədiyinə rəğmən bizi içəri dəvət etdi. Sanki muzey də, müzeyin əməkdaşları da ziyarətçilər üçün darıxmışdılar. Dəhlizdən içəri keçdik. Burada bizi ev muzeyinin direktoru Yeganə Məmmədova qarşıladı. Özümüzü təqdim edib, yazı-pozu adamları olduğumuzu bildirdikdən və bir qədər yaxından tanış olduqdan sonar nəzakətlə yer göstərdi. Muzeyin tarixindən ətraflı məlumat verdi: - Ev Muzeyi - Böyük Azərbaycan ədibi və publisisti Cəlil Məmmədquluzadənin 1920-1932-ci illərdə yaşayıb yaratdığı mənzildə yaradılmış ev muzeyidir. Muzey Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycan Respublikası hökumətinin 1978-ci ildə verdiyi qərarla yaradılmış, 1994 - cü il, dekabrın 28-də Ədibin anadan olmasının 125 illiyi ərəfəsində açılmışdır. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iştirak etmiş və geniş nitq söyləmişdir.

Muzeydə C. Məmmədquluzadə və digər mollanəsrəddinçilərin həyat və fəaliyyətini əks etdirən 3000-ə yaxın eksponat toplanmışdır. Onların 500 - ə yaxını muzeyin ekspozisiyasında nümayiş etdirilir.

Ekspozisiya sahəsi 185 kvm olan beş otaqda yerləşir. Muzeydə ədibin uşaqlıq, gənclik və təhsil illərini, məktəbdarlıq fəaliyyətini, ilk yaradıcılıq addımlarını və mühitini, onun ilk jurnalistik və ədəbi fəaliyyətini əks etdirən eksponatlar nümayiş etdirilir. Ədibin iş otağı, "Molla Nəsrəddin" jurnalının redaksiyası - xatirə otağında isə C. Məmmədquluzadənin həyat və fəaliyyətinin 1922-1932-ci illər dövrünü əks etdirən, habelə yaradıcılığının tədqiqi ilə bağlı materiallar toplanmışdır. Burada ədibin əsərlərinin dünyada yayılma arealını əks etdirən xəritə də tərtib olunmuşdur." Bu fikirləri səsləndirdikdən sonar Yeganə Məmmədova dərin bir köks ötürərək çıxışına ara verdi. Sonra kədər və təəssüf hissi ilə bildirdi ki, artıq 9 aydır, ev muzeyi təmir adı ilə ziyarətçilərin üzünə bağlanmışdır. Bu ilin mart ayında idarəmizdən bildirdilər ki, bina qəza vəziyyətində olduğu üçün əsaslı təmirə bağlanacaq. Tələb etdilər ki, muzeyin nümayiş olunan eksponatlarını təcili yığışdırın. Biz də eksponatları muzeyin ekspozisiya zalına yığışdırmışıq. İndi aradan 9 ay keçir, ancaq nə təmir başlayır, nə də muzey işləyir."



Bizi təəccüb və təəssüf hisləri bürümüşdü İcazə alıb eksponatlar yığılmış otaqlara keçdik. Bir vaxtlar böyük ədib tərəfindən istifadə edilən əşyalar - onun əşya yığdığı dolab və şkaf, samovar, kamança və digər əşyalar, oxuduğu kitablar, yazdığı əsərlər, şəkillər və digər eksponatlar qalaq-qalaq bir-birinin üzərinə yığılaraq, sanki imdad diləyirdi. Düçündük!... Görəsən böyük ədibimiz Mirzə Cəlil sağ olsaydı bu biganəliyə nə ad verərdi... Səlahiyyət sahiblərinə xatırlatmaq istədim ki, Ulu Öndərimiz Heydər Əliyev Azərbaycanda rəhbər vəzifədə olduğu bütün dövrlərdə xalqımızın görkəmli ədəbiyyat və incəsənət xadimlərinin, sənət adamlarının fəaliyyətinə yüksək dəyər vermis, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də Ümummilli liderin kursunu bütün sahələrdə olduğu kimi bu istiqamətdə də uğurla və yaradıcılıqla davam etdirir.

Təsadüfi deyil ki, görkəmli ədəbiyyat adamı və ictimai xadim Cəlil Məmmədquluzadənin anadan omasının 150 illik yubileynin keçirilməsi haqqında 2019-cu ildə Sərəncam imzalamışdır, Sərəncamda deyilir:" Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış və bütöv bir ədəbi məktəb formalaşdırmış qüdrətli şəxsiyyətdir. Vətəndaş yazıçının bədii nailiyyətlərlə zəngin irsində azərbaycançılıq məfkurəsi dövrün ictimai-siyasi fikrinin aparıcı amili kimi dolğun ifadəsini tapmışdır. Sənətkar həyat həqiqətlərini, ictimai mühiti hərtərəfli əks etdirən və bədii-estetik dəyər daşıyıcısına çevrilən rəngarəng obrazlar qalereyası yaratmışdır. Ana dilinin saflığı uğrunda daim mübarizə aparmış Cəlil Məmmədquluzadənin meydana gətirdiyi qiymətli dram və nəsr əsərləri, parlaq publisistika dərin humanist məzmuna malik olub, özündə milli və ümumbəşəri dəyərlərin vəhdətini ehtiva edir. Azərbaycanda və onun hüdudlarından kənarda geniş yayılaraq milli oyanışa, yeniləşmə hərəkatına yol açan və azadlıq ideyalarının inkişafına qüvvətli təsir göstərən "Molla Nəsrəddin" jurnalı məhz Mirzə Cəlil dühasının məhsuludur".

Güman edirik səsimiz bu işdə səlahiyyətləri olan aidiyyatı qurumların qulağına çatacaq, bu müşkül məsələ öz həllini tapacaq və böyük ədibimizin Ev muzeyi tezliklə təmir olunaraq, ziyarətçilərin üzünə açılacaqdı.

Ramiz GÖYÜŞ
Yazıçı-publisist
AYB-nin və AJB-nin üzvü

UĞURA APARAN YOL...

...Doğumdan başlanan yol, iməkləməkdən, ayağa qalxmaqdan və "Ağzı söz tutmaqdan" - danışmaqla davam edir. Ailə mühiti dünyaya göz açanın ilk məkanı olmaqla, daha sonralar qonşular, bağça, məktəb, təhsil - sənət öyrənməklə həyata atılan, zəhmətdən başlanan yol, hər hansı bir peşə sahibini cismən-ruhən yaşatdığı mühüm həyati atributların birincisi olduğu məlum məsələdir...

İnsan övladının, zəhmətə bağlılığı, ən ağır fiziki işdən belə çəkinməyib, həyatın-yaşamın qurulmasına - davamına xidmət etməyi sabahki uğurun ilkin açarıdı.

...Ölkəmizdə neftin iqtisadiyyatımızdı, sosial ehtiyacların ödənilməsi sahədə tutduğu yer - mövqe haqqında söz deməyə ehtiyac duymadan, bu böyük gəlir mənbəyində çalışanların neft sahəsinə ömür-həyat həsr edənlərin birindən - sadə zəhmət adamından söhbət açmaq imkanı yaranıb.

İsmayıllı rayonunun Qalacıq kəndində dünyaya göz açan Meyxoş Həmidov Abduləli oğlunun tərcümeyi halından danışmazdan əvvəl, onun yiyələndiyi, "könül" verdiyi neftçiliyindən yazmaq - söz demək özü bir könül xoşluğu yaradır.

Meyxoş Həmidov Bakı şəhərində, 18 saylı Texniki Peşə məktəbində, tikinti sahəsində təhsil alıb. Daha sonra Sibirə Baykal-Amur dəmir yolunun çəkilməsində, ilk zəhmət meydanının əməkçisi kimi işləyib, çalışıb, həyatın bərkindən-boşundan bu sərt təbiətli məkanda çıxıb...

Bir neçə il sonra, dönüb arxaya baxanda, yadına: - "Bura Vətəndir" nəğməsi düşüb. Təsirlənib, gəhərlənib, elə həmin andaca, - öz-özünə, - qayıdacağam deyə pıçıldayıb, nədənsə verdiyi bu mühüm tale yüklü qərarı pıçıltıyla deməsi, özünü də qane etməyib. Yumruğunu sıxıb və var səslə: - Qoynuna qayıdacam-dönəcəm, anam Azərbaycan!, - deyərək qışqırıb-haraylanıb... Sonra bu təbii kövrəlmədən doluxsunub: - burda mənim nə Arazım var, deyərək fikrinin qətiliyini özü təsdiqləyib.

...Meyxoş Həmidov onu gətirən qatarın pəncərəsindən təbiəti seyr edərkən, Sibir sözünün açmasını, vaxtı ilə bir tarixçidən eşitdiyi: - Sibir sözü "Su bir", "Bir su" mənbəyi birliyindən yarandığını söylədiyini xatırlayır və bu torpaqların qədim sakinlərinin, türk mənşəli olduğu barədə düşüncələrə dalır.

Uzun günlərin yol yorğunluğu, neft qoxulu Bakısına yaxınlaşdığını duyanda, sevindiyindən ürəyinin səsi qulağına düşür, ürəyində "Can ey Vətən, başına dönüm" fikiri-təsəllisi onun həyacanına son qoyur.

Bakıyla gözlərinin yaşarmasıyla görüşən Meyxoş Həmidov birbaşa, qoynunda doğulduğu, bənzərsiz təbiəti, cənnət misallı İsmayıllısına çatmağa tələsir. Bakıda "Şamaxinka" adıyla tanınan yerə gəlir. Yol boyu ötüb keçənlərə xəyalən dönür. Dağların qucağında məskunlaşan Qalacıq kəndi onun baba-nənə yurdudur. Meyxoş bu fikirlərin içindəykən maşının kəndə yaxınlaşdığını görür. Haçansa qəzetlərin birində oxuduğu "Kəndim" şeirindən bir bəndi xatırlayır:

Demə unutmuşam, səni atmışam,
Gələrəm-gedərəm ötüşərəm mən;
Ürəyimdə elə əzizlənmisən,
Tozlu yollarınla, öpüşərəm mən!

Meyxoş bu bəndlə ata yurdunu ən səmimi duyğularla yad edərək bir az toxtadı. M.Həmidov yurdunaelinə bütün varlığıyla bağlı olduğundan və bir neçə ilin ayrılıq həsrətindən sonra, kəndlərində ürək dolusu dincələndən sonra, sevdiyi - "dəlisi" olduğu Bakısına döndü. Bu dönüş onun zəhmətlə bağlı, əməklə ucalmağının bünövrəsini qoydu...

Meyxoş Abdulәlioğlunun neft sahəsində çalışmasını məsləhət görənlər, onu əsrarəngiz-möcüzəli Neft Daşlarına apardılar. İlk tanışlıqda, - bura elə mənim yerimdi, deyərək, gələcək arzularını quracağı - həyata keçirəcəyi məkana, bir könüldən - ilk görüşdən vuruldu. Həmin vaxtdan Neft Daşları şəhəriylə ilk tanışlıqdan otuz il ötürdü. İndi otuz il öncə ilk bünövrəsi qoyulmuş bu möhtəşəm məkanın 60-illik yaranma, - "doğum tarixi"-nin yübileyi keçirilirdi.



Ömrünün otuz ilini iş yerini dəyişmədən sərf etdiyi Neft Daşları şəhərinin 60-illik yaranma yubileyinin keçiriləcəyi tədbirdə, mükafatlandırılanlar arasında Meyxoş Həmidovun da adı vardı. Həmin təntənəli tədbirdə-görüşdə möhtərəm Prezidentimiz, xalqımızın Fateh sərkərdə övladı İlham Əliyev də iştirak edirdi. Görüşün rəsmi hissəsində cənab İlham Əliyev mükafatlananların əlini sıxır, yeni-yeni uğurlar arzulayırdı.



Fasiləsiz əməyiylə, ən çətin məqamlarda, dənizin "üsyan" etdiyi, dalğaların "Şahə qalxdığı" vaxtlarda, gecəli-gündüzlü əmək dostlarının yanında, çiyin-çiyinə dayanan Meyxoş Həmidovun da əməyi yüksək qiymətini aldı. Ölkə rəhbəri İ.Əliyev səmimiyyətlə, üz-gözünü bürüyən bir xoş təbəssümlə Meyxoş Həmidova "Tərəqqi" medalını təqdim edib, ona fədakar əməyinə görə minnətdarlığını bildirərək, bir daha təbrik etdi.

İnsanın zəhməti, gördüyü işi həqiqi qiymətini dövlət tərəfindən alanda, zəhmət adamının həyat eşqi, yaşam limiti bir daha yüksəlir. Bu mükafat Meyxoş bəyin həyatındaki ən əlamətdar günlərin biriydi.

Təbiətən səmimi-sədaqətli olan M.Həmidov bu mükafatdan sonra "Özünü necə hiss edirsən?" - sualımı təvazökarlıqla cavablandırdı: "Bu mükafat mənim adıma yazılsa da, üzvü olduğum kollektivin, idarə rəhbərliyinin birgə əməyinin bəhrəsidir.

İdarəmizin rəisi Balamirzə Ağarəhimovun, baş mühəndisi Sərxan Babaşovun, sex rəisimiz Elxan Atakişiyevin həmişə qayğı və diqqətini görmüşəm. Bu mükafatı almağım üçün rəhbərliyin-kollektivin təqdimat verilməsini dəstədiklərinə görə, mənim sevincimə şərikdirlər, sağ olsunlar. Mən də öz növbəmdə çalışacağam ki, rəhbərliyin, çiyin yoldaşlarımın etimadını doğruldum.

İndiyənə qədər bir iş yoldaşı kimi, dənizin şiltaqlığı-qəzəbi tutub, estakadaları yıxdığı-uçurduğu bir vaxtda adamların həlak olduğu zamanda belə, ziyanın az olması üçün geri çəkilməmişik. Belə ağır sınaqlarda bir-birimizi qorumuşuq, ətrafımızdakiların taleyinə biganə qalmamışıq. Uzun illər ərzində bir yerdə çalışdığım iş yoldaşlarımla elə doğmalaşmışıq ki, bunun bir adı, bir məmləkətin övladı olmağımızın nəticəsidir. Hər zaman bir-birimizin xeyir işində şadlanmış, yas-hüzn yerlərimizdə isə, həyan olmağa, təsəlli verməyə tələsmiş, iş yoldaşlarımızın qəminə şərik olmuşuq...

Meyxoş Həmidovun belə danişmağı, onun həyat sevgisindən yoğrulmuş dostcanlı olmağının, ömür lüğətində "özgənin dərdi" termini olmadığının nümunəsidir. Belə müsbət mənəvi dəyərlərin daşıyıcısı olmağı insanın saflığının əyani göstəricisi-təstiqidir. Həmsöhbətimi dinləməkdə davam edərkən ümumi rəhbərlikdən, başqa daha kimlərlə sıx ünsiyyəti olduğunu soruşuram. O, bir az xəyallanıb: "Dostluq etdiyim insanların, iş yoldaşlarımın hər biri dünya görmüş insan olublar. İlk ustam Allahyar Məmmədov olub. İndi haqq dünyasındadır. Allah rəhmət eyləsin. İş yoldaşlarım etdikləri köməkdən özləri də fərəhlənirlər. Belə insanlardan Məhəmməd İsmayılovun, Yusif Qurbanovun, Hacı Şirəliyevin adlarını çəkə bilərəm. Onların hər üçü artıq dünyalarını dəyişiblər. Allah hər üçünə qəni-qəni rəhmət eyləsin!

Hazırda bir yerdə Eldar Məmmədov, Nizami Səlimovla, Ramiz Şəfiyevlə eyni mədəndə çalışırıq. Onların hər biri Vətəncanlı, dost sevər insanlardır". Meyxoş Abdulәlioğlu ilə görüşüm-söhbətim çox məzmunlu olduğundan, onun idarə rəisindən başlayaraq, ünsiyyətdə olduğu bütün iş yoldaşlarından razılığının bir səbəbi də, özünün yaxşı insan, qədirbilən dost, iş yoldaşı olmağının əyani nümunəsidir.

...Hələ Bakıda Texniki-Peşə məktəbində oxuyarkən Xəzərlə elə bir dərin ünsiyyəti olmayan yazımızın qəhrəmanı vaxtı ilə Sibirdən qayıdarkən, sevimli Bakisına dönəndə də Xəzərlə elə bir yaxın xatirəsi olmamışdı. Sadəcə olaraq dəniz ətrafı bulvarda gəzərkən Xəzəri seyr etmişdi. Ancaq ağlına da gəlməzdi ki, Xəzər bir vaxt onun ömür yolunun dostu, həmdəmi olacaq və Meyxoş bəy də "Ömür dastanı"nı Xəzərin qoynunda yazacaq...

Bu yerdə ustad şairimiz C.Novruzun "Həyat, sən nə qəribəsən" misrasından təsirlənərək Meyxoş bəy "Həyat, sən nə gözəlsən!", - deyir.

Bu lirik tonlu yazımda M.Həmidovun həyat-ömür yoluna, - qismən də olsa, - işıq saldım. Əmək qəhrəmanıyla söhbətimdə daha çox dinləməyə - həmsöhbətimi öyrənməyə, onun ürək sözlərini dinləməyə köklənmişdim...

Arabir çıxdığım haşiyələr isə bir eloğlumun insan kimi qazandığı hörmətini açıqlamağa yönələn lövhələrlə, bir halal zəhmət adamının bədii portretini sözlə yaratmağa çalışdım. Elə bilirəm ki, söhbətimiz səmimiyyət ruhunda oldu. Və bu yazımızın da adı, yaşantlarıımızdan doğuldu: - Uğura aparan yol, - yolun aydın olsun eloğlu...

Əjdər ŞİRİNBƏYLİ,
Baki-Qalacıq-Baki.

"Qədim tariximizin və mədəni irsimizin canlı şahidi - Avey mağaraları"

Azərbaycan qədim tarixi-mədəniyyət abidələri ilə zəngin olan bir ölkədir. Əgər kitablar tarixin yazılı yaddaşıdırsa, abidələr tariximizin daş yaddaşıdır. Tarixi-mədəniyyət abidələri dedikdə, biz nələri yada salırıq? Alimlər elmi araşdırmalar aparanda onları iki aspektdə öyrənirlər: Yeraltı tarixi abidələr və yerüstü abidələr. Yeraltı qədim abidələr dedikdə - mağaralar, kurqanlar, qəbirlər və s., yerüstü abidələr dedikdə isə məişət tikilіləri, qalalar, məscidlər, kümbəzlər, körpülər və s. keçmişin yadigarları yada düşür.

Zaman keçdikcə məhsuldar qüvvələrin inkişafı və inşaat texnikasının təkmilləşməsi nəticəsində süni mağaralar qazma tipli evlərlə əvəz olunmuşdur. Memarlıq sənətinin inkişafı mağaraların ömrünə son qoydu, mağaralara ehtiyac azaldı. Lakin, binalar çoxalsa da, mağaralar gözdən düşmədi, əksinə, onlar maddi-mədəniyyət abidələri kimi diqqəti daha çox cəlb etməyə başladılar.

Azərbaycan ərazisi təbiətinə görə çox zəngin və gözəl iqlimə malik olduğu üçün burada hələ çox qədim zamanlarda insanlar məskən salmışlar. Tarixə nəzər salsaq görərik ki, Azərbaycan təkcə öz iqtisadiyyatı ilə deyil, həm də mədəniyyət sahəsindəki nailiyyətləri ilə dünyada tanınıb. Tarixi keçmişimizi öyrənməklə biz öz xalqımızın, qədim dövlətlərimizin dünya tarixindəki yerini və rolunu müəyyən edə bilərik. Bunun üçün arxeologiya elminin rolu daha böyükdür.

Arxeologiya elminin ən əsas vəzifələrindən biri ibtidai insanların meydana gəlməsi, inkişaf etməsi və formalaşması tarixinin öyrənilməsidir. Arxeologiya elmi insanlığın uzaq keçmişini maddi mədəniyyət qalıqları vasitəsilə öyrənir. Arxeoloji abidələr və qədim əşyalar əsas arxeoloji mənbələr olub tarixi proseslərin araşdırılmasında mühüm rol oynayır.

Uzaq keçmişin tədqiqində ən mühüm mənbə arxeoloji tapıntılar hesab olunur. Arxeoloji mənbələr əsasında ilk ibtidai insanların meydana gəlməsi, inkişaf etməsi və formalaşması tarixini dəqiq öyrənmək olur. Məhs buna görə də arxeologiya elmi insanın uzaq keçmişini maddi mədəniyyət qalıqları vasitəsilə tədqiq edir .

Arxeoloqlar ibtidai insan məskənləri olan mağaraları, qədim ibadətgahları, qayalar üzərində cızma üsulu ilə və ya ox ilə işlənmiş təsvirləri tədqiq edərkən qiymətli məlumat toplayır. Bu təsvirlər daş dövründən başlayaraq müxtəlif vaxtlarda insanlar tərəfindən həkk edilmişdir

Bəşər sivilizasiyasının ilkinliyini bu gün də sinəsində qoruyub saxlayan çoxlu sayda tarixi abidələr, maddi əsaslar var ki, onlardan biri də mağaralardır.

Mağaralar yer altında yaranan oyuqlardır. Mağaraları aşkar etmək çətindir. Onları çox vaxt görmək və ya müəyyən etmək mümkün olmur. Mağaraların girişi kiçik olur. Bəzən mağaralar elə balaca olur ki, içinə yalnız bir uşaq yerləşər. Elə mağara da vardır ki, böyük, quru bir otaqdan ibarətdir. Azərbaycanın zəngin və qədim təbiəti onun ərazisində olan coxsaylı mağaraların mövcudluğu ilə tanınır. Bu mağaralar tarix boyu insanların məskəni, dini ibadət yerləri və təbiət hadisələrinin təsirlərindən qorunmaq üçün istifadə olunmuşdur .

Avey dağ mağaraları da qədim insan məskənlərindən biri olub, daş dövründən xəbər verir. İbtidai insanlar ilk sığınacağı sayılan bu mağaralarda yaşamış, əmək fəaliyyəti ilə məşğul olmuşlar. Həmçinin belə mağaralar vəhşi heyvanlardan, sərt iqlimdən, təbii fəlakətlərdən qorunmaq üçün bir məskən olmuşdur. Bütün bunlardan belə bir nəticəyə gəlmək olur ki, mağaralar insanların həyatda qalmasında, artıb, çoxalıb, inkişaf etməsində, onların təkamül prosesində mühüm rol oynamışdır.

Avey dağı Azərbaycanın Qazax rayonu ərazisində yerləşən Kiçik Qafqaz dağlarından biri olan dağ silsiləsidir. Daş Salahlı kəndindən 12 km uzaqlıqda yerləşir. Avey dağında qədim məbədlər, 30-a qədər süni mağaralar aşkar edilmişdir. Belə mağaralar ibtidai insanların ilk sığınacaq yerləri-evləri olmuşdur.

Belə mağaralardan biri də Avey dağının ətəyində yerləşən Damcılı mağara düşərgəsidir. Dünya əhəmiyyətli Damcılı mağarası Qazax rayonundakı Avey dağının cənub şərqində yerləşir. Arxeoloji, həm də təbiət abidəsidir. Tarixi paleolit dövrünə aiddir. Bu mağara yarımdairəvi şəklindədir, qabaq hissəsi açıqdır, bir az da dağılıb. Qarşı tərəfdən hündürlüyü 4 m, sahəsi isə 17x27m-dir. Əhəng qayalığının altındadır. Təbii çatlardan süzülən su damcılarına görə Damcılı mağarası adlanır.



Bu ərazidə ilk dəfə 1953-1957-ci illərdə arxeoloq M.M.Hüseynov tərəfindən arxeoloji qazıntılar aparılmış, Avey dağında daş dövrünə aid olan qədim insanların yaşadıqları 30-a yaxın mağara aşkar edilmiş, iki minə yaxın alət tapılmışdır. Dünyanın bir çox bölgələrində olduğu kimi burada da ibtidai insanlar təbii mağaralardan özləri üçün bir növ yaşayış yeri kimi istifadə etmişdilər. Onlar belə yerlərdə məskunlaşaraq uzun müddət ibtidai fəaliyyətlə məşğul olub təbii qüvvələrdən, sərt hava şəraitindən və vəhşi heyvanlardan özlərini qoruya bilmişdilər. Bu mağara qədim insanların yaşayış məskəni olub. Burada aparılmış tədqiqat işləri zamanı daş dövrü adamlarının müxtəlif cinsli daşlardan alətləri və ovladıqları heyvanların yarı yandırılmış sümüklərinin qalıqları, ocaq külləri, kömür qırıntıları aşkar edilmişdir. Bu tapıntılar Damcılı mağarasında təxminən 80-100 min il bundan əvvəl neandertal tipli ibtidai adamların burada məskən saldıqlarını sübüt edən əyani dəlillərdir. Eyni zamanda, mağarada əldə edilən əmək alətləri öz forma və hazırlanma texnikasına görə aşağı paleolitə (mustye), yuxarı paleolitə və neolitə aid edilir. Bu əmək alətləri - itiuclu alətlər, qaşovlar, qəlpələr, kəsərlər, bizlər, gəzli və uclu qaşovlar və s..

Damcılı mağara düşərgəsində aparılan arxeoloji qazıntılar zamanı 7 minə qədər daş məmulatı və 2 mindən çox ovlanmış heyvanların sümükləri tapılmışdır. Damcılı düşərgəsindən tapılmış daş məmulatı içərisində mustye və levallua itiucluları, qaşov tipli alətlər, bıçaqlar, kəsici alətlər, bizlər və çoxlu istehsal tullantıları qeydə alınmışdır.

Tapılan alətlərin müxtəlif dövrlərə aid olması göstərir ki, burada uzun müddət arası kəsilmədən yaşayış məskəni olmuşdur.

Diqqət çəkən mağaralardan biri də Avey dağında Damcılı mağara düşərgəsinin yuxarısında yerləşən Damcılı məbədi adlanan mağaradır. Bu mağaradan insanlar yaşayış yeri kimi istifadə etmişlər. Mağara sonralar isə qaçaqların sığınacaq məskəni olmuşdur.İllər keçdikcə mağaraya gedən yol təbii uçqunlar nəticəsində dağıntılara məruz qaldığı üçün hal-hazırda mağaraya çıxmaq mükün deyil. Deyilənlərə görə mağaranın içərisində daşdan düzəldilimiş oturacaqlar var.

Avey dağının cənub zirvəsinin ən uca nöqtəsində - dəniz səviyyəsindən 922 metr, dağ ətəyindən isə 420 metr yüksəklikdə Alban məbədi yerləşir. V-VII əsrlərə aid edilir. Məbəd kompleksi iki tikilidən - birincisi şimal-cənub istiqamətində yerləşən düzbucaq formalı böyük əsas tikili və ikinci kiçik yardımçı tikilidən ibarətdir. Əsas tikili iki pilləli özül üzərində, qədim ay məbədinin üzərində tikilmişdir. Arxeoloji qazıntılar zamanı məbədin yaxınlığında qəbirlər və qəbirüstü daşlar aşkar edilmişdir. Onların üstü çox iri ölçülü yaxşı hamarlanmış və naxışlanmış əhəng daşları ilə örtülmüşdür. Məbədin ətrafında qəbir daşları ilə yanaşı bir neçə su quyuları da mövcuddur.

Həmçinin, Alban məbədinin ətrafında dövlət qeydiyyatına götürülmüş 10 ədəd süni mağaralar da vardır. Mağarada yaşayan insanlar su tələbatlarını ödəmək üçün yuxarıda qeyd edilən su quyularından istifadə etmişlər.

Hal-hazırda çıxılması mümkün olan mağaralar da var. Belə mağaralardan biri də Koroğlu məbədi adlanan mağaradır. Bu mağara Məmməd Koxa bulağının şimal istiqamətində, təxminən 200-250 metr məsafədə yerləşir. Bu marağaya çıxmaq mümkün olduğu üçün turistlərin ən çox ziyarət etdikləri yerdir. Mağara böyük bir otaqdan ibarətdir.

Gələcəkdə turistlərin daim baxış keçirə biləcəyi mağaralardan biri də Avey mağarasıdır. Avey mağarası Avey qoruğunun əməkdaşları tərəfindən aşkar edilmişdir.

Avey mağarası Damcılı bulağı ilə Qara bulağın arasında yerləşir və Qara bulağa daha yaxındır. Qara bulaq mağaradan 30 metrlik məsafədə yerləşmişdir. Araşdırmalarımıza əsasən mağaranın dərinliyi 25 metrə qədər, hündürlüyü 5 metr bəzən 10 metrə qədərdir, eni bəzi hissələrdə 2,5 metr bəzi hissələrdə isə 3,5 metrə qədər uzanır.

Mağaranın alt hissəsində çox böyük qaya daşları və zamanla yerə tökülmüş çınqıllar mağaranın mədəni təbəqəsinin üzərində 2-3 metr hündürlükdə maneə yaratmışdır.

Burada qədim zamanlarda yaşayan insanlar üçün əlverişli şəraitin olması mağarada arxeoloji tədqiqatların aparılmasına səbəb olmuşdur. Mağarada 2024-cü il tarixlərində AMEA Arxeologiya və Antropologiya İnstitunun arxeoloqları t.ü.f.d. Yaqub Məmmədov, t.ü.f.d. dosent Azad Zeynalov, t.ü.f.d. Mansur Mansurov tərəfindən kəşfiyyat işlərinə başlanılmışdır. Qazıntılar zamanı mağaradan təxminən 1,5 metr dərinlikdə orta əsrlərə aid saxsı qab qırıqları, 0,70 metrdən isə ocaq izlərinə rast gəlinmişdir. Qazıntılar zamanı mağaradan eksponatların və ocaq izlərinin tapılması gələcəkdə ərazidə kəşfiyyat xarakterli arxeoloji tədqiqat işlərinin davam etdirilməsinə imkan verir.

Avey mağaralarından bəziləri sıldırım qayalıqlarda yerləşdiyi ücün gediş-gəlişə çətinliklər törədir. Yeni aşkar edilmiş Avey mağarası isə yer səthinə yaxın olduğu üçün turistlərin ziyarət etməsi üçün əlverişlidir.

Turizmin inkişafı ilə bağlı həyata keçirilən silsilə tədbirlər çoxaldıqca bu qədim yaşayış məskənlərinə maraq da artmağa başlamışdır. Mağaralar əcdadlarımızın əmanəti olduğu üçün daha etibarlı qorunmalı, gələcək nəsillərə çatdırılmalıdır.

Gülmirə BAXŞIYEVA
"Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun Elmi İşçisi

Dünyanın iqtisadi nəhəngləri: Hansı ölkələr liderdir?

Dünya iqtisadiyyatı inflyasiya, geosiyasi gərginlik və beynəlxalq ticarətdəki qeyri-müəyyənliklərə baxmayaraq böyüməyə davam edir. Beynəlxalq Valyuta Fondunun (BVF) məlumatlarına əsasən, 2026-cı ildə qlobal ümumi daxili məhsulun (ÜDM) həcmi təxminən 126,3 trilyon dollar səviyyəsində qiymətləndirilir.

Adalet.az valyuta.az-a istinadən xəbər verir ki, ABŞ 32,38 trilyon dollarlıq nominal ÜDM ilə dünyanın ən böyük iqtisadiyyatı mövqeyini qoruyur. Ölkənin iqtisadi gücünün əsasını maliyyə, texnologiya, səhiyyə və xidmət sektorları təşkil edir.

Siyahıda ikinci yeri 20,85 trilyon dollarlıq iqtisadiyyatla Çin tutur. Dünyanın ən böyük istehsal və ixrac mərkəzlərindən biri olan Çin alıcılıq qabiliyyəti pariteti üzrə 44,29 trilyon dollarlıq göstərici ilə ABŞ-ni geridə qoyur. Avropanın ən böyük iqtisadiyyatı olan Almaniya 5,45 trilyon dollarla üçüncü pillədə qərarlaşıb. Onu 4,38 trilyon dollarla Yaponiya və 4,24 trilyon dollarla Böyük Britaniya izləyir.

Hindistan 4,15 trilyon dollarlıq ÜDM ilə altıncı yerdədir. Ölkə 6,5 faizlik iqtisadi artım göstəricisi ilə ilk onluqda ən yüksək artım tempinə malikdir.

Fransa 3,59 trilyon, İtaliya 2,74 trilyon, Rusiya 2,65 trilyon və Braziliya 2,63 trilyon dollarlıq iqtisadiyyatla ilk onluğu tamamlayır. Reytinqdə Türkiyə də diqqət çəkir. Ölkə 1,64 trilyon dollarlıq ÜDM ilə dünyanın 16-cı ən böyük iqtisadiyyatı kimi göstərilir. Türkiyədə iqtisadi artım 3,4 faiz, adambaşına düşən ÜDM isə 19 018 dollar səviyyəsində qiymətləndirilir. Dünyanın 25 ən böyük iqtisadiyyatı arasında Kanada, Avstraliya, Meksika, İspaniya, Cənubi Koreya, İndoneziya, Niderland, Səudiyyə Ərəbistanı, İsveçrə, Polşa, Tayvan, İrlandiya, Belçika və İsveç də yer alır.

Mütəxəssislərin qiymətləndirməsinə görə, texnoloji inkişaf, sənaye istehsalı və beynəlxalq investisiyalar qlobal iqtisadi artımın əsas hərəkətverici qüvvələri olaraq qalır. Bununla yanaşı, yüksək dövlət borcu, demoqrafik dəyişikliklər və geosiyasi risklər ölkələrin iqtisadi perspektivlərinə təsir göstərir.

Ümumilikdə, ABŞ və Çin dünya iqtisadiyyatında lider mövqelərini qoruyur. Hindistan və digər inkişaf etməkdə olan iqtisadiyyatların sürətli böyüməsi isə qarşıdakı illərdə qlobal iqtisadi güc balansında dəyişikliklərin mümkünlüyünü göstərir.

Tənhalıq demensiya riskini artırır



Fransada aparılan genişmiqyaslı araşdırma xroniki tənhalığın yaşlı insanlarda demensiya riskini əhəmiyyətli dərəcədə artırdığını üzə çıxarıb.

Adalet.az xəbər verir ki, Bordo Universitetinin tədqiqatçıları 1988-2018-ci illər ərzində yaşı 65-dən yuxarı olan 3 777 nəfərin sağlamlıq vəziyyətini araşdırıblar. Belə ki, iştirakçılar tənhalıq hissinin davamlılığına görə üç qrupa - heç vaxt tənhalıq yaşamayanlar, arabir tənhalıq hiss edənlər və xroniki tənhalıq yaşayanlara bölünüblər.Araşdırmanın nəticələrinə əsasən, xroniki tənhalıq yaşayan iştirakçıların 49 faizində demensiya inkişaf edib. Arabir tənhalıq hiss edənlərdə bu göstərici 34 faiz, heç vaxt tənhalıq yaşamayanlarda isə 33 faiz olub.

Statistik təhlillər xroniki tənhalığın demensiya riskini tənhalıq hiss etməyənlərlə müqayisədə 38 faiz artırdığını göstərib. Arabir yaşanan tənhalığın isə demensiya riski ilə əhəmiyyətli əlaqəsi müəyyən edilməyib. Bordo İctimai Səhiyyə Mərkəzinin baş elmi tədqiqatçısı Karine Peres bildirib ki, insanların əksəriyyəti həyatlarının müəyyən dövründə tənhalıq hissi yaşayır. Lakin demensiya riskini artıra bilən əsas amil bu hissin xroniki və davamlı xarakter almasıdır. Tədqiqatçı xroniki tənhalığın uzunmüddətli stress yaratdığını, immun sisteminə mənfi təsir göstərərək orqanizmdə iltihabi prosesləri gücləndirə biləcəyini qeyd edib.

Onun sözlərinə görə, tənhalıq fiziki aktivliyin azalması və qeyri-sağlam qidalanma ilə də əlaqəlidir. Bu amillər isə öz növbəsində demensiya riskini artıran ürək-damar xəstəlikləri və diabetin yaranmasına şərait yarada bilər.



Vaqif YUSİFLİ
Filologiya elmləri doktoru

ƏLİSƏFA AZAYEV-75

Azərbaycanda ən məhsuldar yazar kimdir? Bu gün əli qələmli olanların bir çoxu yazmaqdan və yazdıqlarını kitab halında nəşr etdirməkdən yorulmurlar. Və heç kimə qadağan etmək olmaz ki, daha bəsdir-həvəsdir, siz oxucuları da nəzərə alın. Amma yaradıcılıq elə bir mənəvi ehtirasdır ki, bu sahədə istedadı olan da, olmayan da o sehrin, o tilsimin cazibəsindən qurtula bilmir. Təbii ki, yazıçılığı vərdişə, pis mənada peşəyə çevirmək olmaz. Dahi Füzuli məşhur "Söz" qəzəlində yazırdı ki:

Gər çox istərsən, Füzuli, izzətin, az et sözü
Kim, çox olmaqdan qılıbdır çox əzizi xar söz.

(Füzuli bu beytdə ədəbi uzunçuluğun əleyhinə çıxır, deyir ki, əgər izzətinin, xətir-hörmətinin çox olmağını istəyirsənsə, sözü az et, çünki olduğundan çox əzizi xar eləyib)

Amma belə bir həqiqət də var - məsələ az və ya çox yazmaqda deyil, əsas odur ki, kiçik bir hekayəndə də, böyük romanında da insanları düşündürən problemlərdən söz açasan, əsərlərində dolğun insan xarakterləri yaradasan, oxucu ilə elə ünsiyyət qurasan ki, o, səni anlasın, dərk eləsin və yazdığın əsərlər də hamının ürəyindən xəbər versin. Dünya ədəbiyyatında belə korifey sənətkarlar o qədər də çox deyil: Balzak, Tolstoy, Dostayevski... Azərbaycan ədəbiyyatında Süleyman Rəhimov.

Müasir ədəbiyyatımızda hal-hazırda Əlisəfa Azayevi məhsuldar bir yazıçı-publisist kimi sizə təqdim etmək istərdim. Sovet dönəminə məxsus olan "məhsuldar" sözünə də ironiya ilə yanaşmayın. Əgər bir yazıçı əlli il ərzində əlliyə yaxın kitab nəşr etdiribsə, o sözü yaxşı mənada qəbul edin. Və ən əsası odur ki, Əlisəfa Azayev ilk hekayəsindən tutmuş qələmə aldığı ən iri həcmli əsərlərinə qədər cəmiyyəti, xalqı düşündürən məsələlərdən söz açıb. O, ixtisasına görə əvvəlcə bir orta məktəb müəllimi kimi fəaliyyətə başlayıb, bir müddət Kürdəmir icraiyyə komitəsində şöbə müdiri kimi çalışıb, sonra hüquqşünaslıq fakültəsini təhsil alıb və uzun müddət Siyəzən Rayon Dövlət Notariat Kantorunun dövlət notariusu vəzifəsində çalışıb. Ədliyyə müşaviridir.Amma burada söhbət yazıçı Əlisəfa Azayevdən gedir.

Onun bədii ədəbiyyata meyli, həvəsi lap gənclik yaşlarından başlayıb. Bunu izah eləmək mənim üçün o qədər də asan deyil, niyə onun ürəyində sözə belə şiddəili həvəs yaranıb, həyatda hansı bir sehrli qüvvə onun daxili aləmində fırtına, təlatüm yaradıb? Təbii ki, əksər yazarın (şairin, nasirin) ədəbiyyata gəlişi müəyyən bir şəxsin hamiliyi və qayğısı ilə reallaşır. Əlisəfa Azayevin həyatında belə bir insan görkəmli yazıçı, bir sıra nəsr əsərləri ilə Azərbaycan ədəbiyyatında iz buraxan Əlfi Qasımov olub.

Əlfi Qasımovu mən yaxşı tanıyırdım. O, ədəbiyyata publisist kimi gəldi Böyük Vətən müharibəsi qəhrəmanlarından söz açan oçerkləri ilə diqqəti cəlb etdi. Amma 1964-cü ildə çap etdirdiyi "Adilənin taleyi" romanı bütün Azərbaycan oxucularının stolüstü kitabına çevrildi. Bu, jurnalistlərin həyatından, onların sevgisindən, mənəvi dünyasından söz açan ilk nəsr əsəri idi. Sonralar Əlfi müəllimin "Ulduz karvanı", "Məni qınamayın", "Qızburunda tək məzar", "Qağayı fəryadı", "İnsan qaranquş deyil", "Toy gecəsi" kitabları çap olundu. Bu kitablarda toplanan povestlərdə, hekayələrdə mənəvi-əxlaqi problemlər əks olunub. Əlfi müəllim 80-ci illərdə mənə bir böyük əlyazma göndərdi, Azərbaycanın seçmə hekayələrindən ibarət bu əlyazmaya (sonralar "Azərbaycan hekayəsi" kimi nəşr olundu) mən geniş bir ön söz yazdım. Əlfi Qasımov da öz böyük ustadları - Səməd Vurğun, Rəsul Rza, Mirzə İbrahimov, Mehdi Hüseyn kimi ədəbi gəncliyin dostu idi. O, istedadlı cavanlara qayğı göstərir, onların ilk kitablarının çapına köməyini əsirgəmirdi. Bu baxımdan Əlfi Qasımovun keçən əsrin yetmişinci illərində gənc Əlisəfaya ürək açıqlığ ilə kömək göstərməsi, onun ilk hekayələrindəki işartıları sezməsi və bu qayğı sözünü qayğının özünə çevirməsi əsl ustad böyüklüyü idi.

Əlisəfa Azayevin Əlfi Qasımovla ilk tanışlığından əlli ildən çox vaxt keçib. Bu il Əlisəfanın "Əlfi Qasımov fenomeni" kitabı işıq üzü gördü və o kitabda Əlfi Qasımo-



vun özünəməxsus insani keyfiyyətləri, yazıçı kimi səciyyəsi, Əlisəfa Azayevlə ilkin tanışlığının dostluğa çevrilməsi öz əksini tapıb. Kitabın ön sözündə görkəmli tənqidçi-ədəbiyyatşünas, mənim də BDU-da müəllimi olmuş Əkbər Ağayevin bu sözləri necə də yerinə düşür: "Azərbaycan dilində belə bir ifadə var: "Filankəs adamdır!" Çoxları Əlfi haqqında söz dışəndə deyərdilər: O aləmdir!". Həqiqətən belədir". Əlisəfanın kitabında da Əlfi Qasımov obrazı belə bir miqyasda canlandırılır. Əlisəfa ilə Əlfi Qasımovun müntəzəm məktublaşmaları da kitaba daxil edilmişdir və o məktublarda Əlfi müəllimin necə qayğıkeş insan olduğu, öz gənc dostunun yazılarına həm kömək göstərməsi, həm də tənqidi qeydlərini də onun nəzərinə çatdırması maraqlı faktlardır.

Əlfi Qasımov hələ ədəbiyyat aləmində heç ilk addımlarını atmamış bir titrək qələm sahibinin hekayələrini oxumuş, 1974-cü ildə , düz 52 il bundan öncə "Azərbaycan gəncləri" qəzetində ona "Uğurlu yol" yazmışdı. "Xatirə" adlı ihekayəsi də elə həmin nömrədə dərc edilmişdi. Əlbəttə, hər bir gənc yazar üçün ilk bədii yazısının dərc olunmağı onun tərcümeyi-halında ən qiymətli bir səhifədir. Bütün sonrakı uğurlar elə həmin səhifədən başlayır.Mən də "Xatirə" hekayəsini oxudum, azərbaycanlı Əhmədlə rus qızı Anna Sergeyevnanın səmimi dostluğu qızın ona sevgisiylə tamamlansa da, Əhməd öz vətəninə qayıdır, çünki nişanlısı onu gözləyir.Əhməd milli-mənəvi dəyərlərə sadiq qalır. Qız isə, yaşı keçsə də, onu unutmur. Əlisəfanın bu hekayəsi və çox keçməmiş digər hekayələrinin də mətbuatda dərc olunması tanınmış söz adamlarının da diqqətini çəkir. Görkəmli tənqidçi Qulu Xəlilov da onun hekayələri barədə öz fikrini bildirir və yazır ki, bu cavan oğlanın yazılarını tez-tez çap etmək lazımdır.

Əlisəfa Azayevin bu illər ərzində, öncə qeyd etdiyim kimi 50-ə yaxın müxtəlif adda kitabları çap olunub. Bu kitabların böyük bir qismi hekayələr, povestlər və romanları əhatə edir, müəyyən qismi isə publisistik əsərlərdir.Təbii ki, bu yazıda Əlisəfa Azayevin yazılarını tam əhatə edəb fikir və mülahizələrimi genişliyilə bildirməyə imkan yoxdur.Görünən kəndə nə bələdçilik,-deyirəm. Amma Əlisəfanın "Əlfi Qasımov fenomeni", "Məhkəmə hekayətləri", Milli qəhrəmanımız Polad Həşimova həsr etdiyi "General qətiyyəti", publisistik yazılarını özündə əks etdirən "Göy qurşağı" kitabları haqqında qısaca söz açmaq istəyirəm.

Öncə adını çəkdiyim "Əlfi Qasımov fenomeni" kitabı bütünlüklə Əlfi Qasımova həsr olunmayıb, düzdür, kitab Əlfi Qasımovun obrazı işığında qələmə alınıb, onun insani keyfiyyətləri bir neçə fəsildə canlandırılıb, amma Əlisəfa Azayevin yazıları da, həmçinin onun yaradıcılığı ilə bağlı müəyyən yazılar da təqdim olunur. Bu mənada siz bu kitabda qısaca da olsa Əlisəfa Azayevin əlli illik yaradıcılığı ilə qısaca da olsa, tanış ola bilərsiniz. Qulu Xəlilovun Əlisəfanın yazıları barədə fikirləri çox maraqlıdır və mən də onun fikirlərinə şərik olub deyirəm ki, Əlisəfa Azayev həqiqəti, cəmiyyətdə, real həyatda baş verən hadisələri, xüsusilə, insanlar arasındakı qarşılıqlı münasibətləri reallıqla əks etdirir, onun qəhrəmanları əksər hallarda adi insanlardır, amma bu adi insanların zəngin mənəvi aləmini açmaq, onların insanlığa layiq əməllərini canlandırmaq onun nəsr əsərlərində aparıcıdır. O, nəsr əsərlərində həyatı, insanları "boyamır", çalışır ki, hər bir obrazı yaradarkən onun mənəvi dünyasında baş verən prosesi göstərə bilsin. Qeyd edim ki, Əlisəfa Azayev kənd həyatını çox yaxşı bilir, orada yaşayan insanların psixologiyasını, ailə-məişət xüsusiyyətlərini diqqətlə öyrənib.

Əlisəfa Azayevin "Məhkəmə hekayətləri" təsadüfən yaranmayıb. O, hüquqşünasdır. Həmin kitaba yazdığı ön sözə dahi Füzulidən bir misra sitat gətirir: "Hakim odur ki, onun olmaya felində riya".Məhz "Məhkəmə hekayələri" hüquqşünaslar aləmində yaxşıları yaxşı, felində riya, zatında tamah olanları bizə tanıdır. Və onu qeyd edim ki, bu hekayələri təkcə "peşə hekayələri" hesab etmirəm, həm də insan xarakterlərini açan yazılar hesab edirəm. Əlisəfa Azayevin "Gecəyarı sui-qəsd", "Sirli qətl", "Gözlənilməz hadisə", "Amansız qatil", "Prokuror qızı", "Sahildə qətl", "Qanlı gündəlik", "Günahsız məhbus", "Gizli əməliyyat", "Bayıl məhbusu", "Casusun ifşası" kitabları da nəsrimizdə hüquq işçilərinin həyatını, onların qorxulu gizlinləri açmasındakı fədakarlıqları əks olunub.

Mən onun bədii publisistikasından qısaca söz açmaq istəyirəm. Doğrusunu deyim ki, onun publisistikası ilə nəsri arasında bir vəhdət duyuram. Onun nəsrində publisistik ahəng, publisistikasında da bədii nəsrə məxsus keyfiyyətlər nəzərə çarpır. Məsələn, onun "Alay komandiri", "Göy qurşağı", "General qətiyyəti" əsərlərində bu vəhdət bariz şəkildə hiss olunur. Milli qəhrəmanımız, cəsur general Polad Həşimov haqqında ilk sənədli romanı da səhv etmirəmsə, məhz Əlisəfa qələmə alıb.

Bu romanı oxudum və general Polad Həşimovun həyat və döyüş yolunu izlədim, elə bir roman ki, orada Polad Həşimovun qəhrəmanlığı, Həzi Aslanovun varisi kimi gördüm.

Əlisəfanın "Göy qurşağı" kitabı da onun bir publisist kimi də uğurlarını əks etdirir. O, Kürdəmirdə doğulan, amma təkcə Kürdəmirdə deyil, bütün Azərbaycanda tanınan həmyerlilərindən söz açır, onların hər birinin tale yolunu izləyir. Qeyd edim ki, Əlisəfanın dili, təhkiyə üsulu anlaşıqlıdır.

Əlisəfa Azayev çox yazır və yazmaqdan da yorulmur. Təbii ki, bu yazıların içində hamısı eyni səviyyədə deyil. "Orta temperatur" göstəricisi olan yazılar da var. Bu da təbiidir. Amma bütün yazılarda o, səmimidir. Bu səmimiyyəti həmişə qorusun, saxlasın bizim 75 yaşlı həmkarımız...

"Bakcell" tətbiqində VIP Çarxı çevir, "iPhone" qazan



"Bakcell"də hədiyyə mövsümü davam edir. Abunəçilər "Bakcell" tətbiqində VIP Çarxı çevirməklə "iPhone 17" modellərini qazanmaq şansı əldə edirlər.

VIP Çarxın təqdim etdiyi xüsusi hədiyyələr arasında "iPhone 17" modelləri ilə yanaşı, İstanbul istiqamətində gediş-dönüş aviabiletləri, smart saatlar, qulaqlıqlar, planşetlər, televizorlar və 20 GB-dək internet paketləri də yer alır.

Qeyd edək ki, hər iki standart çarx çevirməsindən sonra abunəçi üçün bir VIP Çarx aktivləşdirilir. Sadalanan hədiyyələri yalnız VIP Çarx vasitəsilə qazanmaq mümkündür.

"iPhone 17" modelləri və digər hədiyyələri qazanmaq şansı əldə etmək üçün abunəçilər "Bakcell" tətbiqinə daxil olaraq çarx bölməsinə keçə və VIP Çarxı çevirə bilərlər.

"Bakcell" haqqında

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan "Bakcell" süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

"Bakcell" müxtəlif ölkələrdə və sahələrdə fəaliyyət göstərən NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibində olan "Azerconnect Group"a daxildir.

Ən ölümcül xərçəng növünün müalicəsində ümidverici nəticə

Dünyanın ən aqressiv və ölümcül onkoloji xəstəliklərindən biri sayılan mədəaltı vəzi xərçənginin müalicəsində ümidverici elmi nəticə əldə olunub.

Adalet.az BBC-yə istinadən xəbər verir ki, kimyaterapiya ilə birlikdə qəbul edilən gündəlik "daraxonrasib" həbi klinik sınaqların ilkin mərhələsində xəstələrin 90 faizində şişlərin böyüməsini dayandırıb, bəzi pasiyentlərdə isə xərçəng izləri müayinələrdə tamamilə görünməz hala gəlib.

1 və 2-ci faza klinik sınaqları çərçivəsində xəstəliyi orqanizmin digər hissələrinə yayılmış 61 pasiyentə kimyaterapiya ilə paralel olaraq gündəlik "daraxonrasib" həbi verilib. Əldə olunan nəticələrə əsasən, pasiyentlərin 90 faizində şişlərin inkişafı dayanıb, 60 faizdən bir qədər çoxunda isə şişlər kiçilib və ya yox olub.

Tədqiqatın ən diqqətçəkən məqamı isə xəstələrin təxminən 8 faizində (hər 12 nəfərdən birində) kompüter tomoqrafiyası (KT) müayinələri zamanı xərçəng hüceyrələrinin artıq aşkar edilməməsi olub. "Daraxonrasib" xərçəng hüceyrələrinin nəzarətsiz çoxalmasına təkan verən RAS zülallarını hədəfə alır. Mədəaltı vəzi xərçənginin əksər növlərində müşahidə olunan KRAS mutasiyalarının qarşısını alan bu mexanizmin gələcəkdə oxşar genetik mutasiyalara malik ağciyər və yumurtalıq xərçənglərinin müalicəsində də tətbiq ediləcəyi ehtimal olunur. Böyük Britaniyanın "Cancer Research UK" təşkilatının nümayəndəsi doktor Sem Qodfri bu nəticələri son illərdə mədəaltı vəzi xərçəngi sahəsində əldə edilən ən əhəmiyyətli irəliləyiş adlandırıb. Tədqiqatda iştirak edən "Memorial Sloan Kettering" Xərçəng Mərkəzinin mütəxəssisi doktor Vunqki Park isə müalicəyə verilən reaksiyanın həm sürət, həm də təsir dərinliyi baxımından ümidverici olduğunu və xəstələrin ömür müddətini uzada biləcəyini qeyd edib.

Ümidverici göstəricilərə baxmayaraq, mütəxəssislər dərmanın xəstəliyi tamamilə sağaltdığını söyləmək üçün hələ tez olduğunu bildirirlər. Sınaq iştirakçıları orta hesabla 18 ay müddətində izlənilib. Həkimlər vurğulayırlar ki, KT müayinəsində şişlərin görünməməsi xərçəngin orqanizmdən tam silindiyi anlamına gəlmir və dərmanın uzunmüddətli təsirini dəqiqləşdirmək üçün daha geniş tədqiqatlara ehtiyac var.



BAYAT



№ 103 (963)

Mənim gecələrim hər gecə oyaq



Ağa LAÇINLI

Üzük

Bəxtimin üzünə gülübdür üzün,
Sevincim sel kimi qaynayıb daşır.
Toydan beş il sonra aldığım üzük
Xınalı əlinə necə yaraşır!

Sən bir kəndçi qızı, mən bir tələbə,
Evləndik... evimiz olmadı ancaq.
Uymadın dərzilər saldığı dəbə,
Keçdi təqaüdlə hər dolanacaq.

Evləndik... güldün də utanmağıma,
Dedin bu qayğıyla üzmə özünü.
Qırmızı sap bağla boş barmağıma,
Olsun toy üzüyü, nişan üzüyü.

Bu da yoxsulluğun uzanan ömrü,
Üzürlər istədim hey dönə-dönə.
Bir payız pul yığdım üzükdən ötrü,
Qaçıb qış papağı tikdirdin mənə.

Dolandı fəsillər. Qış getdi yaya.
Amansız olmadıq zamanımıztək.
Qaldı nişanımız toydan sonraya,
Yaşadı ürəkdə üzüklü istək.

Bir gün biz yollandıq dükana sarı,
Aldıq üzüyünü nişanımızın.
Mən sənə verdiyim o yadigarı
Yazdırdın adına uşağımızın...

Bağışla

İlahi, mən laçınam,
gərək uçam, uçunam.
Mən də Sənin suçunam,-
məni Sənə bağışla.

Mən sonranın indisi,
mən cırtdanın irisi.
Bu imanlı iblisi
dəli cinə bağışla.

Könül sığmır yataba,
məcnunluğa nə toba.
Peyğəmbərə, Kitaba,
bir də dinə bağışla.

Alnım göyə güzgüdü,
aldığım od gürzüdü.
Kin sevgidən güclüdü,
eşqi kinə bağışla.

İlahi, mən dərdə lək,
şırımı çək, çarpaz ək,
Sən də təksən, mən də tək,
məni Sənə bağışla.

Buyur, güllə gülünü,
ruh dirildən ölünü.
Hər kəsin öz çölünü
öz içinə bağışla.

Uçdum balın iyinə,
Hər pətəkdə yüz iynə...
Yemi qapıb yeyənə,
dəni çinə bağışla.

İlahi, mən kor quşam,
qor üstünə qonmuşam.
Dönə-dönə yanmışam,
dönə-dönə bağışla...

Səmimiyyət

Ərk ilə evinə gəlmişəm, ay dost;
Görürəm, açıqdır qaşın-qabağın.
Komanı imarət bilmişəm, ay dost,
Nə gərək utanıb tər axıtmağın.

Səndən dünya malı ummayıram mən,
Sanma bəyənmirəm yavan loxmanı.
Doyursan qəlbimi səmimiyyətdən,
Bağrıma basaram kasıb daxmanı.

Sən danış səmimi, kiri səmimi,
Səmimiyyət qəlbin məhək daşıdır.
Söhbət olacaqsa qeyri-səmimi,
Dinib-danışmamaq daha yaxşıdır.

Dostum, doğrultmasa əməl niyyəti,
İnsan necə qalxar, necə ucalar?
Bir ölçü götürsək səmimiyyəti,
Alim var, çobandan geridə qalar.

Bir acı baxışdan sınmış ürəyi
Sağaldan o hansı şirin nemətdir?..
Dada gətirən də duzu, çörəyi,
Elə səmimiyyət, səmimiyyətdir.

Ölmərəm

Ölüm, məni nə beləcə hərlərsən, -
Mən bir ömrü sürməyincə ölmərəm.
Öz anama, öz Tanrıma borcum var,
Aldığımı verməyincə ölmərəm.

Nə istərsən can ağacım quruya,
Arız olub nə girmisən araya?
Sən öləsən, il kərpicli saraya
Yüz neçəni hörməyincə ölmərəm.

Qarı düşmən, bu nə qorxu kinosu,
Neçəyədi bu möhlətin kilosu?
Dəhrələyib dərd bitirən kol-kosu,
Sərgiliyə sərməyincə ölmərəm.

Nə dilərsən soluxuban sozalım,
Axı niyə çarpaz dağla yazılım?
Əkdiyimi biçməyincə, a zalım,
Səpdiyimi dərməyincə ölmərəm.

Qoca quldur, məni azca qarala,
İnanmıram inam sapı qırıla.
Tufan qopa, iki dünya bir ola,
Gözləncimi görməyincə ölmərəm.

Könüllərdi mənim evim-eşiyim,
Könül olsun axırıncı beşiyim.
Qorxuram ki, qəbirdə də üşüyüm,
Ürəklərə girməyincə ölmərəm.

Qapını aç

Qapını yüyrək aç mən qayıdanda,
Ay qədir bilənim, üzə gülənim.
Barı öz qapıma gəlib qonanda
Açar qabağıma yüyürsün mənim.

Qapılar önündə ürəyim yanıb,
Yolsuzlar daş olub yolu hörəndə.
Üzümə oxarta qapı qapanıb,
Qorxuram qapını bağlı görəndə.

Mənim xoşum gəlmir söz böyütməkdən,
Sözün də yalanı ölüb-itibdi.
Qapı qabağında boyun bükməkdən
Az qala boynum da əyri bitibdi.

Kürlük görə-görə kürküm od alır,
Arılıq öyrədir ad-sanı kirli.
Kəsib qapıları hay-haray salır
Büllura bürünən qızıl zəncirli.

Qapı qabağında qaraldı qanım,
Öyrəşə bilmədim düzü danmağa.
Öyrəşdi varlığım, günüm, gümanım
Qanmaz qapısında donub-durmağa.

Yoruldu, dirəndi diribaş dilək,
Dünyadan iriymiş keçilməz qoruq.
Ölüm kilidləri önə sərilcək
Asılı qalırıq, adsız oluruq.

Bağlıca qapılar bağrı çatladır,
Bəzən də ölümdən qaçıram birbaş.
Ərkim bir evimə, bir sənə çatır,
Qapını yüyrək aç, istəkli sirdaş.

Ayrıca qalarıq

Ayrıca qalarıq min il, milyon il,
Torpağın torunda görüşmək çətin.
Bağlanaq birliyə barı beş-on il,
Alaq hayıfını uzun həsrətin.

Əzizim, ömür də bir haqqı-saydı,
İnsan bu dünyada gərək sevinə.
Səni görməyimə güman olsaydı,
Yalvarıb gedərdim qəbir evinə.

Dünya bəndə vurub bizə də gülər,
Ürək sayğacında hesabını çək.
Anın yarısıdı yaşanan günlər,
Yatılan illəri ölçü götürsək.

Ayrıca qalarıq bir qarışlıqda,
Qaralar gözünün qara çırağı.
Vallah, üşüməzdim mən o qışlıqda,
Eşidə bilsəydim bu səs-sorağı.

Orda qarğışın da könül oxşardı,
Durğunluq gölündə duyğu göyərməz.
Darıxsaq bəlkə də ruh qovuşardı,
Amma ruh görüşü bu dadı verməz.

Ayrıca qalarıq qaranlıq qatda,
Orda ödənici ödəmək çətin.
Gəl yaxşı dolanaq yaman həyatda,
Alaq hayıfını uzun həsrətin.

İlahi, sən məni o kəndə yetir

İlahi, sən məni o kəndə yetir, -
O kəndin diləyi dildə göyərən.
O kəndin yığvalı oğuldan yetim,
O kəndin qızları qarğış əyirən.

Qocası bürünüb his çuxasına,
Qarısı ah çəkib qapıda bitir.
İlahi, bağışla el duasına,
İlahi, sən məni o kəndə yetir.

Bağışla dəhrənin paslı yasına,
Bağışla cəhrənin qəm havasına;
Bağışla köhlənin yatan tısına,
Bağışla məhlənin tor hanasına;

Bağışla, bağışla bu əkilmişi,
Bağışla bucağın boş qalmasına;
Bağışla yollara baxış əkmişin
Qarıyıb-quruyub daş olmasına.

İlahi, coş gələ mən bağrıdaşa,
Sarınam bir axşam yağış kəndirə;
Yaylaq yalvarsına, bulaq barışa,
Düşəm dan yerindən dədə kəndinə.

Ya da diləklərin qolu açıla,
Qayğı boxçasını biryolluq atam.
Arılar tel vura bu arıçıya,
Üzür kağızını üzümə tutam.

Gedəm eşitmədən hədə-hədyanı,
Malımı maralla otara biləm.
Qulunun qurd yemiş dəli madyanı
Qayanın qaşından qaytara biləm.

Sökülə canımın ağrı sırığı,
Duyğum bozalaşa gobud ağılnan.
Yetimi-yesiri, könlü sınığı
Yedirdib-içirdəm noğul-nağılnan.

Qayıda dünyanın bu dolaşanı,
Varlığım yoxluğun dibindən çıxa.
Çıxardam ağzımdan çullu dovşanı,
Nallı qarışqa da cibimdən çıxa.

Çıxa xurcunumdan çitin bahası,
Bəzənə bir evin köhnə kəfrəmi.
Bacı-qardaşımın beçə balası
Qomara bir anda ballı süfrəmi.

İlahi, əlimə girəvə düşə,
Ayrılıq külünü yollara səpəm.
Söykəyib alnımı ana göyrüşə,
Görüşlü anları gözümə təpəm.

İlahi, köməyim gör necə itir,
İlahi, sən məni o kəndə yetir.
Yetir biçiləsi biçənəyinə,
Yetir Gün qovuran boz güneyinə.
Yetir bulaqdakı axşam neyinə.
Yetir dan yelinə, çay küləyinə.
Yetir qış qarına, yaz çiçəyinə.
Yetir kom ulduzun göbələyinə.
Yetir can havalı yan tütəyinə.
Yetir yal-yamacın göy ipəyinə, -
Yaşıl bələyinə, ağ bələyinə,
Gülünə, gölünə, daha nəyinə...
İlahi, sən mənim izimi yetir
Dağılmış qəbirin son köməyinə;
Ağsaqqal çağımda özümü yetir
Ağlayan bir evin ağbirçəyinə.

İlahi, sən məni o kəndə yetir,
İlahi, sən məni o kənddə bitir!..

* * *

Sən hərdən səbəbsiz inciyən, küsən,
Hərdən əhvalımı soruşan qızsan.
Hərdən minnətçimi uzaqdan qovan,
Hərdən özü gəlib barışan qızsan.

Elə qınayırsan məni dilində,
Çox vaxt inanmıram üzün güləndə.
Tay-tuşun bəzənib dərsə gələndə
Bəzənib-düzənib yarışan qızsan.

Bəzən atmacanı ağ eləyirsən,
Bəzən hər sözünü dağ eləyirsən;
Yüngül dərdlərimə lağ eləyirsən,
Ağır dərdlərimə qarışan qızsan.

Ay gözü alovlu, baxışları şən,
Peşiman qayıdıb arxamca düşən.
Gahdan özüm ilə durub öcəşən,
Gahdan xainimlə vuruşan qızsan.

Getdin, yad olmadın bir inciməklə,
Gəldim, qarşıladın duzla, çörəklə.
Sən bu sadəliklə, bu saf ürəklə
Elimə, obama yaraşan qızsan.

Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

№ 45 (2517) 27 noyabr 2026-cı il

Azərbaycan Respublikası
Media və Yayım Şurası



GÜVƏNC YERİMİZ - GƏNCLİYİMİZ!



Hər bir ölkənin, hər bir xalqın etibar etdiyi, söykəndiyi və güvəndiyi qüvvələr var. O qüvvələrdən biri də gənclərdir. Təbii ki, bu gənclərin vətənpərvərlik ruhunda yetişməsi, böyüməsi və inkişaf etməsi üçün həm bağça, həm məktəb, həm də ailə öz borcunu yerinə yetirməlidir. Yəni gəncliyə gedən yol uşaqlıqdan, yeniyetməlikdən başlayır. Bu müddətdə onların təlim-tərbiyəsi, əxlaqı, savadı və eləcə də cəmiyyətə inteqrasiya olunması birmənalı olaraq diqqət mərkəzində saxlanılmalıdır. Əgər adını çəkdiyimiz bu üç tərəfin birində zəiflik olarsa, istər-istəməz həmin gənclərin həyat tərzində və tərbiyəsində müəyyən boşluqlar yaranır. Bu isə o deməkdir ki, həmin gənclər cəmiyyətə və həyata tam, bütöv formada hazırlana bilmir.

Azərbaycan gəncliyi haqqında söhbət düşəndə bir çox insanlar ağızlarını büzürlər. Onlar deyirlər ki, indiki gənclik ilə əlli il bundan əvvəlki gəncliyin arasında yerlə-göy qədər fərq var. Bəlkə də bu fərq hiss olunur, amma əsas məsələ ondan ibarətdir ki, hər dövrün gəncliyinin qarşısında çox böyük çətinliklər, problemlər və digər sıxıntılar mövcud olur. Gəncliyi isə bu çətinliklərə, bu problemlərə alışdırmaq, hazırlamaq bayaq dediyimiz kimi, həm bağçanın, həm məktəbin, həm də ailənin vəzifəsidir. Heç kim dünyaya gələndə savadsız, tərbiyəsiz və cahil doğulmur. Onu cahil və savadsız edən pozğun həyat tərzinə yuvarlandıran mövcud cəmiyyətdir. Gərək cəmiyyət sağlam olsun ki, orda yetişən insanlar da normal, əxlaqlı, savadlı və dünyagörüşlü yetişsin.

Heç kimə sirr deyil ki, bu gün Azərbaycan gəncliyi cəmiyyətə çox yüksək səviyyədə inteqrasiya olunub. Onların həm vətənpərvərlik hissləri, həm dünyagörüşləri, həm də həyata baxışları demək olar ki, çox normaldır. Təbii ki, bu gəncləri də cəmiyyətimizə və həyatımıza hazırlayan və inteqrasiya edən qüvvələr var.

Hər bir gəncin dilini tapmaq, onunla ünsiyyət qurmaq, daha doğrusu, boş damarını tutmaq müəllimlərin və ailənin qarşısında duran prioritet vəzifələrdəndir. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru, kulturologiya üzrə elmlər doktoru İlqar Hüseynov deyir ki, mən həmişə tələbələrimə güvənmişəm. Ona görə güvənmişəm ki, auditoriyaya girib mühazirə oxuyanda bir tələbənin belə fikrinin başqa yerdə olduğunu görməmişəm. Onların mənim mühazirəmə olan böyük həvəs və diqqəti bir müəllim kimi məni çox ruhlandırıb. Görmüşəm ki, tələbələrim mühazirələrimə sevgi ilə yanaşır, oxuduğum mövzunu sonradan öyrənir və seminarlarda ətraflı şəkildə gəlib danışırlar. O gənclərin hər biri Azərbaycanın və dövlətimizin gələcəyidir desəm, yanılmaram.

Mənim bir tələbəm vardı, hiss olunurdu ki, kasıb ailədən çıxıb, geyimi-geçimi o qədər də yaxşı deyildi. Bir gün elə oldu ki, onunla bir dost olaraq söhbət elədim. Çünki dərslərini əla oxuyurdu, əxlaqlı idi və nizam-intizama əməl edirdi. Məlum oldu ki, həmin gənc çox erkən yaşlarında ata-anasını itirib, iki bacı və bir qardaşına böyüklük edib, onları böyüdüb, orta məktəbdə oxudub, yedirdib-içirdib və geyindirib. Həmin tələbəm gecələr işləyir, gündüzlər isə dərsə gəlirdi. Bakalavrı da qurtardı, magistraturanı da. Sonra da vəzifə pillələri ilə yüksəldi. İndi çox məsul bir vəzifədə çalışır. Həmişə də mənə böyük hörmətlə yanaşır. Dəfələrlə qəbuluna getmişəm, məni sevgi ilə qarşılayıb, heç bir problemim olmayıb, sadəcə olaraq, görmək istəmişəm ki, həmin adam dəyişib, yoxsa dəyişməyib. Görmüşəm ki, yox, elə həminki sadə, səmimi və vətənpərvər bir gəncdir. Təbii ki, elə belə də olmalı idi. Çünki hər cür çətinliklər, sıxıntılar, çətin həyat tərzi yaşamış insanlar heç vaxt həmin günləri yaddan çıxarmırlar. Sadəcə olaraq, həyatın çətin sınaqları, imtahanları onları bərkə-boşa salır, daha mətin və daha güclü yetişməsinə kömək edir.

Professor bizimlə söhbətində onu da dedi ki, mənim belə tələbələrim çoxdur. Heç yadımdan çıxmaz, İkinci Qarabağ savaşı başlayanda əlliyə yaxın tələbəm könüllü surətdə səfərbərlik idarələrinə müraciət edib döyüşməyə getmək istəyirdilər. Bir neçə nəfəri getdi, amma əksəriyyətini Səfərbərlik idarəsi müharibəyə aparmadı. Universitetimizin bir neçə qəhrəman tələbəsi Qarabağın azad olunması uğrunda döyüşlərdə yeni tarix yazdı. Onların eləsi vardı bizim məzunumuz idi, eləsi də vardı hələ tələbə adını daşıyırdı. Mən bu gün yenə bir alimziyalı kimi universitetdə dərs dediyim qızlarımızdan da razıyam. Onlar Vətən üçün, xalq üçün çox gərəkli bir gənclərdirlər. Oxumaqlarına, dünyagörüşlərinə və savadlarına söz ola bilməz. Amma ondan da yuxarıda duran həmin qızlarımızın mətanəti, vətənpərvərliyi və millətsevərliyidir.

Mən bu mövzularda tələbələrimlə söhbət edəndə onların gözlərindəki, ürəyindəki vətənpərvərlik hisslərini, millətsevərliyini görüb çox sevinirəm. Ən azından ona görə ki, gələcəyimiz, daha doğrusu, sabahımız belə gənclərin əlində olacaq. Heç şübhəsiz, biz estafeti onlara verməliyik. Amma estafeti də verəndə gərək elə bir gəncliyə verəsən ki, keçmiş tarixi ənənələrimizi və qəhrəmanlıq salnamələrimizi yaşatmaqla yeni bir tarix, yeni bir epoxa, yeni bir mərhələ yaratsınlar.

Mənim fikrimcə, pis gənc yoxdur, pis tərbiyəçi, pis müəllim, pis ailə ola bilər. Əgər biz hər bir yeniyetmənin, hər bir gəncin üzərində yaxşı işləsək, onlara vətənpərvərlik ideyalarını təbliğ edə bilsək, milli ənənələrə hörməti aşılamağa çalışsaq, Azərbaycançılıq ideyasını o gənclərin təfəkküründə, ruhuna ötürə bilsək gələcəyimizdən heç bir qorxumuz yoxdur.

Bəzi insanlarınsa "indiki gənclərə bir o qədər də güvənmək olmaz" fikri ilə qətiyyən razılaşa bilmərəm. Düzdür, o uşaqların içində ipə-sapa yatmayan, bəzən əyri yola düşən gənclər də var. Amma onlarla da dil tapıb söhbət etmək olar və cəmiyyətə ötürmək mümkündür. Və bir də İkinci Qarabağ savaşında möhtəşəm qələbəmizin qazanılmasında o dəli-dolu, dəcəl uşaqların əməyi az olmayıb. Heç şübhəsiz ki, Azərbaycan gəncliyi bütün dövrlərdə öz sözünü deyib və bundan sonra da deməyi bacaracaq. Şəxsən mən bir professor kimi, müəllim kimi indiki gənclərimizə böyük ümidim var və onlara güvənirəm!

Emil FAİQOĞLU

AZƏRBAYCAN RESPUBLİKASI
MEDİA VƏ YAYIM ŞURASININ MALİYYƏ YARDIMI İLƏ

COP31 çərçivəsində Antalyada dayanıqlı turizmin gələcəyi müzakirə olunub

Türkiyənin Antalya şəhərində keçirilən COP31 beynəlxalq iqlim konfransı çərçivəsində dayanıqlı turizmin inkişafı, mədəni irsin qorunması və turizm sektorunda ekoloji həllərin tətbiqi məsələləri müzakirə olunub. Tədbirlərdə Azərbaycan da daxil olmaqla, müxtəlif ölkələrin turizm sektorunun nümayəndələri iştirak ediblər.

Adalet.az xəbər verir ki, Türkiyə Turizmin Təşviqi və İnkişafı Agentliyi (TGA) tərəfindən COP31-in Yaşıl Zonasında "Turizm və Mədəni İrs Günü" təşkil olunub. Proqram dövlət və hökumət rəsmilərini, beynəlxalq təşkilatların nümayəndələrini, alimləri, iş adamlarını və turizm sənayesinin təmsilçilərini bir araya gətirib.

Beş sessiyadan ibarət proqramda 20 panelist, dörd moderator və üç əsas məruzəçi iştirak edib. Müzakirələrdə dayanıqlı turizmə keçid, bu sahəyə investisiyalar, qonaqpərvərlik və infrastrukturun inkişafı, mədəni irsin qorunması, qastronomiya və beynəlxalq turizm şirkətlərinin ekoloji strategiyaları əsas mövzular olub.

Tədbirin açılış sessiyasında TGA-nın İdarə Heyətinin üzvü Ece Tonbul, BMT-nin Turizm Təşkilatının icraçı direktoru Shijun Liu və Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin Avropa İttifaqı və Xarici Əlaqələr Departamentinin rəhbəri Gözde Şahin çıxış ediblər.

Günün ilk panelində Türkiyədə dayanıqlı turizm modelinin formalaşdırılması və beynəlxalq təcrübənin tətbiqi müzakirə olunub. Sonrakı sessiyalarda turizm infrastrukturuna investisiyalar, innovativ həllər, mədəni irsin gələcək nəsillərə ötürülməsi və qastronomiyanın dayanıqlı turizmə töhfəsi diqqət mərkəzində olub. Proqramın sonuncu panelində Expedia, Booking.com, DERTOUR Group, Intrepid Travel və easyJet kimi beynəlxalq şirkətlərin nümayəndələri turizm sektorunda dayanıqlılıq siyasətlərini və ekoloji təcrübələrin genişləndirilməsi imkanlarını təqdim ediblər.



COP31-in Mavi Zonasında, Türkiyə pavilyonunda da Turizm Tematik Günü çərçivəsində tədbirlər keçirilib. "Turizmdə iqlim həlləri: sıfır tullantı, elektrikləşmə, dayanıqlılıq və investisiyalar" mövzusunda təşkil olunan paneldə Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Nadir Alpaslan, BMT-nin Turizm Təşkilatının icraçı direktoru Shijun Liu, Braziliya Turizm Nazirliyinin nümayəndəsi Augusto Lira da Rocha və Azərbaycanın Dövlət Turizm Agentliyinin Aparat rəhbəri Kənan Əliyev çıxış ediblər.

Müzakirələrdə turizm sektorunun iqlim dəyişikliyi ilə mübarizəyə verə biləcəyi töhfələr, dövlət və özəl sektor arasında əməkdaşlıq, sıfır tullantı siyasəti və dayanıqlı investisiyaların təşviqi məsələləri nəzərdən keçirilib.

COP31 çərçivəsində Antalyanın mədəni irsinin beynəlxalq nümayəndə heyətlərinə tanıdılması istiqamətində də təşəbbüslər həyata keçirilib. Türkiyənin Mədəniyyət və Turizm naziri Mehmet Nuri Ersoy yenidən qurulan Antalya Arxeologiya Muzeyinin 2027-ci ildə ziyarətçilər üçün açılacağını bildirib.

Konfrans müddətində Side şəhərində gecə muzey ziyarətləri də təşkil olunub. Rəsmi nümayəndə heyətlərinə nazirliyin tabeliyindəki muzey və arxeoloji ərazilərə ödənişsiz giriş imkanı yaradılıb.

Bununla yanaşı, tanıtım proqramı çərçivəsində Antalya 40-dan çox beynəlxalq turizm nümayəndəsini qəbul edib.

Qonaqlar arasında Körfəz ölkələri, Yaxın Şərq, Hindistan, Avropa və Böyük Britaniyadan olan tur operatorları, onlayn səyahət agentlikləri, beynəlxalq tədbir təşkilatçıları və media təmsilçiləri yer alıblar.

Nümayəndə heyətləri Antalya EXPO kompleksini ziyarət edərək şəhərin beynəlxalq konqreslər, sərgilər və irimiqyaslı tədbirlər üçün infrastrukturu və imkanları ilə tanış olublar.

COP31 çərçivəsində keçirilən tədbirlər Türkiyənin dayanıqlı turizm sahəsindəki təşəbbüslərinin beynəlxalq səviyyədə təqdim edilməsi, təcrübə mübadiləsinin genişləndirilməsi və Antalyanın qlobal turizm və işgüzar tədbirlər mərkəzi kimi mövqeyinin gücləndirilməsi baxımından əhəmiyyət daşıyır.

Xalq şairi: "Müasir gəncliklə qürur duyuram..."



"Geriyə baxanda heç nə üçün heyf demirəm. Heç nə üçün kaş demirəm. Nə peşmanlıq hissi çəkirəm, nə də heyifsiləmirəm. Başımıza nə gəlibsə, Allahın qismətidir. Heç nə səbəbsiz baş vermir. Vacib olan odur ki, insan mənalı ömür yaşasın. Mənalı ömür yaşamaq üçün də insan mərd olmalıdır. Mərdlik ən yüksək insani keyfiyyətdir".

Bu sözləri Adalet.az-a açıqlamasında yaxın günlərdə 81 yaşını qeyd edən Xalq şairi Vahid Əziz deyib:

"İnsan ömrün bu çağında özünə nə arzu edə bilər? Əlbəttə, sakit həyat, sağlam can, ölkəmizdə əmin- amanlıq olsun. Məncə, bu arzuları bütün insanlar arzulayırlar. İnsan ömrü enişli- yoxuşlu olanda mənalı olur. Hər çətinlik bir dərsdir. Qarşımıza çıxan yaxşı insanlar da, pis insanlar da bizim imtahanımızdır. Məncə, insanın ən böyük imtahanı da elə budur. Paxıllıq, nankorluq ən pis xəstəlikdir. Bu xususiyyətlər insanı məhv edir, cürüdür. Əksər hallarda ən sağalmaz xəstəliklər məhz bu xüsusiyyətlərdən yaranır.

Bizim gəncliyimiz Sovetlər dönəmini əhatə edirdi. Hər dövrün özünün müsbət və mənfi tərəfləri olur. Müasir gənclik bizim yetişdirdiklərimizdir. Səhvi də, düzü də bizimdir. Əgər bu gün gənclərin hər hansı səhvi varsa, burda günahkar bizik. Demək ki, biz nəyisə doğru etməmişik.

Müasir gəncliklə qürur duyuram. Çünki bu gənclik prezidentimiz İlham Əliyevlə birlikdə Qarabağı işğaldan azad etdilər. Xalq olaraq o dövrün gəncliyi də ləyaqətli idi, müasir gənclik də ləyaqətlidir".

Əntiqə

FİFA kiberhücuma məruz qaldı

Beynəlxalq Futbol Federasiyası (FİFA) kiberhücumla üzləşib. QOL.az xəbər verir ki, bu barədə jurnalist Rob Harris "X" sosial şəbəkəsində məlumat yayıb.

Onun sözlərinə görə, FİFA quruma qarşı cinayət xarakterli kiberhücum həyata keçirildiyini təsdiqləyib. Hücum nəticəsində şəxsi və kommersiya xarakterli məlumatların məhdud bir hissəsinə icazəsiz giriş əldə olunub. Təşkilat hadisə ilə bağlı hüquq-mühafizə orqanları ilə əməkdaşlıq etdiyini bildirib.

Qeyd edək ki, FİFA daha əvvəl qurumun prezidentliyi uğrunda mübarizə aparacaq üç namizədin adını açıqlayıb. Bunlar hazırkı prezident Canni İnfantino, Filipp Diallo və Kodzo Tasimadır.

Könül Nazimqızı: "Dərdini heç kəsə bildirmirdi"



Şairə Könül Nazimqızı mərhum dostu Rəhim Rəhimli ilə xatirələrini bölüşüb ağladı.

Adalet.az bildirir ki, o, mərhumun sağalmaz xəstəlikdən əziyyət çəkdiyini etiraf edib:

"Rəhim həyat dolu insan idi. Xəstəliyi ilə barışa bilmirdi. Hətta onun analizlərinin cavabında xərçəng xəstəliyi aşkarlansa da , o bununla bağlı müalicə almırdı. Çünki həmin xəstəliyin onda olmağına inanmırdı. Ancaq həmişə mənə deyirdi ki, Könül bu, artıq sondur. Daha ağrılara dözə bilmirəm. Ölməndən bir neçə gün əvvəl onunla görüşmüşdük. Bütün ağrılara rəğmən üzü gülürdü. Dərdini heç kəsə bildirmək istəmirdi".

Elgiz Əkbər: "Bu hadisədə həmkarlarımı daha yaxşı tanıdım"



Aparıcı Elgiz Əkbər proqramında yaşananlarla bağlı açıqlama verib.

Adalet.az bildirir ki, yaranmış vəziyyətdən çox, həmkarlarının onu müzakirə etməsini qınayıb:

"Bu, canlı efirdir. Hər bir hadisə baş verə bilər. Yəni hər şey gözləniləndir. Emosinal anda hansısa ifadə düzgün səslənməyə bilər. İnsanlar bəzən hislərini cilovlaya bilmirlər.

Ona görə də kiçik bir anlaşılmazlıq böyük qalmaqala qədər uzanır. Mən bu hadisədə daha çox həmkarlarımı yaxşı tanıdım. Onsuzda tanıyırdım, indi daha yaxşı tanıdım. Mənə irad tutan adamın efirində onlarla hadisə baş verir.

Hazırda ən bahalı reklam onun veriliş üçündür. Səbəb nədir ? Onun digər sosial verilişlərdən nə fərqi var? Evindən qaçan, ailəsindən bezən hamı onun efirindədir. Hətta efirə gəlməyi də ödənişli edib. İnsan danışanda vicdanla, insafla danışmalıdır".

Əntiqə KƏRİMZADƏ

Məşhur aktrisa da saxlanıldı



Tanınmış aktrisa Burcu Özberk İstanbul Baş Prokurorluğu tərəfindən narkotik istintaqı çərçivəsində saxlanılıb.

Adalet.az xəbər verir ki, istintaq çərçivəsində barələrində həbs qətimkan tədbiri seçilən 35 şübhəlidən 23-ü tutulub. Saxlanılanlar arasında Özcan Dəniz, Deniz Çakır, Murat Ceylan, Cansu Taşkın və İbrahim İzzet Özilhan var.

Şahid ifadələrinin, şübhəli şəxslərin ifadələrinin, rəqəmsal materiallar üzrə ekspert hesabatlarının və məxfi şahid ifadələrinin qiymətləndirilməsinə əsaslanaraq, narkotik maddə istifadəsi və ya saxlama şübhəsi ilə bağlı həbs qərarları verilmişdir.

Qeyd edək ki, gənc aktrisa hazırda "Anne yarısı" serialında baş rolu canlandırır.

ELAN

Bildiririk ki, "FLAMİNQO PALAZZO" MMC-yə məxsus, VÖEN: 5400913111 olan müəssisənin möhürü itmişdir. Möhürün itməsi ila əlaqədar olaraq, həmin möhürdən istifadə edilməklə bundan sonra rəsmiləşdiriləcək hər hansı sənəd, müqavilə digər hüquqi əhəmiyyətli əməliyyatların müəssisə tərəfindən qəbul edilmədiyini bildiririk. Qeyd olunan möhürün etibarsız hesab edilməsini və möhürdən istifadə edilməklə rəsmiləşdirilən sənədlərə münasibətdə ehtiyatlı olmağı xahiş edirik.

"FLAMİNQO PALAZZO" MMC-nin direktoru:
Ağayev Samir Ehsan oğlu Tarix: 26.11.2026

Fərəc Fərəcov əməkdar jurnalist
Muxtar Məmmədovun
vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

"Ədalət" qəzetinin kollektivi **Vasif Əlihüseynə** atası
Əlifağa Əlihüseynovun
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Faiq Qismətoğlu "Poliqon" jurnalının baş redaktoru **Zaur Babaşova** atası
Akif Babaşovun
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hüsniyyə Əlizadə **Təranə, Kəmalə, Xəqani Qaraşovlara** əzizləri
İlhamə Həsən qızı Qaraşovanın
vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumənin yaxınlarına və doğmalarına dərin hüzünlə başsağlığı verirlər.

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 305
Çapa imzalanmışdır: 26.11.2026